**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN AZƏRBAYCAN DİLİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

**(I - XI siniflər)**

**Bakı – 2013**

Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə işçi qrupu tərəfindən hazırlanmışdır:

Sədr: Nizami Cəfərov - AMEA-nın müxbir üzvü, BDU-nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor, Yəhya Kərimov - ARTPİ-nin direktor müavini, pedaqogika üzrə elmlər doktoru, professor, Yusif Seyidov - BDU-nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor, İsmayıl Məmmədov – AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor, Buludxan Xəlilov – ADPU-nun dekanı, filologiya üzrə elmlər doktoru, professor, Əzizxan Tanrıverdiyev – ADPU-nun kafedra müdiri, filologiya elmləri doktoru, professor, Faiq Şahbazlı – Azərbaycan Respublikası Təhsil Nazirliyinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, Asif Hacıyev – ARTPİ-nin aparıcı elmi içşisi, pedaqogika üzrə fəlsəfə doktoru, Günay Mirzəzadə - koordinatoru, ARTPİ-nin elmi işçisi, Nazilə Abdullazadə – AMİ-nin prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, Vaqif Qurbanov – AMİ-nin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Məlahət Əliyeva – ARTPİ-nin böyük elmi işçisi, Sevil Yusifova - ARTPİ-nin böyük elmi işçisi, Günay Məmmədova - ARTPİ-nin elmi işçisi, Gülarə Xudiyeva – Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi, Sevda Abbasova – Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, Afət Xəlilova – Bakı şəhəri 201 nömrəli məktəbin müəllimi, Aynur Rüstəmova – Bakı Avropa liseyinin müəllimi, Elçin Manafov – Bakı şəhəri, 49 nömrəli məktəbin müəllimi, Şamil Sadıqov – Bakı şəhəri, 20 nömrəli məktəb-liseyin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Nazim Nəsrəddinov – Bakı şəhəri, "Elitar" gimnaziyanın müəllimi, Esmira Cəfərova – Bakı şəhəri 248 nömrəli məktəbin müəllimi, Könül Səmədova – Bakı şəhəri 147 nömrəli liseyin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Tünzalə Mikayılova – Bakı şəhəri 162 nömrəli məktəbin müəllimi, Vətanə Zeynalova - Bakı şəhəri 177 nömrəli məktəbin müəllimi, İmran Verdiyev – Oğuz rayonu, Yaqublu kənd orta məktəbin müəllimi, Dilbər Mehdiyeva - Bakı şəhəri 295 nömrəli məktəbin müəllimi, Çimnaz Əliyeva - Bakı şəhəri 124 nömrəli məktəbin müəllimi, Şəlalə Cavadova - Bakı şəhər, 120 nömrəli məktəbin müəllimi, Sevil Haşımova - Bakı şəhəri 156 nömrəli məktəbin müəllimi, Hafiz Seyidova - Bakı şəhəri 136 nömrəli məktəbin müəllimi, Məhsəti Rəhimova - Bakı şəhəri 17 nömrəli məktəbin müəllimi, Səbinə Yusifova - Bakı şəhəri 136 nömrəli məktəbin müəllimi, Rəna Quliyeva - Bakı şəhəri "Zəngi" liseyinin müəllimi, Nərgiz Gəncəliyeva – Bakı şəhəri "Zəngi" liseyinin müəllimi, Nailə Abdalova - Bakı şəhəri 9 nömrəli məktəbin müəllimi, Səmagül Əsgərova - Bakı şəhəri 102 nömrəli məktəbin müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Bibixanım İbadova,** ARTPİ-nin İbtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru

**Ramiz Hüseynov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin müdiri

**Günay Mirzəzadə,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin elmi işçisi

**Günay Məmmədova,** ARTPİ-nin ibtidai təhsilin kurikulumu şöbəsinin elmi işçisi

**Mündəricat**


**Giriş**

**I. Azərbaycan dili təliminin məzmunu**

1.1. Ümumi təlim nəticələri

1.2. Məzmun xətləri

1.3.Məzmun xətləri üzrə təlim nəticələri

1.4. Fəaliyyət xətləri

1.5. Məzmun standartları

I sinif

II sinif

III sinif

IV sinif

V sinif

VI sinif

VII sinif

VIII sinif

IX sinif

X sinif

XI sinif

1.6.Fəndaxili və fənlərarası inteqrasiya

**II.Təlim strategiyaları**

2.1.Azərbaycan dili təliminin təşkilinə verilən əsas tələblər

2.2. Azərbaycan dili təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

2.4. Azərbaycan dili fənninin məzmun standartlarının şərhi

**III.  Şagird nailiyyətlərinin qiymətləndirilməsi**

**Tezaurus**

**Resurslar**

**İstifadə edilmiş ədəbiyyat**

# Giriş

**Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbləri, şagirdlərin imkanları, meyil və maraqları nəzərə alınmışdır. Burada fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar və qiymətləndirmə məsələləri əhatə edilmişdir. Bu, dərslik və dərs vəsaitiləri müəlliflərini, müəllimləri, qiymətləndirmə mütəxəssislərini və Azərbaycan dili təlimi ilə məşğul olan digər təhsil işçilərini istiqamətləndirməyə xidmət edir.

Azərbaycan dili təliminin məzmunu nəticəyönümlü standartlar əsasında hazırlanmışdır. Nəticələrin əvvəlcədən müəyyən olunması onlara doğru yönəlmiş fəaliyyətlərin inkişafını izləmək və istiqamətləndirmək üçün ardıcıl qiymətləndirmə aparılmasına imkan yaradır.

Məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ-kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əhatə olunması, düşünmə, emosional və psixomotor bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bütün standartlar fəaliyyətlərə aid bacarıqlar şəklində ifadə olunmuş, şagirdlərin bilik və bacarıqları ilə bağlı nailiyyətlərini müəyyənləşdirmək diqqət mərkəzində saxlanılmışdır.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Ümumtəhsil məktəblərində ana dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından vacib məsələlərdən biri hesab edilir. Dünya ölkələrində ana dilinin öyrədilməsi milli təfəkkürün formalaşmasında mühüm vasitə kimi yüksək dəyərləndirilir. Milli Kurikulumlar bir qayda olaraq, ana dili ilə başlanır. Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi

diqqət yetirilir. Bütün bunlar isə bir fənn kimi ana dilinin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Firudin bəy Köçərlinin fikrincə, "Ana dili millətin mənəvi diriliyidir. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır".

Azərbaycan dilinə yiyələnmə ailədən başlayır. Uşaq məktəbə gələnədək ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvürlər əldə edir. Bu onun lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir, əşya və hadisələr haqqında fikirlərini formalaşdırır, başqalarının dediklərini anlamağa imkan yaradır. Məktəbdə isə həmin iş sistemli, ardıcıl, mütəşəkkil davam etdirilir. Məhz buna görə də ana dilinin öyrənilməsi Milli Kurikulumda özünəməxsus yer tutur.

Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, *düşünmə*, *öyrənmə* və *danışma* bacarıqlarını formalaşdırır. Nəticədə bu dil düşünmə, öyrənmə, danışma vasitəsinə cevrilir.

Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənnin vasitəsilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda, bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirirlər.

Orta məktəbi başa vuran gənclər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün müasir dövrün iqtisadi, hüquqi və texnoloji çətinliklərinə hazır olmalı, onların aradan qaldırılmasında təşəbbüskarlıq və fəallıq göstərməlidirlər. Bunun üçün təkcə elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə olunmalıdır. Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan, Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür.

Ana dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər.

Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin **məqsədi** ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də:

- nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq;
- Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək;
- davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vasitəsilə aşağıdakıların həyata kecirilməsi nəzərdə tutulur:

**ibtidai təhsil səviyyəsində** əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur;

**ümumi orta təhsil səviyyəsində** şagirdlərdə ifadəli və şüurlu oxu, aydın, səlis, düzgün şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi, nitqin leksik, qrammatik və üslubi cəhətdən zənginliyi, təcrübi baxımdan əhəmiyyətli olan dilçilik anlayışları və qaydalarının mənimsənilməsi, dil hadisələri zəminində şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişafı, şagirdlərdə ana dilinə məhəbbət və hörmət hissinin formalaşdırılması təmin edilir;

**tam orta təhsil səviyyəsində** ümumi orta təhsil səviyyəsindəki fəaliyyət istiqamətləri inkişaf etdirilməklə ədəbi dilin üslublarından istifadə imkanlarının

genişləndirilməsi, şifahi və yazılı nitq prosesində nitq mədəniyyətinin tələblərinə riayət edilməsi, natiqlik vərdişləri elementlərinin yaradılması təmin olunur.

## I. Azərbaycan dili təliminin məzmunu

### 1.1.Ümumi təlim nəticələri

**İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə şagird:**

- danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;
- düzgün, sürətli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;
- kiçikhəcmli rabitəli mətnlər qurur;
- lüğətlərdən, məlumat kitablarından istifadə edir;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir;
- yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir.

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- dinlədiyi mətnlərə münasibət bildirməklə mövqeyini əsaslandırır;
- mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir;
- dil vahidlərindən istifadə etməklə müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur, onları təkmilləşdirir;
- müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir;
- şifahi və yazılı nitqində zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

**Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:**

- müxtəlif mənbələrdən aldığı məlumatları təhlil edir və onlara münasibət bildirir;
- mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir və qiymətləndirir;
- mənbələrdən istifadə etməklə müxtəlif üslublu mətnlər qurur;
- müzakirə, görüş, diskussiya tədbirlər üçün məruzə, təqdimat və ssenarilər hazırlayır;
- nitqin dəqiqliyi, düzgünlüyü və ifadəliliyi üçün zəruri olan normaları şifahi və yazılı nitqində tətbiq edir.

## 1.2. Məzmun xətləri

**Məzmun xətləri** ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır.

Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə aşağıdakı kimi təyin edilmişdir:

- Dinləyib – anlama və danışma
- Oxu
- Yazı
- Dil qaydaları

**Dinləyib-anlama və danışma**

Bu məzmun xətti danışanı dinləyə bilmək, onun fikrinə münasibət bildirmək, müxtəlif informasiya mənbələrindən alınan məlumatlardan bəhrələnmək, əsas ideyanı ikinci dərəcəli məsələlərdən seçmək, fikrini inandırıcı şəkildə təqdim etmək bacarıqlarının formalaşdırılmasını təmin edir. Dinlənilmiş mətndəki informasiyanı çevik qəbul edib onun əsasında aydın və dəqiq mühakimə yürütmək, qoyulmuş məqsədə və auditoriyanın səviyyəsinə müvafiq məntiqi, rabitəli və inandırıcı çıxışlar etmək, müxtəlif əyani və texniki vasitələrlə təqdimatlar keçirmək imkanı yaradır.

**Oxu**

Oxu şagirdlərin dil duyumunun inkişafını, fikrin ifadə olunmasında sözün məna xüsusiyyətlərinin, cümlə və mətnin rolunun anlaşılmasını, lazımi vərdişlərin məqsədyönlü şəkildə təkmilləşdirilməsini, dilin gözəlliyinə, üslubi imkanlarının zənginliyinə şagirdlərin maraq və məhəbbətinin formalaşmasını təmin edir. Bu məzmun xətti müxtəlif üslublarda yazılmış mətnlərin məzmun və struktur elementlərinin müstəqil qavranılmasına imkan yaradır, ana dilinə, bu dildə yazılmış elmi-kütləvi və ədəbi-bədii nümunələrə marağı dərinləşdirməyə, ümumi nitq mədəniyyətinin inkişafı üçün lüğət ehtiyatını daha da zənginləşdirməyə xidmət edir.

**Yazı**

Yazı şagirdlərin duyğu və düşünçələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini təmin edir. Oxu prosesində qazanılan baçarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş işin hesabatının hazırlanmasını təmin edir. Ədəbi dilin normaları gözlənilməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

**Dil qaydaları**

Bu məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, sadə, aydın qayda və şərhlər formasında şagirdlərə catdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir.

### 1.3.Məzmun xətləri üzrə təlim nəticələri

***İbtidai təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Dinləyib-anlama və danışma**

*Şagird:*

- müsahibinin fikrinə münasibət bildirir və öz mövqeyini əsaslandırır;
- müxtəlif informasiyaları seçib təhlil edir, ümumiləşdirir və bunlara münasibət bildirir;
- müşahidə etdiyi şəkil, əşya, mənzərə və hadisə əsasında hekayə qurur;
- məktəb tədbirlərində müstəqil çıxış edir;
- dinləyəni inandırmaq üçün fikrini müxtəlif vasitələrlə əsaslandırır;
- danışarkən nitq etiketlərindən (salamlaşmaq, təbrik etmək, təşəkkür etmək, üzr istəmək) istifadə edir.

**Oxu**

*Şagird:*

- mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur;
- müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur;
- oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir;
- bədii və elmi – kütləvi mətnləri fərqləndirir.

**Yazı**

*Şagird:*

- kiçik və böyük hərfləri, sözləri və cümlələri aydın yazır;
- müşahidə etdiyi əşya və hadisələr haqqında təsviri xarakterli kiçikhəcmli mətnlər yazır;
- əməli yazı (məktub, ərizə, elan, divar qəzetinə məqalə, tərcümeyi-hal) bacarıqları nümayiş etdirir;
- yazıda kalliqrafiya, orfoqrafiya və durğu işarələri qaydalarına əməl edir.

**Dil qaydaları**

**Şagird:**

- yaş həddinə uyğun zəruri fonetik, leksik, qrammatik biliklərə yiyələndiyini nümayiş etdirir;
- seçdiyi dil faktlarını qruplaşdıraraq təqdim edir;
- dinlədiyi fikri anladığını nümayiş etdirir;
- şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir;
- qarşılaşdığı sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir;
- oxu texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- yazı texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- kalliqrafiya və orfoqrafiya qaydalarını gözləməklə müxtəlif növ yazılı çalışmaları (üzündənköçürmə yaddaşa əsasən yazı, imla, ifadə, inşa) yerinə yetirir;
- fonetik, leksik, morfoloji, sintaktik, orfoqrafik qaydaları mənimsədiyini nümayiş etdirir.

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Dinləyib-anlama və danışma**

*Şagird:*

- danışanın fikrinə münasibət bildirir;
- dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif tipli və formalı mətnlər qurur;
- fikrini inandırıcı etmək üçün fakt və hadisələrdən istifadə edir;
- nitqini uyğun səs tonu, intonasiya, ritm, jest və mimikalarla tənzimləyir.

**2. Oxu**

*Şagird:*

- tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir;
- verilmiş mətni düzgün və ifadəli oxuyur;

- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini müəyyən edir;
- oxuduğu mətni məzmununa görə təhlil edir.

**3. Yazı**

*Şagird:*

- mənbələrdən istifadə etməklə irəli sürülmüş problemlə bağlı müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, hekayə, esse) rabitəli mətnlər qurur;
- ilkin əlyazma (qaralama) üzərində işləməklə onu təkmilləşdirir;
- əməli yazılar (ərizə, tərcümeyi-hal, elan, məktub, teleqram, izahat, arayış, protokol, hesabat, akt) yazır.

**4. Dil qaydaları**

*Şagird:*

- zəruri fonetik, leksik, qrammatik anlayışları izah edir, bir-birindən fərqləndirir, mülahizələrini əsaslandırır və təqdim edir.
- sözləri leksik, qrammatik mənalarına görə izah edir, müxtəlif sintaktik vəzifələrdə işlədir;
- cümlələrdə durğu işarəsi qaydalarından istifadə edir;
- müxtəlif dil vahidlərinin yazılış qaydalarına əməl edir.

***Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Dinləyib-anlama və danışma**

*Şagird:*

- Dinlədiyi və KİV-dən (Kütləvi İnformasiya Vasitələri) aldığı müxtəlif məlumatlara münasibət bildirir;
- auditoriyanın marağına uyğun üslub seçir, qoyulmuş problem ətrafında müzakirə açır;
- mənbələrə istinad etməklə fikrini əsaslandırır;

- yardımçı nitq vasitələrindən istifadə etməklə danışır.

**2. Oxu**

*Şagird:*

- öyrəndiyi söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir;
- söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edir, qiymətləndirir;
- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini təhlil etməklə məzmunun aydın ifadə olunmasına təsirini izah edir.

**3. Yazı**

*Şagird:*

- təqdim olunmuş mövzuya uyğun üslub seçməklə fikirlərini yazılı şərh edir, layihələr, ssenarilər hazırlayır;
- üslubi tələblər baxımından özünün və başqasının yazısını təkmilləşdirir;
- müzakirə, görüş, diskussiya və s. tədbirlərin təşkili və keçirilməsi məqsədi ilə yazılı rəy, məruzə, referat, təqdimat hazırlayaraq səmərəli əmakdaşlıq nümayiş etdirir.

**4. Dil qaydaları**

*Şagird:*

- türk dilləri ailəsinə daxil olan bir dil kimi Azərbaycan dilinin xüsusiyyətlərini şərh edir;
- qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə edir;
- nitqin düzgünlüyünü və ifadəliliyini təmin edən durğu işarələrindən istifadə edir;
- mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirir.

## 1.4. Fəaliyyət xətləri

Azərbaycan dili üzrə məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət istiqamətləri ilə əlaqəlilik nəzərə alınmışdır:

- Problemin həlli
- Mühakiməyürütmə və əsaslandırma
- Ünsiyyət
- Tədqiqetmə
- Tətbiqetmə

## 1.5. Məzmun standartları

### I sinif

**I sinfin sonunda şagird:**

- dinlədiyi sadə fikrə münasibət bildirir;
- müşahidələrə əsaslanan danışığında, dialoji nitqində sadə nitq etiketlərindən və mimikalardan istifadə edir;
- mətndəki yaxınmənalı sözləri izah edir və cümlədə işlədir;
- kiçikhəcmli mətni düzgün oxumaqla məzmununu nəql edir, əsas fikri müəyyənləşdirir;
- nəzm və nəsri fərqləndirir;
- hərfləri sözləri və kiçikhəcmli mətnləri hüsnxət qaydalarına uyğun yazır, müşahidə xarakterli mətn qurur əməli yazılar yazır;
- səs və hərfi fərqləndirir, sözləri hecalara ayırır, böyük və kiçik hərfi fərqləndirir, ad, əlamət, hərəkət bildirən sözləri, məqsəd və intonasiyaya görə cümlələri tanıyır və fərqləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh edir.

1.1.2. Dinlədiyi fikrə münasibətini bildirir.

*1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.*

1.2.1. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

1.2.2. Dialoqlarda sadə nitq etiketlərindən istifadə edir.

1.2.3. Nitqini müvafiq mimika və jestlərlə müşayiət edir.

**2.Oxu**

**Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır.

2.1.2. Mətndəki müəyyən olunmuş sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir.

2.1.3. Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir.

2.1.4. Mətndən sadə bədii ifadələri seçir.

*2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Kiçikhəcmli mətnləri düzgün tələffüz etməklə oxuyur.

2.2.2. Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir.

2.2.3. Mətnin şəkilli planını tutur.

2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.

2.2.5. Mətnnin məzmununu nəql edir.

**3. Yazı**

**Şagird:**

*3.1. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir.

3.1.2. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.

3.1.3. Şəklə uyğun cümlələr qurub yazır.

3.1.4. Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (açıqca) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Səs və hərfi fərqləndirir.

4.1.2. Sözləri hecalara ayırır.

4.1.3. Böyük və kiçik hərfləri fərqləndirir.

4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır.

4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir.

4.1.6. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır.

4.1.7. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir.

## II sinif

**II sinfin sonunda şagird:**

- dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır;
- müşahidə etdikləri, eşitdikləri, oxuduqları haqqında danışığında, dialoji nitqində situasiyaya uyğun nitq etiketlərindən, jest və mimikalardan istifadə edir;
- mətndəki yaxınmənalı və əksmənalı sözləri fərqləndirir, frazeoloji ifadələrin mənasını izah edir;
- kiçikhəcmli mətni düzgün və sürətli oxuyur, əsas fikrə münasibət bildirir, mətni hissələrə ayırır, bədii mətni janrlara görə fərqləndirir;
- hüsnxət və orfoqrafiya qaydalarına əməl etməklə müşahidə və təəssüratlar əsasında kiçikhəcmli esse və sadə əməli yazılar yazır;
- sait və samit səsləri fərqləndirir, sözlərin sətirdən-sətrə keçirilməsi, böyük hərflə yazılması qaydalarını tətbiq edir, ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdırır, onların yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğətdən

istifadə edir, cümləni digər nitq vahidlərindən fərqləndirir, məqsəd və intonasiyaya görə qurduğu cümlələri müvafiq durğu işarələri ilə tamamlayır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib- anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Sual verməklə dinlədiyi fikrin mahiyyətini aydınlaşdırır.

1.1.2. Dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır.

*1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.*

1.2.1. Müşahidə etdikləri, eşitdikləri və oxuduqları haqqında danışır.

1.2.2. Dialoqlarda vəziyyətə uyğun nitq etiketlərindən istifadə edir.

1.2.3. Nitq situasiyalarından asılı olaraq müvafiq jest və mimikalardan istifadə edir.

**2. Oxu**

**Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin adlarını müvafiq məna qrupuna aid edir.

2.1.2. Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir.

2.1.3. Mətndə frazeoloji ifadələrin mənasını izah edir.

*2. 2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Müvafiq mətnləri tələffüz normalarına uyğun düzgün və sürətli oxuyur.

2.2.2. Kiçikhəcmli bədii mətnləri janrlara görə fərqləndirir.

2.2.3. Mətnin hissələrinə başlıqlar verməklə məzmununa aid sadə plan tutur.

2.2.4. Mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir.

2.2.5. Mətndəki əsas fikri həyatla əlaqələndirir.

**3.Yazı**

**Şagird:**

*3.1. Yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Yazısında sadə hüsnxət və orfoqrafiya normalarına riayət edir.

3.1.2. Çap hərfləri ilə yazılmış mətni üzündən köçürür.

3.1.3. Marağına uyğun seçdiyi nəzm nümunəsini əzbərdən yazır.

3.1.4. Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli esse yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (məktub, açıqca, elan) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Sait və samit səsləri fərqləndirir.

4.1.2. Sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir.

4.1.3. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (şəxs və coğrafi adlar) məqamına uyğun tətbiq edir.

4.1.4. Mətndə rast gəldiyi yeni sözlərin yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğətdən istifadə edir.

4.1.5. Ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdırır.

4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir.

4.1.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq durğu işarələri ilə tamamlayır.

## III sinif

**III sinfin sonunda şagird:**

- dinlədiyi fikirləri müqayisəli təhlil etməklə mövqeyini şərh edir;
- müşahidə etdiklərinə, eşitdiklərinə, oxuduqlarına münasibət bildirməklə nəql edir, dialoqlarda iştirak edir, situasiyaya uyğun jest və mimikalardan istifadə edir;

- sözlərin həqiqi və məcazi mənasını, çoxmənalı sözləri fərqləndirir;
- müvafiq mətni düzgün sürətli və intonasiya ilə oxuyur, bədii və elmi-kütləvi mətnləri fərqləndirir, mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir, əsas fikri həyatla əlaqələndirir;
- hüsnxət və orfoqrafiya qaydalarına əməl etməklə təsvir və nəqli xarakterli inşa və sadə əməli yazılar yazır;
- sait və samit səsləri xüsusiyyətinə görə fərqləndirir, sözlərin böyük hərflə yazılmasına dair qaydaları tətbiq edir,
- yeni sözlərin mənasını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir;
- qrammatik mənalarına görə sözləri qruplaşdırır;
- cümlədə sözlərin düzgün ardıcıllığını müəyyənləşdirir, baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir;
- məqsəd və intonasiyanı dəyişməklə cümləni müxtəlif məqamlarda işlədir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi fikirləri müqyaisəli təhlil edir.

1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir.

*1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.*

1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir.

1.2.2. Eşitdiyi, oxuduğu bədii nümunələri dialoq şəklində təqdim edir.

1.2.3. Ədəbi-bədii nümunələri ifa edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir.

**2. Oxu**

**Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin xarakterik əlamətlərini adlandırır.

2.1.2.Mətndəki çoxmənalı sözləri fərqləndirir.

2.1.3. Sözlərin həqiqi və məcazi mənasını fərqləndirir

*2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (cümlə növlərinə görə) oxuyur.

2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir.

2.2.3. Mətnin geniş planını tutur.

2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir.

2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir.

**3. Yazı**

**Şagird:**

*3.1. Yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Hüsnxət və orfoqrafiya qaydalarına riayət etməklə səliqəli və sürətlə yazır.

3.1.2. Sadə redaktə işləri aparmaqla mətni köçürür.

3.1.3. Verilmiş mətnin planını tutur və məzmununu yazır.

3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, anket, dəvətnamə) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Sait və samit səsləri xüsusiyyətlərinə görə fərqləndirir.

4.1.2.Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bayramlar və tarixi günlər) məqamına uyğun tətbiq edir.

4.1.3.Rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir.

4.1.4. Qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözləri qruplaşdırır.

4.1.5. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.

4.1.6. Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir.

4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

## IV sinif

**IV sinfin sonunda şagird:**

- dinlədiyi fikirlər barədə yekun rəy bildirir və onu əlavələrlə inkişaf etdirir;
- müşahidə etdikləri, eşitdikləri, oxuduqları fakt və hadisələr haqqında məzmuna uyğun jest və mimikalardan istifadə etməklə təqdimatlar edir, dialoji mətnlər qurur;
- mətndəki terminləri, obrazlı ifadələri fərqləndirir;
- müvafiq mətni düzgün sürətli və intonasiya ilə oxuyur, bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir, verilmiş mətnə dair yaradıcı plan tərtib edir, məzmununu yaradıcı şəkildə davam etdirir, mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir;
- orfoqrafiya qaydalarına riayət edir, sadə əməli və kiçikhəcmli mühakimə xarakterli yazılar yazır;
- sadə fonetik təhlil aparır, sözlərin böyük hərflə yazılışına dair qaydaları tətbiq edir, sözlərin mənasını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir, sözləri qrammatik mənalarına görə qruplaşdırır;
- cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir, məqsəd və intonasiyaya görə cümlənin növlərinə aid təqdimatlar edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir.

1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir.

*1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.*

1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.

1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir.

1.2.4. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müvafiq jest və mimikalardan istifadə edir.

**2. Oxu**

**Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndəki hadisələri həyat hadisələri ilə müqayisə edir.

2.1.2. Mətndəki terminləri fərqləndirir.

2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir.

*2.2. Oxu vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur.

2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir.

2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur.

2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir.

2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir.

**3. Yazı**

**Şagird:**

*3.1. Yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir.

3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür.

3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır.

3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Sadə fonetik təhlil aparır.

4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir.

4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir.

4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir.

4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir.

4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.

4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir.

## V sinif

**V sinfin sonunda şagird:**

- dinlədiyi məlumatlarda əsas fakt və hadisələri müəyyənləşdirir;
- dediyi fikri fakt və nümunələrlə əsaslandırır;
- lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyənləşdirir;

- mətni tələffüz qaydalarına uyğun oxuyur;
- mətndəki əsas fikri müəyyənləşdirir;
- mövzu ilə bağlı topladığı materialları ümumiləşdirir;
- mətnin tərkib hissələrini fərqləndirir;
- müxtəlif əməli yazılar (elan, məktub) yazır;
- cümlənin məqsəd və intonasiyaya görə növləri, sözün səs tərkibi, semantikası, tərkibi, yaranma üsulları və qrammatik mənasına (ad, əlamət, hərəkət bildirməsi) aid xüsusiyyətləri mənimsədiyini nümayiş etdirir;
- sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir, cümlənin sonunda və dialoqlarda durğu işarələrini tətbiq edir.

## Məzmun xətləri üzrə əsas və alt-standartlar

### 1. Dinləyib-anlama və danışma

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır.

1.1.2. Dinlədiyi məlumatlardakı əsas faktları seçir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Deyəcəyi fikrə müvafiq ifadə forması seçir.

1.2.2. Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.

1.2.3. Danışarkən mimika və jestlərdən yerli-yerində istifadə edir.

1.2.4. Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir.

### 2. Oxu

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir.

2.1.2. Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Tələffüz qaydalarını gözləməklə mətni düzgün oxuyur.

2.2.2. Mətnin tərkib hissələrini fərqləndirir.

2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir.

3.1.2. Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır.

3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir.

3.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.

**4. Dil qaydaları**

***Şagird:***

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərinə ayırır.

4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

4.1.3. Cümlənin sonunda və dialoqlarda durğu işarələrindən məqsədyönlü istifadə edir.

4.1.4. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir.

## VI sinif

**VI sinfin sonunda şagird:**

- dinlədiyi məlumatları ümumiləşdirir;
- problemlə bağlı mülahizələrini bildirir;
- mətndəki tanış olmayan sözlərin mənasını şərh edir;
- fikir və mülahizələrə münasibət bildirir;
- müxtəlif yazı tiplərini (nəqli, təsviri, mühakimə) fərqləndirir;

- müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır;
- sözün qrammatik mənasını, cümlənin qrammatik əsasını müəyyənləşdirir;
- müvafiq durğu işarələrindən düzgün istifadə edir və əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Danışanın məlumatlarına əsasən onun məqsədini (məqsədlərini) şərh edir.

1.1.2. Dinlədiyi məlumatı yığcam şəkildə ümumiləşdirir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Şifahi məlumat üçün əsas fikrin təqdimetmə formasını müəyyənləşdirir.

1.2.2. Dinləyən şəxsin əsas fikri və anlayışları başa düşməsinə kömək etmək üçün mühüm məqamları vurğulayır.

1.2.3. Nitqində intonasiya və ritmdən düzgün istifadə edir.

1.2.4. Problemlə bağlı mülahizələrini söyləyir.

**2. Oxu**

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını şərh edir.

2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.

2.2.2. Mətni tərkib hissələrinə ayırır.

2.2.3. Mətndəki fikir və mülahizələrə münasibət bildirir.

**3. Yazı**

***Şagird:***

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Müxtəlif yazı tiplərini fərqləndirir.

3.1.2. Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir.

3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir.

3.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi - hal) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir.

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

4.1.3. O, bu əvəzliklərindən sonra vergüldən düzgün istifadə edir.

4.1.4. Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

## VII sinif

**VII sinfin sonunda şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir;
- mətndəki tanış olmayan sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir;
- səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur;
- fikir və mülahizələrini əsaslandırır;
- plan əsasında mətnlər yazır;
- müxtəlif əməli yazılar (teleqram, izahat) yazır;
- ümumi qrammatik mənasına görə sözləri, quruluşuna görə cümlələri fərqləndirir;
- nitq hissələrinin yazılışı və durğu işarələrindən istifadə qaydalarına əməl edir.

## Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyyən edir.

1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir.

1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir.

1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir.

1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir.

**2. Oxu**

***Şagird:***

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir.

2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.

2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, hekayə) ifadə edir.

3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir.
3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir.
3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir.
4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir.
4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- dinlədiyi fikrin məntiqiliyini əsaslandırır;
- müxtəlif mövqeli fikirləri ümumiləşdirir;
- mətndəki tanış olmayan söz və ifadələrin mənasını şərh edir;
- hissələri arasında əlaqələri gözləməklə mətni oxuyur;
- mətndəki fakt və hadisələri real həyatla müqayisə edir və əlaqələndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) yazılar yazır;
- müxtəlif əməli yazılar (arayış, protokol) yazır;
- sözün sintaktik vəzifəsini və sadə cümlənin növünü müəyyənləşdirir;
- cümlədə durğu işarəsi və orfoqrafiya qaydalarına əməl edir.

## Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Suallar verməklə dinlədiyi fakt və hadisələr barədə özünün fikir və mülahizələrini dəqiqləşdirir.

1.1.2. Dinlədiyi fikrin məntiqiliyini əsaslandırır.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Auditoriyanın səviyyəsinə uyğun ifadə forması seçir.

1.2.2. Əlavə materiallardan istifadə etməklə nitqini zənginləşdirir.

1.2.3. Nitq etiketlərindən məqamında istifadə edir.

1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif mövqeli fikirləri ümumiləşdirir.

**2. Oxu**

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.

2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını nümunələrlə şərh edir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Söz sırasını, cümlələr və abzaslar arasında əlaqəni gözləməklə mətni oxuyur.

2.2.2. Mətnin hissələri arasında əlaqəni şərh edir.

2.2.3. Mətndəki fakt və hadisələri real həyatla müqayisə edir və əlaqələndirir.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.

3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.

3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir.

3.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Sadə cümlənin növlərini fərqləndirir.

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir.

4.1.4. Həmcins üzvlərdə şəkilçilərin yazılış qaydalarına əməl edir.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir və onları ümumiləşdirilmiş şəkildə təqdim edir;
- tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir;
- mətni müvafiq intonasiya ilə oxuyur;
- irəli sürülmüş əsas fikirləri dəyərləndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) yazılar yazır, təkmilləşdirir;
- müxtəlif əməli yazılar (hesabat, akt) yazır;
- sözləri müxtəlif sintaktik vəzifələrdə işlədir, mürəkkəb cümlənin növlərini müəyyənləşdirir;
- mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir;
- orfoqrafiya və düzgün yazı qaydalarına əməl edir.

### Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

1.1.2. Dinlədiyi fikirlərə münasibət bildirir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur.

1.2.2. Müxtəlif tipli rabitəli nitq nümunələri qurur.

1.2.3.Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (pauza, jest, mimika) uzlaşdırır.

1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir.

**2. Oxu**

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.

2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Mətni düzgün intonasiya ilə oxuyur.

2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.

2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır.
3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.
3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.
3.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.
4.1.2. Sözlərin və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.
4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

## X sinif

**X sinfin sonunda şagird:**

- dinlədiyi və KİV-dən aldığı məlumatları təqdim edilmə formalarına görə fərqləndirir;
- müxtəlif mülahizələri dəyərləndirməklə təqdimatlar hazırlayır;
- mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir;
- mətni ədəbi dil normalarına uyğun oxuyur;
- mətni tezislər və xülasə şəklində ifadə edir;
- müxtəlif mülahizələrin müqayisəsinə əsaslanan mətnlər yazır;
- müxtəlif əməli yazılar (rəy, məruzə) yazır;
- sözlərdən və cümlələrdən ədəbi dil normalarına uyğun istifadə edir;

- mətnin tərtibat formasını nəzərə almaqla durğu işarəsi və orfoqrafiya qaydalarına əməl edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri dəyərləndirir.*

1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatlarda yol verilmiş məntiqi nöqsanları müəyyən edir.

1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatları təqdim edilmə formalarına görə fərqləndirir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. İfadə edəcəyi fikrə uyğun üslub seçir.

1.2.2. Müfəssəl faktlardan, əyani vəsaitlərdən, müvafiq KİV-dən istifadə etməklə fikrini əsaslandırır.

1.2.3. Fakt və sitatlardan istifadə etməklə nitqini zənginləşdirir.

1.2.4. Müzakirələrdə söylənilmiş mülahizələri dəyərləndirməklə təqdimatlar hazırlayır.

**2. Oxu**

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.

2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Mətni ədəbi dilin normalarına uyğun oxuyur.

2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.

2.2.3. Mətnin məzmununu xülasə şəklində ifadə edir.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Mövzuya uyğun üslub seçir.

3.1.2. Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır.

3.1.3. Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir.

3.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Ədəbi dilin normalarına uyğun müxtəlif cümlə konstruksiyaları qurur.

4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir.

4.1.3. Müxtəlif cümlə konstruksiyalarında durğu işarələrindən istifadə edir.

4.1.4. Mətnin tərtibatı zamanı müxtəlif yazılış formalarından istifadə edir.

## XI sinif

**XI sinfin sonunda şagird:**

- dinlədiyi və KİV-dən aldığı məlumatlara münasibət bildirir;
- fikrini müxtəlif üslublarda ifadə edir və əsaslandırılmış təqdimatlar hazırlayır;
- söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir, müxtəlif üslublu mətnləri düzgün oxuyur;
- mətnin məzmununa əlavələr etməklə genişləndirir;

- fərqli yanaşmalara və şəxsi düşüncələrə əsaslanan müxtəlif üslublu mətnlər yazır, təkmilləşdirir;
- müxtəlif əməli yazılar (referat, təqdimat) yazır;
- sözlərdən və müxtəlif cümlə konstruksiyalarından üslubi imkanlarına görə istifadə edir;
- yazıda durğu işarəsi və orfoqrafiya qaydalarına əməl edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri dəyərləndirir.*

1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatları təhlil edir.

1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatlara münasibət bildirir.

*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

1.2.1. Fikrini müxtəlif üslublarda ifadə edir.

1.2.2. Əsaslandırılmış fikir və mülahizələr söyləyir.

1.2.3. Yardımçı vasitələrdən istifadə etməklə müxtəlif nitq nümunələri qurur.

1.2.4. Problemlə bağlı fakt və dəlillərlə əsaslandırılmış təqdimatlar edir.

**2. Oxu**

**Şagird:**

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Öyrəndiyi söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir.

2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edir, qiymətləndirir.

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur.

2.2.2. Mətnin məzmununu saxlamaqla strukturunu dəyişir.

2.2.3. Mətni məzmunununa əlavələr etməklə  genişləndirir.

**3. Yazı**

**Şagird:**

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Üslubi xüsusiyyətləri gözləməklə müxtəlif mətnlər yazır.

3.1.2. Müxtəlif yanaşmalara və şəxsi düşüncələrə istinadən əsaslandırılmış mətnlər qurur.

3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.

3.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.

**4. Dil qaydaları**

**Şagird:**

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

4.1.1. Müxtəlif cümlə konstruksiyalarından məqsədyönlü istifadə edir.

4.1.2. Qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə edir.

4.1.3. Nitqin düzgünlüyü və ifadəliliyini təmin edən durğu işarələrindən məqsədyönlü istifadə edir.

4.1.4. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır.

## 1.6 Fəndaxili və fənlərarası inteqrasiya

Məlumdur ki, insan sosial bir varlıq kimi onu əhatə edən cəmiyyət və təbiətin mühüm tərkib hissəsidir. Onun bir şəxsiyyət kimi formalaşması cəmiyyətdə və təbiətdə baş verən dəyişiklik fonunda özünü dərindən dərk etməsi ilə bağlıdır. Odur ki, təhsilin yetişməkdə olan gənc nəsli şüurlu surətdə müstəqil və yaradıcı həyata hazırlamaq funksiyası həmişə aktual olmuş və bu əlaqənin hansı prinsiplər əsasında qurulmasından asılı olaraq, onun (təhsilin) məqsədi, məzmunu və təşkili formaları müəyyənləşdirilmişdir. Bu baxımdan «Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)» sənədində istinad edilən tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük və s. prinsipləri ilə yanaşı, inteqrativlik prinsipi xüsusi qeyd olunmalıdır. Geniş mənada təhsilin müxtəlif: ibtidai, əsas və orta pillələrində tədris edilən fənlərin müəyyənləşdirilməsində başlıca prinsip kimi götürülən inteqrativlik, eyni zamanda, konkret fənlərin, o cümlədən Azərbaycan dili fənninin də məzmununun və təşkili formalarının müəyyənləşdirilməsində mühüm rol oynayır. Fəndaxili (şaquli) və fənlərarası (üfüqi) əlaqə şəklində təsnif edilən inteqrasiya Azərbaycan dili ilə bağlı bilik və bacarıqları özündə ehtiva edən məzmun standartlarının hazırlanmasında aşağıdakı variantlarda ifadəsini tapmışdır:

1) Təhsilin hər üç pilləsi üzrə ümumi nəticələrin inteqrasiyası.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun təsdiq olunması bütün normativlər sənədlər kimi Milli Kurikulumun da yeniləşməsini tələb edirdi. Bu baxımdan Milli Kurikulum sənədində Azərbaycan dili fənninin təhsil səviyyələri üzrə ümumi nəticələri yenidən işlənərək təkmilləşmə işləri aparılmış və “Ümumi təhsilin dövlət standartı və proqramları” sənədində aşağıdakı kimi müəyyənləşdirilmişdir.

**“Azərbaycan dili” fənni üzrə:**
**İbtidai təhsil səviyyəsində:**

*Şagird:*

- danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;
- düzgün, sürətli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;
- kiçikhəcmli rabitəli mətnlər qurur;
- lüğətlərdən, məlumat kitablarından istifadə edir;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir;
- ilkin yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir.

**Ümumi orta təhsil səviyyəsində:**

*Şagird:*

- dinlədiyi mətnlərə münasibət bildirməklə mövqeyini əsaslandırır;
- mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir;
- dil vahidlərindən istifadə etməklə müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur, onları təkmilləşdirir;
- müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir;
- şifahi və yazılı nitqində zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

**Tam orta təhsil səviyyəsində:**

*Şagird:*

- müxtəlif mənbələrdən aldığı məlumatları təhlil edir və münasibət bildirir;
- mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir və qiymətləndirir;
- mənbələrdən istifadə etməklə müxtəlif üslublu mətnlər qurur;
- müzakirə, görüş, diskussiya və s. tədbirlər üçün məruzə, təqdimat və ssenarilər hazırlayır;
- nitqin dəqiqliyi, düzgünlüyü və ifadəliliyi üçün zəruri olan normaları şifahi və yazılı nitqində tətbiq edir.

Təhlil göstərir ki, bacarıqlar şəklində verilmiş bu nəticələr 5 bloka ayrılır və hər təhsil pilləsinin sonunda gözlənilməsi nəzərdə tutulan bu nəticələr bir-birini məntiqi və məzmun baxımından tamamlayır, aşağı səviyyədə sonrakı səviyyə üçün zəmin yaradılır.

Odur ki, təhsil səviyyələri üzrə ümumi nəticələrin inteqrasiya modelini aşağıdakı kimi çəkmək olar.




İbtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə ümumi nəticələrin inteqrasiyanı əks etdirən bu sxem standartlar şəklində verilmiş bacarıqların daxili mahiyyətindən irəli gəlir və təlim prosesində biri digərinə əsaslanmaqla onu məntiqi baxımından tamamlayır.

Müəyyən olunmuş məzmun xətləri: dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları  bir biri ilə əlaqəli olduğundan onlara aid olan məzmun standartlarının verilməsində də inteqrativlik nəzərə alınmışdır. Ümumi şəkildə onların arasındakı əlaqəni aşağıdakı kimi ifadə etmək mümkündür.




Sxemdən göründüyü kimi, dil qaydaları şagirdlərin oxu, yazı, dinləyib-anlama və danışma məzmun xətlərində nəzərdə tutulmuş bacarıqların linqvistik əsasini təşkil edir. Şagird məhz lazımi dil qaydalarına yiyələnməklə düzgün oxu, normaya uyğun yazı və danışma qaydalarına yiyələnir. Xüsusən mətn üzərində iş prosesində dil qaydalarını müşahidə edir, onları səciyyəvi xüsusiyyətlərinə görə fərqləndirir, dərk edir və bundan sonra praktik şəkildə tətbiq edir. Eləcə də dinlyəib-anlama və danışma məzmun xəttində əks olunmuş bacarıqlar rabitəli yazı qabiliyyətinin formalaşması baxımından əhəmiyyət daşıyır. Bu xüsusiyyət oxu və yazı məzmun xətlərində də nəzərə alınmışdır.

Şaquli inteqrasiya hər bir sinfin sonundakı nəticələrin məzmununda da gözlənilmişdir.

*I-IV siniflər üzrə*

| I | II | III | IV |
|---|---|---|---|
| *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* |
| 1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh edir. İnf.1.1.1. | 1.1.1. Sual verməklə dinlədiyi fikrin mahiyyətini aydınlaşdırır. | 1.1.1. Dinlədiyi fikirləri müqayisəli təhlil edir. Riy.1.1.3. İnf. 4.1.1. | 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. İnf.4.1.1. |
| 1.1.2. Dinlədiyi fikrə münasibətini bildirir. H-b. 3.2.2. | 1.1.2. Dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır. H-b. 3.2.2. | 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. H-b. 3.2.2. | 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə genişləndirir inkişaf etdirir. H-b.3.2.2. |
| *1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.* |
| 1.2.1. Müşahidə etdiyi əşya və hadisələr haqqında və şəkillər üzrə danışır. H-b.1.1.1. İnf.1.1.1. , 3.3.2. , 2.1.1., T.i. 3.1.1. | 1.2.1. Müşahidə etdikləri eşitdikləri və oxuduqları haqqında danışır. H-b.1.2.1 İnf. 2.1.2., 1.3.1., 2.1.3. | 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. H-b.1.2.1., İnf. 1.2.1. | 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. H-b.1.2.1. |
| 1.2.2. Dialoqlarda sadə nitq etiketlərindən istifadə edir. H-b.3.1.1., Tex. 3.1.3. | 1.2.2. Dialoqlarda vəziyyətə uyğun nitq etiketlərindən istifadə edir. T-İ.2.1.2. , H-b..3.1.1. , 3.1.2. | 1.2.2. Eşitdiyi,oxuduğu bədii nümunələri dialoq şəklində təqdim edir. T-İ.2.1.2., H-b.3.1.1 | 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. T-i.2.1.2., H-b.2.1.3. |
| 1.2.3. Nitqini müvafiq mimika və jestlərlə müşayiət edir. | 1.2.3. Nitq situasiyalarından asılı olaraq müvafiq jest və mimikalardan istifadə edir. | 1.2.3. Ədəbi - bədii nümunələri ifa edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. Mus. 2.1.2. | 1.2.3.Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir.Mus. 2.1.2. |
| *2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.* | *2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.* | *2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.* | *2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.* |
| 2.1.1.Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır. | 2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin adlarını müvafiq məna qrupuna aid edir. H- | 2.1.1.Mətndə rast gəldiyi yeni əşya və hadisələrin xarakterik əlamətlərini adlandırır. İnf. 1.2.2. 1.2.3. H-b.1.1.1. | 2.1.1. Mətndəki hadisələri həyat hadisələri ilə müqayisə edir. H-b.1.1.1. |

| | | | |
|---|---|---|---|
| | b..1.1.1 2.1.1. | | |
| 2.1.2. Mətndəki müəyyən olunmuş sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir. | 2.1.2. Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir. İnf. 1.2.2. 1.2.3. | 2.1.2. Mətndəki çoxmənalı sözləri fərqləndirir. | 2.1.2. Mətndəki terminləri fərqləndirir. |
| 2.1.3. Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir. | 2.1.3. Mətndə frazeoloji ifadələrin mənasını izah edir. T-i.2.1.2. | 2.1.3. . Sözlərin həqiqi və məcazi mənasını fərqləndirir T-i.2.1.2. | 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. |
| 2.1.4. Mətndən sadə bədii ifadələr seçir. H-b.3.2.1. | | | |
| 2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir. | 2. 2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir. | 2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir. | 2.2. Oxu vərdişlərinə yiyələndiyini nümayiş etdirir. |
| 2.2.1. Kiçik həcmli mətnləri düzgün tələffüz etməklə oxuyur. | 2.2.1. Müvafiq mətnləri tələffüz normalarına uyğun düzgün və sürətli oxuyur. Mus. 2.1.2. | 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (cümlə növlərinə görə) oxuyur. Mus. 2.1.2. | 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. Mus. 2.1.2. |
| 2.2.2.Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir. İnf. 1.1.2. 1.2.2.Riy. 2.3.1. | 2.2.2. Kiçik həcmli bədii mətnləri janrlara görə fərqləndirir. İnf. 3.4.1. | 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir. İnf.3.4.1. | 2.2.2. Bədii və elmi - kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. . İnf. 3.4.1. |
| 2.2.3. Mətnn şəkilli planını tutur. İnf. 2.1.1 | 2.2.3. Mətnin hissələrinə başlıqlar verməklə məzmununa aid sadə plan tutur. | 2.2.3. Mətnin geniş planını tutur. | 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. . İnf. 3.4.1. , 3.4.4. |
| 2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir. | 2.2.4. Mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir. | 2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir. | 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. |
| 2.2.5. Mətnin məzmununu nəql edir. | 2.2.5. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. |
| *3.1. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.* | *3.1. Şagird yazı bacarıqlarına yiyələndiyini* | *3.1. Şagird yazı bacarıq və vərdişlərinə yiyələndiyini* | *3.1. Yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* |

| | | | |
|---|---|---|---|
| | *nümayiş etdirir.* | *nümayiş etdirir.* | |
| 3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir. İnf. 3.3.2., 3.3.3. ,T-i. 2.1.2. | 3.1.1. Yazısında sadə hüsnxət və orfoqrafiya normalarına riayət edir. | 3.1.1. Hüsnxət və orfoqrafiya normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | 3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir. |
| 3.1.2. Əl yazısı şəklində olan sözləri və kiçik həcmli mətnləri üzündən köçürür. İnf. 3.4.3. | 3.1.2. Çap hərfləri ilə yazılmış mətni üzündən köçürür. İnf. 3.4.1. , 3.4.3. | 3.1.2. Sadə redaktə işləri aparmaqla mətni köçürür. İnf. 3.4.1. , 3.4.3. | 3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. İnf. 3.4.1. , 3.4.3. |
| 3.1.3. Şəklə uyğun cümlələr qurub yazır. İnf. 3.4.2 | 3.1.3. Marağına uyğun seçdiyi nəzm nümunəsini əzbərdən yazır. | 3.1.3. Verilmiş mətnin planını tutur və məzmununu yazır. | 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır |
| 3.1.4. Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır. H-b.1.2.1., 1.3.1. , İnf.2.2.2., Riy.5.1.2. | 3.14. Müşahidə və təəssüratlar əsasında kiçik həcmli esse yazır.İnf. 3.4.1. | 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. İnf. 3.4.1., H-b.1.2.2. | 3.1.4. Mühakimə xarakterli kiçik həcmli rəy, esse, inşa yazır. İnf. 3.4.1. |
| 3.1.5.Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (açıqca) yazır. T-i. 2.1.1. | 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (məktub, açıqca, elan) yazır. İnf.3. 3.4. | 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, anket, dəvətnamə) yazır. . İnf.3. 3.4., T-i.2.1.4. | 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. T-i 2.1.4. |
| *4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.* | *4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.* | *4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.* | *4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.* |
| 4.1.1.Səs və hərfi fərqləndirir. | 4.1.1. Sait və samit səsləri fərqləndirir. | 4.1.1. Sait və samit səsləri xüsusiyyətlərinə görə fərqləndirir. | 4.1.1.Sadə fonetik təhlil aparır. |
| 4.1.2.Sözləri hecalara ayırır | 4.1.2. Sözlərin sətrdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir. | 4.1.2.Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bayramlar və tarixi günlər) məqamına uyğun tətbiq edir. | 4.1.2.Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir. |
| 4.1.3. Böyük və kiçik hərfləri fərqləndirir İnf. 3.4.1. | 4.1.3. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (şəxs və coğrafi adlar) | 4.1.3.Rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü | 4.1.3.Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyalardan |

| | | | |
|---|---|---|---|
| | məqamına uyğun tətbiq edir. H-b.. 1.2.1. | müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. H-b.1.2.1. | istifadə edir H-b.1.2.1.İnf.3.4.3. |
| 4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır Riy. 1.1.9. | 4.1.4. Mətndə rast gəldiyi yeni sözlərin yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğətdən istifadə edir. | 4.1.4. Qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözləri qruplaşdırır. | 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. Tex.2.1.1. 2.1.2. |
| 4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir İnf. 1.2.3., 1.2.2. Riy.3.2.2. , 3.1.1. | 4.1.5. Ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdırır.İnf.1.2.1. , 2.1.1. Riy.3.1.2. | 4.1.5. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.İnf. 1.2.2. | 4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. İnf 3.4.3. |
| 4.1.6. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır. Riy. 3.2.2. | 4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir.İnf. 2.1.2. | 4.1.6. Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir.İnf. 2.1.1. | 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.T-i. 1.1.2., Tex.1.1.1. |
| 4.1.7. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir. | 4.1.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq durğu işarələri ilə tamamlayır. H-b.4.2.3. | 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | 4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir H-b. 4.2.2. |

*V-XI siniflər üzrə*

| **V sinif** | **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
|---|---|---|---|---|---|---|
| Dinləyib-anlama və danışma | | | | | | |
| *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.* | *1.1. Dinlədiyi fikri dəyərləndirir.* | *1.1. Dinlədiyi fikri də yərləndirir.* |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.1.1. Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır.<br>Ə. 1.1.1. | 1.1.1. Danışanın məlumatlarına əsasən onun məqsədini (məqsəd-lərini) şərh edir.<br>Ə. 2.1.2. | 1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyən edir.<br>Ə. 1.1.5. | 1.1.1. Suallar verməklə dinlədiyi fakt və hadisələr barədə özünün fi-kir və mülahizələ-rini dəqiqləşdirir.<br>Ə. 1.1.1. | 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. | 1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatlarda yol verilmiş məntiqi nöqsanları müəyyən edir.<br>Ə. 1.1.5. | 1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatları təhlil edir.<br>Ə. 1.2.1. |
| 1.1.2. Dinlədiyi məlumatlardakı əsas faktları seçir.<br>X-d.1.1.2. | 1.1.2. Dinlədiyi məlumatı yığcam şəkildə ümumiləşdirir.<br>Az-t. 3.1.3. | 1.1.2. Dinlədiyi fikrin inandırıcı olub-olmamasını əsaslandırır.<br>Ə. 1.2.4. | 1.1.2. Dinlədiyi fikrin məntiqiliyini əsaslandırır.<br>Ə. 1.2.4. | 1.1.2. Dinlədiyi fikirlərə münasibət bildirir.<br>Ə. 1.1.1. | 1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatları təqdim edilmə formalarına görə fərqləndirir.<br>X-d. 3.1.3. | 1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatlara münasibət bildirir.<br>Ə. 1.2.3. |
| *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | *1.2. Şifahi nitq baca-rıqları nümayiş etdirir.* |
| 1.2.1. Deyəcəyi fikrə müvafiq ifadə forması seçir.<br>X-d.2.1.1. | 1.2.1. Şifahi məlumat üçün əsas fikrin təqdimetmə formasını müəy-yənləşdirir.<br>Ə. 2.1.1. | 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir.<br>X-d. 2.1.3. | 1.2.1. Auditoriyanın səviyyəsinə uyğun ifadə forması seçir.<br>X-d. 2.1.2. | 1.2.1. Dil vahidlə-rindən məq-sədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur.<br>X-d.2.1.1. | 1.2.1. İfadə edəcəyi fikrə uyğun üslub seçir.<br>T. 1.2.4. | 1.2.1. Fikrini müxtəlif üslublarda ifadə edir.<br>T. 1.2.4. |
| 1.2.2. Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.<br>Ə.1.2.2.<br>Az-t. 3.1.2. | 1.2.2. Dinləyən şəxsin əsas fikri və anlayışları başa düşməsinə kömək etmək üçün mühüm məqamları vurğulayır.<br>Ə.1.2.2., Az-t. 3.1.2. | 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir.<br>Ə.1.2.2. | 1.2.2. Əlavə materiallardan istifadə etməklə nitqini zənginləş-dirir.<br>Ə.1.2.2 | 1.2.2. Müxtəlif tipli rabitəli nitq nümunələri qurur.<br>Ə.1.2.2 | 1.2.2. Müfəssəl faktlardan, əyani vəsaitlərdən, müvafiq KİV-dən istifadə etməklə fikrini əsaslandırır.<br>Ə.1.2.2 | 1.2.2. Əsaslandırılmış fikir və mülahizələr söyləyir.<br>Ə.1.2.2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.2.3. Danışarkən mimika və jestlərdən yerli-yerində istifadə edir.<br>Ə. 2.1.2 | 1.2.3. Nitqində intonasiya və ritmdən düzgün istifadə edir.<br>Ə. 2.1.2 | 1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir.<br>Ə. 2.1.2 | 1.2.3. Nitq etiketlə-rindən məqamında istifadə edir.<br>Ə. 2.1.2 | 1.2.3.Nitq prose-sində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır.<br>Ə. 2.1.2 | 1.2.3. Fakt və sitatlardan istifadə etməklə nitqini zənginləşdirir.<br>Ə. 2.1.2 | 1.2.3. Yardımçı vasitə-lərdən istifadə etməklə müxtəlif nitq nümunələri qurur.<br>X-d. 2.1.3. |
| 1.2.4. Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir.<br>Ə. 1.2.4. | 1.2.4. Problemlə bağlı mülahizələrini söyləyir.<br>X-d. 2.1.3. | 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir.<br>Ə. 1.2.4. | 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif mövqeli fikirləri ümumiləşdirir.<br>X-d. 3.1.4. | 1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir.<br>X-d. 1.1.2. | 1.2.4. Müzakirələrdə söylənilmiş müla-hizələri dəyərlən-dirməklə təqdi-matlar hazırlayır.<br>AZ-t. 1.1.1. | 1.2.4. Problemlə bağlı fakt və dəlillərlə əsaslan-dırılmış təqdimatlar edir.<br>Ə. 2.1.1. |
| Oxu | | | | | | |
| *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* | *2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nü-mayiş etdirir.* |
| 2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir.<br>Ə.1.1.1., 2.1.1 | 2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını şərh edir.<br>Ə.1.1.1., 2.1.1 | 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdi-rir.<br>Ə.1.1.1, 2.1.1 | 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.<br>Ə.1.1.1., 2.1.1 | 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.<br>Ə.1.1.1. | 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.<br>Ə.1.1.1. | 2.1.1. Öyrəndiyi söz və ifadələrin üslubi xüsusiy-yətlərini izah edir.<br>Ə.1.1.1. |
| 2.1.2. Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir.<br>Ə. 1.1.5, 2.1.2 | 2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir.<br>Ə. 1.1.5., 2.1.2 | 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir.<br>Ə. 1.1.5., 2.1.2 | 2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını nümunə-lərlə şərh edir.<br>Ə. 1.1.5., 2.1.2 | 2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin məna-sını kontekstə uyğun dəqiqləşdir-məklə şərh edir.<br>Ə. 1.1.5., 2.1.2 | 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir.<br>Ə. 2.1.2. | 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyət-lərinə görə müqayisə edir, qiymətləndirir. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | Ə. 2.1.2. |
| *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* | *2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.* |
| 2.2.1. Tələffüz qaydalarını gözləməklə mətni düzgün oxuyur.<br>Ə. 1.1.2., 1.2.4.<br>X-d., 3.1.2 | 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.<br>Ə. 1.1.2, 1.2.4.<br>X-d. 3.1.2 | 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.<br>Ə. 1.1.2, 1.2.4.<br>X-d.. 3.1.2 | 2.2.1. Söz sırasını, cümlələr və abzaslar arasında əlaqəni gözləməklə mətni oxuyur.<br>Ə. 1.1.2, 1.2.4.<br>X-d., 3.1.2 | 2.2.1. Mətni düzgün intonasiya ilə oxuyur.<br>Əd. 1.1.2, 1.2.4.<br>X-d. 3.1.2 | 2.2.1. Mətni ədəbi dilin normalarına uyğun oxuyur.<br>Əd. 1.1.2, 2.1.2.<br>X-d., 3.1.2 | 2.2.1. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur.<br>Ə. 1.1.2., 1.2.4.<br>X-d., 3.1.2 |
| 2.2.2. Mətnin tərkib hissələrini fərqləndirir.<br>Ə. 1.1.3.<br>X-d. 3.1.3 | 2.2.2. Mətni tərkib hissələrinə ayırır.<br>Ə. 1.1.3.<br>X-d. 3.1.3 | 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.<br>Ə. 1.1.3.<br>X-d.. 3.1.3 | 2.2.2. Mətnin hissələri arasında əlaqəni şərh edir.<br>Ə. 1.1.3.<br>X-d. 3.1.3 | 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.<br>Ə. 1.1.3. | 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.<br>Ə. 1.1.3. | 2.2.2. Mətnin məzmununu saxlamaqla strukturunu dəyişir.<br>Ə. 1.1.3. |
| 2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir.<br>Az-t. 2.1.2. | 2.2.3. Mətndəki fikir və mülahizələrə münasibət bildirir.<br>X-d. 2.1.3. | 2.2.3. Mətndəki fikrə münasibətini əlavə faktlarla əsaslandırır. | 2.2.3. Mətndəki fakt və hadisələri real həyatla müqayisə edir və əlaqələndirir.<br>Ə. 1.2.4. | 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.<br>Ə. 1.2.4. | 2.2.3. Mətnin məzmununu xülasə şəklində ifadə edir.<br>Ə. 1.1.3.<br>X-d. 1.1.2. | 2.2.3. Mətni məzmununa əlavələr etməklə genişləndirir. |
| Yazı | | | | | | |
| *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* | *3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.* |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3.1.1. Müxtəlif yazı formalarını (ifadə. Inşa, hekayə) fərqləndirir.<br>Ə. 3.1.1 | 3.1.1. Müxtəlif yazı tiplərini fərqləndirir.<br>Ə. 3.1.1., 3.1.3. | 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (inşa, esse, hekayə) ifadə edir.<br>Ə. 2.2.3 | 3.1.1. Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.<br>Ə. 2.2.1. | 3.1.1. Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır.<br>Ə. 2.2.1 | 3.1.1. Mövzuya uyğun üslub seçir.<br>X-d. 3.1.3. | 3.1.1. Üslubi xüsusiyyətləri gözləməklə müxtəlif mətnlər yazır.<br>X-d. 4.1.2. |
| 3.1.2. Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır.<br>Ə. 3.1.3.<br>Az-t. 2.2.3. | 3.1.2. Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir.<br>Ə. 2.1.3., 3.1.2.<br>Az-t. 2.2.3. | 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir.<br>Az-t. 2.2.3. | 3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.<br>Az-t. 2.2.3. | 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.<br>Ə. 3.1.1.<br>Az-t. 1.1.1 | 3.1.2. Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır.<br>Ə. 3.1.4.<br>Az-t. 1.1.1. | 3.1.2. Müxtəlif yanaşmalara və şəxsi düşüncələrə istinadən əsaslandırılmış mətnlər qurur.<br>Ə. 3.1.4.<br>Az-t. 1.1.1. |
| 3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir.<br>Ə. 3.1.4., T. 3.1.4 | 3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir.<br>Ə. 3.1.4.<br>Az-t. 2.2.3. | 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir.<br>Ə. 3.1.4. | 3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir.<br>Ə. 3.1.4. | 3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.<br>Ə. 3.1.4.<br>Az-t. 1.2.4. | 3.1.3. Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir.<br>Ə. 3.1.4.<br>X-d. 4.1.1. | 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.<br>Ə. 3.1.4.<br>X-d. 4.1.1. |
| 3.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.<br>Ə. 3.1.3. | 3.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcüməyi-hal) yazır.<br>X-d. 4.1.4. | 3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.<br>X-d. 4.1.4. | 3.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.<br>X-d. 4.1.4. | 3.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.<br>X-d. 4.1.4. | 3.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır.<br>X-d. 4.1.4. | 3.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır.<br>X-d. 4.1.4. |
| Dil qaydaları | | | | | | |
| *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* | *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* | *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* | *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* | *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* | *4.1. Dil qaydalarını mənimsədiyini nümayiş* | *4.1. Dil qaydalarını mənimsədiyini nüma-* |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| *yiş etdirir.* | *yiş etdirir.* | *yiş etdirir.* | *yiş etdirir.* | *yiş etdirir.* | *etdirir.* | *yiş etdirir.* |
| 4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərinə ayırır. Az-t. 1.2.4. | 4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir. Az-t. 1.2.2. | 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. Az-t. 1.2.2. | 4.1.1. Sadə cümlənin növlərini fərqləndirir. Az-t. 1.2.4. | 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir. Az-t. 1.2.4. | 4.1.1. Ədəbi dilin normalarına uyğun müxtəlif cümlə konstruksiyaları qurur. Az-t. 1.2.2. | 4.1.1. Müxtəlif cümlə konstruksiyalarından məqsədyönlü istifadə edir. Az-t. 1.2.2. |
| 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir. Az-t. 1.2.4. | 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir. Az-t., 3.1.2. | 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. Ə. 1.2.1. | 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir. Az-t., 1.2.4. | 4.1.2. Sözlərin və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir. Az-t., 1.2.4. | 4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir. Az-t. 1.2.4. | 4.1.2. Qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə edir. Az-t. 1.2.4. |
| 4.1.3. Cümlənin sonunda və dialoqlarda durğu işarələrindən məqsədyönlü istifadə edir. | 4.1.3. O, bu əvəzliklərindən sonra vergüldən düzgün istifadə edir. X-d.4.1.3. | 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. X-d. 4.1.3. | 4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir. X-d. 4.1.3. | 4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir. X-d. 2.1.1. | 4.1.3. Müxtəlif cümlə konstruksiyalarında durğu işarələrindən istifadə edir. X-d. 4.1.3. | 4.1.3. Nitqin düzgünlüyü və ifadəliliyini təmin edən durğu işarələrindən məqsədyönlü istifadə edir. X-d. 4.1.3. |
| 4.1.4. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir. X-d. 4.1.3. | 4.1.4. Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. X-d. 4.1.2. | 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. X-d. 4.1.2. | 4.1.4. Həmcins üzvlərdə şəkilçilərin yazılış qaydalarına əməl edir. Riy. 3.2.3. | 4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. X-d. 4.1.3. | 4.1.4. Mətnin tərtibatı zamanı müxtəlif yazılış formalarından istifadə edir. Ə. 3.1.3. | 4.1.4. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır. X-d. 4.1.3. |

## İxtisarlar:

Ə. – Ədəbiyyat

X-d. – Xarici dil

Az-t. – Azərbaycan tarixi

Riy. – Riyaziyyat

İnf. – İnformatika

Tex. – Texnologiya

T-i. – Təsviri incəsənət

Şaquli inteqrasiya həm də məzmun xətlərinə aid əsas standartların və alt-standartların müəyyənləşdirilməsində gözlənilmişdir.

Məsələn, 5-ci siniflə bağlı standartlarda bu, öz əksini belə tapmışdır:

«Oxu» məzmun xətti ilə bağlı:

*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*

2.2.1. Söz sırasını, cümlələr və abzaslar arasında əlaqəni gözləməklə mətni oxuyur.

2.2.2. Mətnin hissələri arasında əlaqəni şərh edir.

2.2.3. Mətndəki fakt və hadisələri real həyatla müqayisə edir.

«Yazı» məzmun xətti ilə bağlı:

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.

3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.

3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir.

3.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

Diqqətlə nəzərdən keçirilsə, bu tipli inteqrativ əlaqəni əksər məzmun standartlarını açıqlayan alt-standartlar arasında bu və ya digər səviyyədə üzə çıxarmaq mümkündür. Bu ondan irəli gəlir ki, məzmun standartları müəyyənləşdirilərkən nəzərə alınan prinsiplərdən biri də məhz inteqrativlik olmuşdur. Sözsüz, bu yanaşma təlimin məzmununu əks etdirən dərsliklərdə, dərs vəsaitlərində, eləcə də təlim prosesinin özündə bu və digər variantlarda əhatə olunacaqdır.

## II. Təlim strategiyaları

Təlim strategiyaları - müəllimin təlim prosesində istifadə etdiyi forma, üsul və texnikaları əhatə edir. Bu vaxta qədər Azərbaycan pedaqoji ədəbiyyatında həmin anlayışdan istifadə edilmirdi. Lakin son vaxtlar təhsil islahatının həyata keçirildiyi bir dövrdə fənn kurikulumları hazırlanarkən təlim strategiyası anlayışına müraciət edilməyə başlanılmışdır.

Yeni kurikulumlarda təlim strategiyaları anlayışının işlənməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması, ilk növbədə, əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə nəticə, yaxud sadəcə proses kimi deyil, daha geniş məna çalarına malik ifadə tərzi kimi yanaşılması lazım gəlir. Xüsusən təhsilin şəxsiyyətyönümlü xarakteri ona bir neçə mövqedən yanaşmağı tələb edir: təhsil dəyərdir, təhsil sistemdir, təhsil prosesdir, təhsil nəticədir.

İlk növbədə, təhsilə özündə dili, mentaliteti, milli bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi, mədəniyyətlilik, kollektivcililik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

Özünəməxsus sistemə malik olan təhsil, pillələri ilə mövcuddur. Gözlənilən nəticələri ilə fərqlənən bu pillələr bir-birini tamamlayır və ardıcıl sıralanmaqla təhsilin ümumi sistemini təşkil edir. Ona görə də təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşdirmə, differensasiya, fərdiləşmə, sosiallaşdırma, variativlilik və inkluzivlik aparıcı prinsiplər kimi əsas rol oynayır.

Təhsil insanın sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnməsini davamlı bir fəaliyyət kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Onun didaktik əsasını isə təbiətə müvafiqlik, praktiklik, istiqamətlilik, variativlik, mərhələlilik, fərdi ehtiyacların nəzərə alınması və fasiləsizlik təşkil edir.

Təhsil həm də bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır. Bütöv bir mərhələli prosesin sonu kimi dəyərləndirilir.

Yeni fənn kurikulumlarında təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:

- pedoqoji prosesin təşkili prinsipləri
- fənn üzrə təlimin planlaşdırılması
- təlimin təşkilində istifadə olunan forma və üsullar

Təlim prosesi daima ardıcıl olaraq inkişaf edir. Müxtəlif zamanlarda özünəməxsus xarakter kəsb edir. Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan müəllim və şagirdlərin funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Müəllim kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla yanaşı, yeni texnologiyalar hazırlayır, yaxud mövcud olanların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında müəllim və şagird şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt+subyekt" formulasına uyğun üfüqi istiqamətdə qurulur. Bu zaman şagirdlər öz təfəkkürünün, düşüncəsinin, müəllimlər isə şagirdin inkişafı üçün şəraitin təşkilatçısı olur. Müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O, daha çox sinif şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətci kimi şagirdlərin müstəqil idraki fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir. Pedaqoji prosesin düzgün qurulmasında mühüm didaktik prinsiplərə istinad olunur. Azərbaycan dili fənnində yeni kurikulumlara uyğun pedoqoji prosesin təşkilində aşağıdakı ümumi prinsiplərin əsas götürülməsi zəruri hesab edilir:

- **pedaqoji prosesin tamlığı** - Azərbaycan dili fənninin təlimi zamanı pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;
- **təlimdə bərabər imkanların yaradılması** – Azərbaycan dilinin hamı tərəfindən yüksək səviyyədə mənimsədilməsi üçün bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

- **şagirdyönümlülük -** şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin ana dilinə olan maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- **inkişafyönümlülük -** şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, Azərbaycan dilində ədəbi dil normalarına əməl etməklə danışıq bacarığı və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- **fəaliyyətin stimullaşdırılması -** pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin ana dilini yüksək səviyyədə mənimsəməsi və təlimə marağın artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;
- **dəstəkləyici mühitin yaradılması** – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi Azərbaycan dilinin təlimində keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Ayrı-ayrı fənlərin təlimində bu prinsiplərlə yanaşı, xüsusi metodik prinsiplərin də müəyyən olunması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

## 2.1. Azərbaycan dili təliminin təşkilinə verilən əsas tələblər

Azərbaycan dili təlimini səmərəli qurmaq, ümumi məqsədə çatmaq üçün mühüm vəzifələrin həyata keçirilməsinə nail olmaq həm də aşağıdakı tələblərin nəzərə alınmasından asılıdır:

- Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasının dərk edilməsi;
- nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafının təmin olunması;
- davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqların mənimsənilməsi.

1. **Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olması onun təlimində mühüm tələblərdən biri hesab edilir.** Təlim prosesində müəllim və şagirdlərin fəaliyyəti ona istiqamətləndirilir.

«Müasir psixologiya dərsliklərində qavrayışın mənalılığı belə izah edilir: insanın qavrayışı təfəkkürlə, əşyanın mahiyyətini anlamaqla bağlıdır. Əşyanı şüurlu surətdə qavramaq, onu fikrən adlandırmaq, yəni qavranılan əşyanı müəyyən cisimlər qrupuna, siniflərə aid etmək, onu sözlə ümumiləşdirmək deməkdir» (Ə.Ə.Əlizadə. İdrak prosesləri və hislər. Psixopedaqoji məsələlər. Bakı, 2006, səh.27).

Söz dilin əsas vahidlərindən biridir. Nitq prosesi üçün zəruri hesab edilən söz birləşməsi, cümlə, mətn kimi nitq vahidlərinin mənimsənilməsində kifayət qədər söz bilmək, lüğət ehtiyatına malik olmaq vacib hesab edilir. Düşünmə prosesinin həyata keçirilməsində sözlərdən istifadə olunur.

Azərbaycan dilinin düşünmə vasitəsinə çevrilməsi prosesi nitq fəaliyyətinin əsasını təşkil edən sözlərin, eləcə də digər nitq vahidlərinin öyrənilməsindən başlayır. Danışıq səsləri, heca, söz, söz birləşməsi, cümlə, nəhayət, mətn üzrə bilik, bacarıq və vərdişlər mənimsənilir. Onlar qeyri-iradi keyfiyyətlər kimi təfəkkür tərzinə, düşüncə vahidlərinə çevrilir. İdraki fəaliyyətin bütün mərhələlərində fəaliyyətlər mənimsənilmiş dil vahidlərinə, nitq modellərinə əsasən qurulur.

Azərbaycan dilinin öyrənmə vasitəsi kimi dərk olunması onun ən mühüm ünsiyyət vasitəsi kimi zəruriliyini şərtləndirir, yazılı və şifahi dil formalarına yiyələnməyin vacibliyini meydana çıxarır. Şagirdlər öz fəaliyyətlərində Azərbaycan dilinə yeni bilik və bacarıqlara yiyələnmə vasitəsi kimi yanaşır, onun funksional imkanlarından istifadə edirlər.

Düşünmə və öyrənmə proseslərində əldə olunmuş biliklər danışma vasitəsilə reallaşdırılır. Beləliklə, ünsiyyət prosesi formalaşır. Bütün dillərdən, o cümlədən də ana dilindən ünsiyyət prosesində mühüm vasitə kimi istifadə olunur. Ona görə də ana dili təlimi prosesində, ilk növbədə, onun düşünmə, öyrənmə və danışma vasitəsi kimi dərk olunması tələb edilir.

**2. Nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafının təmin olunması.** Azərbaycan dili təlimində əsas məqsədə nail olmaq üçün şagirdlərin nitq inkişafının təmin olunması vacib hesab edilir. Ona görə də təlim prosesində şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, cümlə qurmaq vərdişlərinin formalaşdırılması, rabitəli nitq nümunələrinin hazırlanması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır.

Şagirdlərin nitq fəaliyyətinin növləri (dinləyib-anlama, danışma, oxu, yazı) üzrə müvafiq bacarıq və vərdişlərə yiyələnmələri zəruri hesab edilir. Eyni zamanda Azərbaycan dilinin şifahi və yazılı formalarına aid ən zəruri dil qaydalarının (zəruri dil materiallarının) öyrənilməsi nəzərdə tutulur.

İstər nitq fəaliyyətinin növləri, istərsə də dil qaydaları üzrə bacarıqların mənimsənilməsi ümumi nitq inkişafını təmin edir.

**3. Davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqların mənimsənilməsi.** Ədəbi dilin ən zəruri normaları ilkin olaraq ana dili fənni vasitəsilə öyrədilir. Bu proses ardıcıl olaraq digər fənlərin tədrisində də davam etdirilir. Tədris prosesinin hər bir anında **Azərbaycan** dilindən bir öyrənmə vasitəsi kimi istifadə olunur. Bu prosesdə şagirdin lüğət ehtiyatı zənginləşir, qrammatik-üslubi bacarıqları möhkəmlənir. Bütövlükdə şifahi və yazılı nitqlə bağlı imkanları genişlənir.

Bu bilik, bacarıq və vərdişlərin müəyyən edilməsi və reallaşdırılmasında başlıca olaraq iki istiqamət diqqət mərkəzində saxlanılır. Onlardan birincisi mənimsənilmiş bilik, bacarıq və vərdişlərdən davamlı təhsil prosesində istifadə olunmasıdır. İkincisi isə qazanılmış bilik və bacarıqlardan praktik fəaliyyətdə istifadə edilməsidir.

Ümumtəhsili başa vuran hər kəs təhsilini müxtəlif formalarda müstəqil davam etdirməli, həyatını, fəaliyyətini istədiyi kimi qurmalı olur. Bunun üçün özünün idraki, hissi və psixomotor imkanlarına əsaslanır, dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarından istifadə edir. Eyni zamanda cəmiyyətin bir üzvü kimi həyatda praktik fəaliyyət göstərir. Azərbaycan dili təliminin məzmununu, strateji imkanları müəyyənləşdirilərkən bunlar nəzərə alınır.

## 2.2. Azərbaycan dili təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

Azərbaycan təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası üçün bu sahədə köklü dəyişikliklər, islahatlar gedir. Bu islahatların məqsədi demokratik cəmiyyət üçün sağlam, düşüncəli, sərbəst fikir söyləmək qabiliyyətinə malik, ətrafda baş verən hadisələrə tənqidi yanaşmağı, münasibət bildirməyi bacaran gənclər yetişdirməkdir. Elm və texnikanın inkişafı, informasiya bolluğu böyüməkdə olan gənc nəslə imkan verir ki, hadisələrin məcrasında bilavasitə özləri iştirak etsin, baş verən hadisələrdən nəticə çıxarmağı bacarsınlar. Onları bu sahədə düzgün istiqamətləndirmək isə məktəbin, müəllimlərin öhdəsinə düşür.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalıdır. Müasir şəxsiyyəti hafizənin gücləndirilməsinə və yalnız informasiya toplanılmasına yönəlmiş, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyildir. Yəni ənənəvi dərsdə təlim yadda saxlama qabiliyyətinə əsaslanır, şagird materialın təhlilini, təsvirini, nəticələri və ümumiləşdirmləri hazır şəkildə alır. Həyatın belə bir dinamik inkişafında həmişə ənənəvi dərs metodlarından istifadə bugünkü məktəbliyə cansıxıcı, darıxdırıcı görünür, onların dərsə olan marağını azaldır. Bu gün məktəblidə təlimə marağı artırmaq, onlarda yaradıcı fəaliyyət bacarığı tərbiyə etmək, humanist dünyagörüşü, milli özünüdərk, vətəndaşlıq mövqeyi, milli dəyərlərə hörmət və məhəbbət hissi formalaşdırmaq günün ən aktual problemlərindəndir. Bu baxımdan əməkdaşlığa, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə əsaslanan yeni təlim metodları mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, biz bunu deməklə ənənəvi dərs metodlarını kölgədə qoymaq istəmirik. Böyük bir nəsil məhz bu metodlarla formalaşmış, cəmiyyətin inkişafında xüsusi rol oynamışdır. Sadəcə həyatın elə məqamları, elə dövrü var ki, hər bir cəmiyyət özünə lazım olan şəxsin formalaşmasını diktə edir. Bu gün bazar iqtisadiyyatına keçid, demokratik cəmiyyətin qurulması hadisələri

olduğu kimi qəbul etməyi deyil, ona tənqidi yanaşmağı, öz münasibətini bildirməyi bacaran sərbəst düşüncəli, azad- fikirli şəxsiyyətlərin yetişdirilməsini tələb edir.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil düşünməyi, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirilməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsun. Bu cəhətdən interaktiv təlim metodları çox səmərəlidir.

İnteraktiv (ingilis dilindən tərcümədə - qarşılıqli fəaliyyətə əsaslanan deməkdir) təlim metodları, adından göründüyü kimi, şagirdləri fəallaşdırır, ənənəvi metodda olduğu kimi, şagird biliyi hazır şəkildə deyil, bilavasitə öz subyektiv

mülahizələri əsasında mənimsəyir. Burada müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək, «öyrənməyi öyrətmək»dir.

İnteraktiv (fəal) təlimin ənənəvi təlimə bir sıra üstünlükləri vardır:

| Ənənəvi dərslərin xüsusiyyətləri | Müasir dərslərin xüsusiyyətləri |
|---|---|
| Diqqət bilik və bacarıqların mənim-sənilməsinə yönəlir, şagirdlərin tərbiyə və inkişafı çox vaxt müəllimin rəhbərliyindən kənar həyata keçirilir. | Diqqət ilk növbədə şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir. |
| Müəllimin əsas funksiyası şagirdlərə məlumatlar çatdırmaq və onun mənimsənilməsi üçün şərait yaratmaqdır. | Müəllim ilk növbədə təlim idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir. |
| Müəllim – şagird münasibətlərində avtoritavr üslubun üstünlüyü | Müəllim və şagird arasında əməkdaşlıq, məktəblilərin dəlillərinə və fəaliyyətinə böyük diqqət. |
| Yoxlama, yeni materialın öyrənilməsi və möhkəmləndirilməsi mərhələləri dürüst müəyyənləşir ki, nəticədə bilik və bacarıqların tətbiqi təlim prosesinin mərkəzində durmur. | Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, onun möhkəmləndirilməsi və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur. Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintezi baş verir. |
| Təlim prosesində şagirdlər arasında ünsiyyət olmur. Müəllim-sinif və ya müəllim-şagird ünsiyyəti üstünlük təşkil edir. | Təlim prosesində şagirdlər arasında ünsiyyət olur, cütlük, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir. |
| Dərs tədris fənni çərçivəsi ilə məhdudlanır. | Müasir nəzəriyyə müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən keçirilən fənlərarası dərsləri istisna etmir. |
| İnkişafetdirici və tərbiyəedici amil kimi, əsasən, təhsilin məzmunu götürülür. | Təhsilin məzmunu ilə yanaşı şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır. |
| Dərs, demək olar ki, həmişə adi qaydada keçir. | Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayılan və ona qarşı qoyulanbəzi elenmentləri (məsələn, seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.) assimilyasiya edir. |
| Müəllim bütün fuksiyalarını saxlayır. | Müəlimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi səciyyəvidir: bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırılması, tədqiqat və özünüqiymətləndirmə elementləri. |

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləmək lazımdır:

1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi.
2. Fəal dərsin mərhələlərinin konkretləşdirilməsi.

3. Fəal dərsin strukturunun müəyyənləşdirilməsi.

***Fəal təlim metodlarının xarakterik xüsusiyyətləri:***

1. Diqqət, ilk növbədə, şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olur.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim - şagird, şagird - şagird arasında əməkdaşlıq üçün şərait yaranır.

6 Dərslərin inteqrativ təşkilinə üstünlük verilir.

7 Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir.

***Fəal dərsin mərhələləri:***

**I mərhələ: motivasiya, problemin qoyulması**

Hər bir tədqiqat problemi müəyyənləşdirməklə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün, ilk növbədə, tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir.

Bu mərhələ şagirdləri düşünməyə, idraki fəallığa sövq etdiyindən həm də **motivasiya** adlandırılır. Bu prosesdə uşaq öz fikrini "Zənnimcə", "Mənə belə gəlir ki", "Mən belə hesab edirəm ki" sözlərindən istifadə etməklə ifadə edir.

Motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalıdır.
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməlidir.
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməlidir.

4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməlidir.

**II mərhələ: tədqiqatın aparılması**

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Toplanmış faktlar əsasında təqdimatlar hazırlanır

***Tədqiqatın nəticələri aşağıdakı təqdimat formalarında ümumiləşdirilir.***

- ifadə yazılar, təsvirlər, əsərlər, şeirlər, esseler;
- sxemlər, cədvəllər, qrafiklər;
- illustrasiyalar, məqalələr;
- nağıllar, tapmacalar, atalar sözləri, zərbi-məsələlər, uydurmalar, yanıltmaclar;
- təcrübələr, eksperimentlər;
- maketlər, modellər, rəmzlər;
- layihələr;
- qaydalar, qanunauyğunluqlar;
- səhnələşdirmələr;
- nəğmələr, musiqilər;
- referatlar;
- krossvordlar və s.

Tədqiqat müxtəlif formalarda: böyük qrupda, kiçik qruplarda, cütlük şəklində və fərdi qaydada aparıla bilər.

**III mərhələ: məlumatın mübadiləsi**

Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

**IV mərhələ: məlumatın müzakirəsi**

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır.

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

Müzakirə prosesində müəllim öz fikirlərini şagirdlərə zorla qəbul etdirməməlidir.

**V mərhələ: nəticə və ümumiləşdirmə**

Nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə əldə olunan bilgiləri ümumiləşdirir, əldə edilmiş ideyanı tədqiqat sualı ilə (o bu suala cavab verirmi?) və şagirdlərin ilkin fərziyyələri ilə (bunların arasında düzgün olanları varmı?) müqayisəsini təşkil edir.

**VI mərhələ: yaradıcı tətbiqetmə və ya ev tapşırıqları**

Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə praktik tapşırıqlar verilir. Əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün olmursa, o sonrakı dərslərdə həyata keçirilir. Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması **ev tapşırıqlarıdır.** Fəal təlim prosesində belə tapşırıqlardan istifadə olunur. Onların daha çox tədqiqat və yaradıcılıq elementləri (müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar və s.) ilə zəngin olmasına diqqət yetirilir.

**Refleksiya və qiymətləndirmə**

Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir.

Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir.

Şagirdlərə dərs zamanı təlim fəaliyyətini izləməyə kömək edə biləcək bir neçə sual verməklə (məsələn: biz nəticəyə necə gəlib çıxdıq? Biz nə etdik? Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi? və s.) onların fikirlərini sistemləşdirmək mümkün olur. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini bir daha nəzərdən keçirir.

Fəal dərsi səmərəli təşkil etmək üçün, ilk növbədə, müəllimin planlaşdırma bacarığı olmalıdır. O, dərs dediyi fənn üzrə bütün mərhələləri aydın təsəvvür edə bilməli, onlara aid perspektiv və cari planlar hazırlamağı bacarmalıdır. Bu zaman aşağıdakı sualların cavablarını özü üçün konkretləşdirməlidir.

- Nə öyrəniləcək?
- Necə öyrəniləcək?
- Hansı şəraitdə öyrəniləcək?
- Nəticələr necə qiymətləndiriləcək?

Dərs planlaşdırılarkən hansı təlim standartının (standartlarının) reallaşdırılması müəyyənləşdirməli, ona (onlara) uyğun təlim məqsədi (təlim məqsədləri), müvafiq metod və vasitələr seçilməlidir.

Fəal dərsin planında aşağıdakıların nəzərə alınması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

1. Mövzunu müəyyənləşdirmək.
2. Standartı konkretləşdirmək.
3. Dərsin məqsədini (məqsədlərini) müəyyən etmək.
4. Motivasiya üçün sistem işləyib hazırlamaq.
5. Tədqiqat sualını müəyyənləşdirmək.
6. Aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və bu zaman aşağıdakıları dəqiqləşdirmək:
   - tədqiqat üçün tapşırıqları;
   - iş üsulları və formalarını;
   - məlumat mənbələrini.
7. Müzakirə üçün suallar hazırlamaq.
8. İdeyaları və alınacaq nəticələri qısaca ifadə etmək.

9. Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirmək.
10. Qiymətləndirmə standartlarına əsasən vasitələr hazırlamaq.
11. Dərs üçün lazım olan resursları (təchizatı) müəyyən etmək.

**İş formaları**

İş formaları dedikdə fərdi, cütlərlə, kollektiv və qrup işi nəzərdə tutulur.

***Kollektiv iş***

Kollektiv iş təlim prosesində ən çox istifadə edilən iş formalarından biridir. Bu zaman şagirddə kollektivlə işləmək bacarıqları inkişaf etdirilir. Nəticədə şagirddə eqoizm və s. kimi mənfi hislərin yaranmasının qarşısı alınır, o, özünü cəmiyyətin üzvü hiss edir.

***Qruplarla iş***

Şagirdlər (3-6 nəfər) qrup halında birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunurlar. Qrup işi şagirdlərə öz fikirlərini söyləməyə və başqalarını dinləməyə, özünün və digərlərinin işini qiymətləndirilməyə imkan yaradır. Bundan əlavə, onlar eyni bir məsələ ilə bağlı müxtəlif baxış və yanaşmaların olması barədə təsəvvürə yiyələnirlər.

***Cütlərlə iş***

Dərs prosesində şagirdlər iki-iki işləyir, təlim tapşırıqlarının yerinə yetirilməsində birgə fəaliyyət göstərirlər. Bu, onlara bir-birini daha yaxşı başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.

***Fərdi iş***

Fərdi iş forması təlim zamanı şagirdin fəaliyyətini izləmək, sərbəst düşünməsini, maraq dairəsini, eyni zamanda, hər bir şagirdin mənimsəmə qabiliyyətinin digərinə nisbətən daha az və ya daha çox olduğunu müəyyən etməyə imkan yaradır.

**Fəal təlim üsulları**

Fəal təlim zamanı istifadə olunan üsullar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Pedaqoji ədəbiyyatlarda

onun müxtəlif növlərinin olduğu göstərilir. Məsələn, beyin həmləsi, BİBÖ, klaster(şaxələndirmə), anlayışın çıxarılması, söz assosasiyaları, müzakirə, akvarium, rollar üzrə oyun, Venn diaqramı, layihələrin hazırlanması və s.

***Beyin həmləsi***

Bu üsul əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirir.

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim




3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

***Auksion***

Müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır.

Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır: "bir, iki". Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir. Bu zaman başqa şagird tez yeni fikir söyləyə bilər. Oyunda axırıncı mümkün cavabı verən şagird "Auksion"u qazanır.

Məsələn:

M: Adlardan fel düzəldən şəkilçiləri deyin.

Ş:

- la$^2$

- laş$^2$

- lan$^2$

- ar$^2$

M: "-ar$^2$" bir..., "-ar$^2$" iki

Ş:

- al$^2$ (-l)

***Klaster (şaxələndirmə)***

Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur.Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.

***Suallar***

Suallar dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. Şagirdlərin idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4-5 arasında olması məqsədəuyğundur. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, məzmunlu və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

***Mühazirə***

Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə ilə bağlı aşağıdakı məsələlərə nəzər yetirmək məqsədəmüvafiqdir:

- mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

***Anlayışın müəyyən edilməsi***

Bu üsul oyun - tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə kart asır, onun arxasında şagirdlərin tapacağı anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartlarda yazılan sözləri açıqlayır.

***Söz assosiasiyaları***

Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhədə qeyd edilir. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

***Müzakirə***

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şıfahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı “Bəli” və ya “xeyr” olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid “Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?” kimi suallardan istifadə olunur.

***Rollar üzrə oyun***

Rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar

bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır.

Hazırlaşmaq üçün şagirdlərə vaxt verir.

Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

***Venn diaqramı***



Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.***

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir: fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur.
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

***Layihələrin hazırlanması***

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil

yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Bu üsul həmçinin şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem həmçinin sinif tərəfindən "əqli hücum" üsulu ilə seçilə bilər.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özü cavabdehdir.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər cədvəllər, qrafiklər, formasında ifadə oluna bilər.

***Sorğu vərəqləri və müsahibə***

Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır.

Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlərin gözlənilməsi məqsədəmüvafiq hesab edilir:

1. Problemi müəyyən etmək.
2. İşi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq).
3. Məlumatları toplamaq (sualların cavablarını toplamaq).
4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək.

***"Qərarlar ağacı"***

Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları "+", və ya "-" işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | Problemin həlli yolları | | |
| | 1-ci həll yolu | 2-ci həll yolu | 3-cü həll yolu |
| + | | | |
| - | | | |
| Qərar: | | | |

**Problemli vəziyyət**

Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. "Karusel" kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

## 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

İllik planlaşdırmanın yaradılması müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəslə ayrılacaq vaxt göstərilir. Fənnin planlaşdırılması ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək.

2. Tədris vahidlərinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. (Tədris vahidlərinin ardıcıllıqla müəyyənləşdirilməsi dedikdə, məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.

3. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq (Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.)

4. Hər bir halda şagird maraqlarını nəzərə almaq .

İllik planlaşdırma apararkən müəllim aşağıdakı sənədlərə istinad etməlidir:

- Məzmun standartları.
- Qiymətləndirmə standartları.
- Tədris planı.

• Dərslik  (İstifadə olunacaq mətnlər və digər materiallar).

• Müəllim üçün vəsait.

Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartları (alt-standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur.

Aşağıda beşinci sinif üçün illik təxmini planlaşmadan nümunəsi verilmişdir.

**Azərbaycan dili**[1]

| **Standart** | **Tədris vahidi** | **Mövzular** | **İnteqrasiya** | **Resuslar** | **Saat** |
|---|---|---|---|---|---|
| 2.1.1.<br>2.2.1.<br>2.2.2. | **Ailə və məktəb** | Mükafat. Mətn üzrə iş | **Ə.**1.2.2.,1.1.2, 1.2.4.,1.1.3. 1.1.1., 2.1.1.<br>**Az-t.** 3.1.2.<br>**X-d.** 3.1.2., 3.1.3. | Dərslik, paylayıcı materiallar, kompyuter, lüğətlər, proyektor və s. | 1 |
| | | | | | |
| 1.2.2.<br>4.1.2. | | Mükafat.<br>Saitlərin növləri | **Az-t.** 1.2.4. | Dərslik, slaydlar, paylayıcı material-lar, qiymətləndirmə vəsaiti və s. | 2 |
| 1.2.4.<br>2.1.2.<br>2.2.1.<br>2.2.2. | | Əsl dost .<br>Mətnlə iş. | **Ə.** 1.1.3., 1.2.2., 2.1.1.<br>**Az-t.** 3.1.2., 1.1.1.,1.1.5., 2.1.2.<br>**X-d.** 3.1.2., 3.1.3. | Dərslik, şəkillər, slaydlar, paylayıcı materiallar, lüğətlər və s. | 1 |
| 1.2.2.<br>4.1.2. | | Əsl dost. Samitlərin növləri | **Az-t.** 1.2.4. | Dərslik, qiymətlən-dirmə vəsaiti və s. | 1 |

## Dərs planı nümunələri

**I sinif**

**Standart:** 1.2.1., 3.1.5.

**Mövzu:** Novruz bayramı

**Məqsəd**:

1. Xalqımızın Novruz bayramına aid adət-ənənələri haqqında danışmaq
2. Novruz bayramına aid açıqca yazmaq

**İnteqrasiya:** Riy. 1.1.3.

**İş forması:** Kollektivlə iş, cütlərlə iş

**İş üsulu:** Söz assosiasiyası, beyin həmləsi

**Resurslar:** Novruz şənliyindən fraqment, səməni, iş vərəqləri, kostyumlar

**Motivasiya.**

Əlimdə səməni və xonça sinfə daxil oluram:

O hansı bayramdır ki,

Bəzəyirlər xonçalar.

Xonçalarda paxlava

Qoz, fındıq, noğul da var.

Uşaqlar Novruz bayramı cavabını verirlər.

**Tədqiqat sualı.**

Xalqımız yazı necə qarşılayır?

Novruz bayramı zamanı daha hansı adət-ənənələrə əməl edirik?

**Tədqiqatın aparılması:**

Mətn monitorda nümayiş olunur.

***I qrup:***

***Səməni***

1.Yazın gəlişi ilə təbiətdə baş verən  dəyişikliyi təsvir edin.

2. Novruz bayramına aid dostunuza açıqça yazın

***II qrup:***

***Xonça***

1.”Kosa-kosa”oyununu qısaca səhnələşdirin.

2. Novruz adətlərindən danışın.

***III qrup:***

***“Nərgiz”***

1. Bayrama hazırlığı ardıcıl nəql edin.

2. Nöqtələrin yerinə novruz ,bayram sözlərini işlədin.

Sabah... ad günüdür.

Birincilər... maraqlı keçirdilər.

Əmim... mənə ... hədiyyəsi aldı.

***IV qrup***

***Qaranquş***

1.  Bayram xonçasını şifahi təsvir edin.

2. Bayramın əsas qonaqlarını təsvir et, onlar nəyin rəmzləridir?

**Məlumatın mübadiləsi və müzakirəsi.**

İş vərəqləri  nümayiş etdirilərək tədqiqatlar dinlənilir.

-Yazın gəlişi ilə xalqımız hansı bayramı qarşılayır?

- Yazda insanların həyat tərzi necə dəyişir?

-Yazın müjdəçisi hansı quşdur?

- İlk çiçək açan gül hansıdır?

- Novruz bayramı nə zaman keçirilir?

- Novruzun əsas atributları hansılardır?

**Ümumiləşdirmə və nəticə:**

Novruz bayramında xalqımız yazın gəlişini qeyd edir. Bu bayramda qədim adət-ənənələrə əməl edilir. Müxtəlif oyunlar keçirilir, səməni cücərdilir, xonça tutulur. Bu bayramda küsülülər barışır, hamı bir-birinin bayramını təbrik edir.

**Yaradıcı tətbiqetmə:**

Ailə üzvlərinizə bayram açıqcası yazın.

**Qiymətləndirmə.**

Müəyyən olunmuş meyarlar əsasında qiymətləndirmə aparılır.

## II sinif

**Standart:** 4.1.3.

**Mövzu:** Ad bildirən sözlər

**Məqsəd:**

Yer bildirən sözlərin, insan adı və soyadlarının, heyvan adlarının böyük hərflə yazılmasına dair qaydalardan məqamına uyğun istifadə edir.

**İnteqrasiya:** riy. 3.1.2.

**İş forması:** kollektiv və cütlərlə iş.

**İş üsulu:** beyin həmləsi, müzakirə, söz assosiasiyası.

**Resurslar:** dərslik, iş vərəqləri, şəkillər.

### Dərsin gedişi:

**Motivasiya.**

Müəllim şagirdlərə bu suallarla müraciət edir:

Aydan *dərsdən* gəldi.

*Dərsdən* Aydan gəldi.

Monitorda nə görürsünüz?

Gördükləriniz bir – birindən nə ilə fərqlənir?

Şagirdlər müxtəlif cavablar söyləyir.

Tədqiqat sualı qoyulur:

**Tədqiqat sualı.**

Bəzi sözlərin böyük hərflə yazılmasının əsas xüsusiyyəti nədən ibarətdir?

**Müəllimin şərhi.**

**Qayda:** Elə sözlər var ki, canlı və ya cansız varlıqların adını bildirir. Məsələn, *dəftər* cansız, *şagird* isə canlı varığın adıdır. Belə sözlər kim? , nə? , hara? suallarına cavab verir.

Əlamət, say, hərəkət bildirən sözlər, adətən, ad bildirən sözlə bağlı olur, çünki onlar da həmin varlığın əlamətini, sayını və ya hərəkətini bildirir.

Dərslik üzərində iş aparılır. Qayda oxunur və izah edilir. 1 N-li tapşırıq şifahi yerinə yetirilir.

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri şəkillər vasitəsilə cütlərə ayırır və onlara iş vərəqi verir.

**I cüt**:

Verilmiş sözlərin içərisindən hansı sözlərin yerindən asılı olmayaraq həmişə böyük hərflə yazıldığını seçin və qaydaya əsasən izah edin.

Yasəmən, Könül, Şəki, Dəniz, Qızıl, Cavanşir, Mübariz, Aslan, Xəzər, Toplan

**II cüt**:

Şəkillərə uyğun ad seçin və həmin sözü cümlədə işlədin.




**III cüt:**

Verilmiş sözlərin içindən həm böyük, həm kiçik hərflə  yazılan sözləri seçin və izah edin.

Solmaz, Külək, Arzu, Gəncə, Lalə, Uğur, Azərbaycan, Prezident, Daşqın

**IV cüt:**

Sözlərin içindən şəhər adlarını seçib yazın. Birini cümlədə işlədin.

Siçan, at, kür çayı, lənkəran, kompüter, moskva , məktəb, türkiyə, istanbul, fransa

**V cüt:**

Şəkillərə baxın və onlara uyğun ad və soyad yazın. Həmin adları cümlədə işlədin.





**VI cüt:**

Mətndəki səhvləri düzəldib  yazın.

arzu müəllimə sinfə daxil oldu. o Uşaqlara dərsi izah etdi. elçin dərsə qulaq asmırdı. Bu müəllimin gözündən qaçmadı. arzu müəllimə elçinin fikrini cəmləşdirmək üçün yenidən sinfə müraciət etdi. bu dəfə suala lalə cavab verdi.

**VII cüt:**

Hansı şəkilə ad vermək olar ? Həmin sözdən cümlə qurun.













**VIII cüt:**

Nöqtələrin yerinə uyğun adları yazın:

1. Azərbaycan respublikasının prezidenti   ............................dir.
2. ......................... şəhəri gündən-günə gözəlləşir.
3. ............................ pişiklə ...................... it mehribancasına oynayırdılar.
4. ..................  dənizində  çoxlu balıq var.

**IX  cüt:**

**Cədvəlin xanalarına uyğun gələn sözlər yazın.**

| Ölkə adı | Kənd adı | Dağ adı |
|---|---|---|
| | | |
| | | |
| | | |

**X cüt:**

Qəhrəman sözünü iki mənada cümlədə işlət. Ad bildirən sözün altından xətt çək.

**Məlumatın mübadiləsi və müzakirəsi.**

Cütlər işin nəticələrini təqdim edir. İş vərəqləri lövhədən asılır. Şagirdlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirir, şagirdlərə suallar verilir.

- Hansı sözlər böyük hərflə yazılır ?
- Nə üçün ?
- Sözü böyük hərflə nə zaman yazırıq ?

**Nəticə və ümumiləşdirmə:** Müəllim şagirdlərin diqqətini tədqiqat sualına yönəldərək qeyd edir ki, ad bildirən sözlər yerindən asılı olmayaraq həmişə böyük hərflə yazılır. Belə sözlərin böyük hərflə yazılmasının əsas xüsusiyyəti onların xüsusi adlar olmasıdır. Bu cür sözlər onlara verilən xüsusi adlara görə fərqlənir.

Aşağıdakı sualların cavabı müəyyənləşdirilir.

1. Hansı söz həmişə böyük hərflə yazılmalıdır?

   a) Ağac b) Yasəmən c) İbrahim

2. Soyad bildirən söz hansıdır?

   a) Əlizadə b) Əli c) Əlibəy

3. Hansı cərgədə ad bildirən sözlər işlənmişdir?

a) Yarpaq, Alma, Dəftər

b) Nərgiz, Arzu, Stol

c) Məstan, Xallı, Toplan

**Yaradıcı tətbiqetmə:**

Bir neçə ad bildirən sözlər tapın və onları cümlədə işlədin.

**Qiymətləndirmə.** Müəyyən olunmuş meyarlar üzrə qiymətləndirmə aparılır.

## V sinif

**Standart: 2.1.1, 2.1.2, 4.1.2**

**Mövzu:** Omonimlər.

**Məqsəd:**

1) Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir.

2) Sözlərin semantik xüsusiyyətlərini izah edir.

**İnteqrasiya:** Ə. 1.1.1., 2.1.1.

**İş forması:** kollektiv və qrup işi

**İş üsulu:** beyin həmləsi, Venn diaqramı, müqayisə sxemi.

**Resurs:** iş vərəqləri, üzərində venn diaqramı və cədvəl çəkilmiş kağızlar.

**Dərsin gedişi**

**Motivasiya**

İlk olaraq müəllim lövhədə *çay, qurd, kök, şam* sözlərini yazır və şagirdlərə sözlərin ifadə etdiyi mənaya uyğun şəkillər çəkməyi tövsiyə edir. Bunun üçün şagirdlərə əvvəlcədən hazırlanmış və üzərində adları yazılmış kağızlar paylanır.

**Tədqiqat sualı:**

Omonim sözlərin semantik xüsusiyyətləri hansılardır?

**Tədqiqatın aparılması.**

Müəllim şagirdlərə təsvirlər çəkiımiş işçi vərəqləri paylayır və onlara qruplarda birləşdirərək verilmiş şəkil haqqında fikirlərini yazmağı tövsiyə edir. Müəllim istiqamət verir ki, şagirdlər fikirlərini bildirərkən digər elmi biliklərdən də istifadə etsinlər.

**İş vərəqi 1**

Çay mənbəyi və mənsəbi olan axar su kütləsidir. Dünyanın ən uzun çayı Nil, ən bol sulusu isə Amazondur.

Azərbaycanda Kür, Araz, Viləş və s. kimi bol sulu çaylar var. Bu çayların suyundan enerji mənbəyi və ya suvarma məqsədləri üçün istifadə olunur.

**İş vərəqi 2**

Çay çoxillik bitkidir. İlk vətəni Çin olub. Vətənimizdə daha çox Lənkəran çayı məşhurdur.

Toy mərasimi zamanı bəyin qabağına çay aparmaq elimizin adətidir.

Çay haqqında gözəl musiqilər bəstələnib.

**İş vərəqi 3**

Qurd yırtıcı heyvandır. O, təsərrüfatlara ziyan verir.

Bir çox nağıllarda və təmsillərdə canavar yırtıcı və acgöz insanların obrazı kimi yaradılmışdır.

**İş vərəqi 4**

Qurd həşəratlar sinfinə daxildir. O, bostan bitkilərinə ziyan vurur. Amma bununla yanaşı, qurdların da təbiətdə xeyirli cəhətləri var. Tanrı təbiətdə heç nəyi artıq yaratmayıb.

**İş vərəqi 5**

Şam yandırılan cisimdir. Onu neft məhsullarından əldə edirlər. Klassik bədii ədəbiyyatda şam və pərvanə obrazlarına tez-tez rast gəlinir. Burada şam eşqi yolunda cəfa çəkən aşiqə bənzədilir.

**İş vərəqi 6**

Şam ağacı dini ədəbiyyatda müqəddəs ağac kimi qeyd olunur. O, həmişə yaşıl olur. Şam ağacları bəzək kimi də istifadə olunur.

**Məlumatın mübadiləsi.**

Qrup üzvləri verilmiş təsvir haqqında fikirlərini qeyd edirlər. Sonra ümumiləşdirilmiş fikirlər lider tərəfindən təqdim olunur.

**Məlumatın müzakirəsi.**

Müəllim qrup üzvlərinin dediklərini ümumiləşdirib, lövhədəki diaqrama yazır. Təxminən belə bir forma alınır:

Omonimlər

1. Mənalar tamamilə fərqlidir.
2. Mənaların hamısı həqiqidir.
3. Mənalar həm eyni, həm də ayrı-ayrı nitq hissələrinə aid olur.
4. İlkin məna ilə heç bir bağlılıq yoxdur.
5. Hansı mənanın ilk yaranması məlum olmur.
6. Lüğətlərdə ayrı-ayrı sözlər kimi ifadə olunur.

**Nəticə və ümumiləşdirmə.**

Qrupların təqdimatı başa çatdıqdan sonra müəllim şagirdlərlə frontal sorğu aparır:

- Uşaqlar, çəkdiyiniz şəkillər haqqında fikirləri dinlədik. Buradan sizə nə aydın oldu?

- Başa düşdük ki, eyni söz müxtəlif mənalar ifadə edir.

- Bu mənalar bir-birindən tamamilə fərqlənirlər.

- Mənaların hamısı real həyatda var. Yəni onlar həqiqi mənalardır.

- Bəzən bir söz və 2 və daha artıq məna ifadə edə bilər. Məs: qaz.

- Mənalar həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilər və s.

Müəllim şagirdlərin fikirlərinin haqlı olduğunu qeyd edir və sonra şagirdlərdən bir neçəsi dərslikdəki elmi məlumatı oxuyur. Digər şagirdlər onları dinləyir.

**Yaradıcı tədbiqetmə**

1) Müəllim şagirdlərə dərslikdəki elmi məlumatı öyrənməyi və bədii mətnlərdən tərkibində omonim olan cümlələri seçərək onların bildirdiyi mənaları izah etməyi tapşırır.

2) Omonimlər lüğətindən 3 və daha çox məna ifadə edən sözlər seçərək onları hər bir mənada cümlədə işlətmək.

**Qiymətləndirmə.**

Qrupların fəaliyyəti müəyyənləşdirilmiş meyarlar üzrə qiymətləndirilir.

## VII sinif

**Standart: 2.1.1., 4.1.2., 4.1.4.**

**Mövzu:** ***Feli bağlama haqqında ümumi məlumat***

**Məqsəd:**

1. Feli bağlama şəkilçilərini tanıyır.
2. Cümlədə feli bağlamaları və feli bağlama tərkiblərini tapır.
3. Feli bağlamaların yazılışı ilə bağlı qaydalara əməl edir, durğu işarələrindən yerində istifadə edir.

**İnteqrasiya:** Ə. 1.1.1., 2.1.1.

**İş forması:** kollektiv və qrup işi.

**İş üsulu:** beyin həmləsi.

**Resurs:** İKT, dərslik, paylayıcı material.

**Dərsin gedişi**

***Motivasiya.***



Proyektor vasitəsilə hərəkətdə olan təsvir nümayiş etdirilir və şagirdlərə sualla müraciət olunur:

**M:** ***Hərəkət haqqında nə demək olar?***

Ş: necə?

Ş: hara?

Ş: nə vaxt?

Ş: nə qədər?

**M: Fel feli izah edə bilərmi?**

Şagirdlərin cavabı əsasında yeni dərsin mövzusu müəyyənləşdirilir.

***Tədqiqat sualı:***

1. *Feli bağlama düzəldən şəkilçilər hansılardır?*
2. *Feli bağlamanın felə və zərfə aid xüsusiyyətlərini müəyyənləşdirin.*

***Tədqiqatın aparılması.***

Tədqiqat sualına cavab tapmaq məqsədi ilə qruplara tapşırıqlar verilir:

*1.Verilmiş cümlədə əsas hərəkəti izah edən fel formalarını tapıb hansı şəkilçi vasitəsilə düzəldiyini müəyyənləşdirin.*

*2. Bu sözlərin felə və zərfə aid olan xüsusiyyətləri göstərin.*

**"SƏHƏR" qrupu**

H.Əliyevin əvəzsiz xidmətləri qiymətləndirilərək bu boru kəmərinə onun adı verildi.

Gülnaz da atasının razı olduğunu hiss edib gülümsündü.

**"ARZU" qrupu**

Çörəyini yemədən (yeməmiş) həyətə getmə.

Bilmədən dediyi bu söz böyük narahatlığa səbəb oldu.

**"GƏLƏCƏK" qrupu**

İnsan səhv edəndə bunu hamı görür, yalan danışanda isə çox az adam görə bilir.

Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

Rəvayətə görə, o, Çaldıran döyüşünə gedərkən rəssam Behzadı və usta Sultan Məhəmmədi mağarada gizlədir.

**"DOST" qrupu**

Şəhərdə axıdılan qanları gördükdə onun dili tutulur.

Məktubu yazdırınca mənə xəbər ver.

Əynini geyinər-geyinməz qapı döyüldü.

Qruplar işlərini təqdim edirlər.

**Məlumat mübadiləsi.**

Qruplar təyinatı üzrə işlərini təqdim edir.

**Məlumatların müzakirəsi:**

Şagirdlər suallar əsasında müzakirəyə başlayır.

**Nəticə və ümumiləşdirmə:** Qrup işlərinin yekunu və dərslikdəki məlumata əsasən belə nəticəyə gəlinir ki, feli bağlama şəkilçiləri aşağıdakılardır:

*-ıb*$^{4}$

*-araq*$^{2}$

*-madan*$^{2}$

*-a*$^{2}$ ... *-a*$^{2}$

*-anda*$^{2}$

*-dıqca*$^{4}$

*-arkən*$^{2}$

*-dıqda*$^{4}$

*-ınca*$^{4}$

*-ar*$^{2}$... *-maz*$^{2}$

Feli bağlamanın felə və zərfə aid olan xüsusiyyətləri:

| **Felə aid xüsusiyyətlər** | **Zərfə aid xüsusiyyətlər** |
|---|---|
| • Hərəkət bildirir.<br>• Təsirli və təsirsiz olur.<br>• Təsdiq və inkarda olur.<br>• Feli qrammatik məna növlərindən birində olur.<br>• Ətrafına söz toplayaraq tərkib əmələ gətirir. | • Hərəkətin tərzini,səbəbini zamanını bildirir.<br>• Zərfin suallarına cavab verir.<br>• Cümlədə zərflik olur. |

**Yaradıcı tədbiqetmə**

Şagirdlərə istənilən mətndə feli bağlamaları seçmək, onların mənasını izah etmək və şəkilçilərini göstərmək tapşırılır.

**Qiymətləndirmə.** Qrupların fəaliyyəti ulduz işarələri vasitəsilə meyarlar cədvəlinə əsasən qiymətləndirilir:

## VII sinif

**Standart: 2.1.1., 4.1.2., 4.1.4.**

**Mövzu:** ***Feli bağlamanın digər nitq hissələrindən fərqləndirilməsi.***

**Məqsəd:**

1. Feli bağlamanı digər nitq hissələrindən fərqləndirir.
2. Cümlədə omonim şəkilçili sözlərin oxşar və fərqli cəhətlərini göstərir.
2. Cümlədə feli bağlamaları və feli bağlama tərkiblərini tapır.
3. Feli bağlamaların yazılışı ilə bağlı qaydalara əməl edir, durğu işarələrindən yerində istifadə edir.

**İnteqrasiya:** Ə. 1.1.1., 2.1.1.

**İş forması:** kollektivlə iş və qrup işi.

**İş üsulu:** beyin həmləsi.

**Resurs:** iş vərəqləri, İKT.

### Dərsin gedişi

**Motivasiya**

Proyektorda göstərilmiş mətndə işarənlənmiş sözlərin struktur-semantik xüsusiyyətləri müəyyənləşdirilir.

**Tədqiqat sualı:**

Feli bağlamanın digər nitq hissələrindən fərqləndirən xüsusiyyətlər hansılardır?

**Tədqiqatın aparılması.**

Müəllim şagirdlərə verilmiş nümələrdə qara hərflərlə işarələnmiş sözlərin fərqini müəyyənləşdirmələrini tapşırır.

*Gülümsərov* ***oxumamış*** *alimdir.*
*Dərslərini* ***oxumamış*** *gəzməyə getmə.*
*Başını* ***üzməmiş*** *buradan get.*

*Allah* ***bilib,*** *dəvəyə qanad* ***verməyib.***
*Səhvini* ***başa düşüb*** *üzr istəmək istədi, amma artıq gec idi.*
*Ayılanda ətrafında heç kimi görmədi, hamı* ***çıxıb*** *getmişdi.*

*Uşaqda nə günah, günah belə şeyləri ona* ***deyəndədir.***

*Göyçayın gülöyşə narından çantam* **tutunca** *yığdım.*
*Yol* **boyunca** *ağaclar əkilmişdi.*

*Bu xəbəri* ***eşidər-eşitməz*** *sənin yanına gəldim.*
*Kor tutduğunu* ***buraxmaz.***

*Məktubu* ***dönə-dönə*** *oxudum.*

*Min Qazaxda köhlən ata,*
*Yalmanına* ***yata-yata,***
*At* ***qan - tərə bata-bata***
*Göy yaylaqlar belinə qalx,*
*Kəpəz dağdan Göy gölə bax. (S.Vurğun)*

Sonra şagirdlər müəllimin köməyi ilə feli bağlamaların hansı mənanı ifadə etdiyini göstərir.
*Onlar çörəyi tikə-tikə kəsib yeyirdilər.*

*Mən indi gələ bilmirəm, imtahanlarımı qurtarıb gələcəyəm.*
*Kəndlilər alovun çoxaldığını görüb yaman əl-ayağa düşmüşdülər.*
*Azadlıq hissi insanın qəlbində həvəs oyadaraq yaşayıb-yaratmağa ruhlandırır.*
*Şahid ifadələri ilə tanış olmamış (tanış olmadan) sizə heç nə deməyəcəyəm.*
*Rüstəm kişi onun nəzərə çarpan tutqunluğuna əhəmiyyət vermədən birbaşa mətləbə keçdi.*
*Ağsaqqal sözü dinləmədən heç nə əldə etmək olmaz.*
*Qaraca qız tökülmüş meyvələri yığarkən gözü qara pişiyə sataşdı.*
*Həyat səni güldürəndə gülmüsən,*
*Hünərin var, ağladanda gül görüm. (B.Vahabzadə)*
*Havanın qaraldığını görüncə ağlamağa başladı.*
*Özünə gələr-gəlməz başını qaldıraraq gözləri ilə dostunu axtardı.*

**Tədqiqatın davamı.**

Şagirdlərə qrup şəklində işləmək üçün aşağıdakı tapşırılaq əks olunmuş iş vərəqləri paylanılır və cümlələri sintaktik və morfoloji təhlil etməyi, feli bağlama və feli bağlama tərkiblərini tapmaq tapşırılır.

**“SƏHƏR” qrupu**

Cavan gələndə itlərə həmişə bir şaqqa ət gətirərdi.

**“ARZU” qrupu**

Çaparlar qayıdarkən qoca palıd onların sir-sifətindən başa düşdü ki, pis xəbərlə gəliblər.

**“GƏLƏCƏK” qrupu**

Uşağın ağladığını görüb çox qəzəbləndi.

**“DOST” qrupu**

Biz kənddən qayıdanda yağış yağırdı.

**Məlumatın mübadiləsi.**

Qruplar onlara verilmiş tapşığı verilmiş vaxtda yerinə yetirib təqdim edirlər.

**Məlumatın müzakirəsi.**

Təqdim olunmuş məlumatlar suallar əsasında müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.**

Şagirdlər feli bağlamanı digər nitq hissələrindən fərqləndirir. Cümlədə verilmiş omonim şəkilçili sözlərin oxşar və fərqli cəhətlərini göstərir, feli bağlamaları və feli bağlama tərkiblərini tapır, feli bağlamaların yazılışı ilə bağlı qaydalara əməl edir, durğu işarələrindən yerində istifadə edir.

**Yaradıcı tədbiqetmə.**

Şagirdlərə verilmiş mətndəki feli bağlama və feli bağlama tərkiblərini tapmaq və onların omonim olduqları şəkilçilərlə müqayisə edib yazmaq tapşırılır.

**Qiymətləndirmə.**

Qrupların fəaliyyəti ulduz işarələri vasitəsilə meyarlar cədvəlinə əsasən qiymətləndirilir:

## IX sinif

**Standart: 4.1.1, 4.1.3.**

**Mövzu: Qarşılaşdırma budaq cümləsi.**

**Məqsədlər:**

1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.
2. Qarşılaşdırma budaq cümləsinin quruluşu, onun məna və qrammatik xüsusiyyətlərini bilir.
3. Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.
4. Axtarış aparır, problemli vəziyyətdən çıxış yolu tapır, müstəqil fikir söyləyir.

**İnteqrasiya:**

**İş forması:** Kollektiv və qrup işi.

**İş üsulu:** Beyin həmləsi, Venn diaqramı.

**Resurs:** Test kitabçası, sxemlər, vatman kağızı, ağ vərəqlər, flomaster.

**Dərsin gedişi**

**1. Motivasiya.**

Tədqiqat işlərinə zəmin hazırlamaq üçün sıralar üzrə antonim sözlərə qarşılıq tapmaq yarışı keçirilir. Sözlər müəllim tərəfindən təklif olunur. Daha çox qarşılıq tapan sıra qalib hesab olunur. Müxtəlif fərziyyələrdən sonra şagirdlər araşdırılacaq problemi müəyyən edir:

Şagirdlərin diqqəti vatman kağızında yazılıb yazı taxtasında asılmış cümlələrə cəlb olunur (cümlələrin biri qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə, digəri isə qarşılaşdırma əlaqəli tapeli müərəkkəb cümlə olur):

1. Babamın yaşı altmışı ötmüşdü, lakin ona əllidən artıq yaş vermək olmazdı (İ.Əfəndiyev).

2. Babamın yaşı altmışı ötsə də, ona əllidən artıq yaş vermək olmazdı.

"Bu cümlələrin quruluşunda, mənasında və qrammatik xüsusiyyətlərində oxşar və fərqli cəhətlər varmı?"

**Tədqiqat sualı:**

Qarşılaşdırma əlaqəli tabeli mürəkkəb cümlənin əsas xüsusiyyətləri hansılardır?

**Tədqiqatın aparılması.**

Qrup iş formasından istifadə edilir. Qruplar cümlə üzvlərinin adlarına əsasən təşkil olunur (eyni cümlə üzvlərini seçmiş uşaqlar eyni qruplarda toplanır).

Qruplara üzərində Venn diaqramı çəkilmiş və "açar" rolu oynayacaq köməkçi, yönəldici suallar olan vərəqlər, həmçinin ağ vərəq və flomaster paylanır. Suallar təxminən aşağıdakı kimi olur:

*Cümlədə ifadə olunan fikirlər eyni, yoxsa müxtəlifdir?*

*Sinonimlik nədir?*

*Cümlənin quruluşca növləri hansılardır?*

*Hər iki cümləni təşkil edən sadə cümlələr arasında məna əlaqələri necədir?*

*Mürəkkəb cümlənin hansı növləri var? və s.*

Uşaqlar problemin həllinə çalışırlar. Müəllim isə imkandan istifadə edərək Venn diaqramını yazı taxtasına da çəkir.

**Məlumatın mübadiləsi**

Şagirdlər onlara təqdim olunmuş cümlələri və "açar" sualları birlikdə oxuyur, fikir mübadiləsi edir, bir-birinin dəlil və sübutlarını dinləyirlər. Ümumi rəyə gələrək Venn diaqramını işləyirlər. Sinfə veriləcək informasiyanı dəqiqləşdirirlər. İnformasiyanı təqdim edəcək şəxsi seçirlər. Tədqiqat işi başa çatandan sonra qruplar öz liderləri vasitəsi ilə məlumatı təşkil edib müəllimə və bütün sinfə təqdim edirlər. Onlar öz fikirlərini yazı taxtasında çəkilmiş Venn diaqramına yazırlar.

**Məlumatın müzakirəsi**

Bütün qrupların rəy və fikirləri dinlənilir. Müzakirələr aparılır. Bu işdə bütün sinif iştirak edir. Qarşılıqlı dialoqla yanlış cavablar sıradan çıxarılır. Düzgün cavablar əsaslandırılır.

**Ümumiləşdirmə və nəticəçıxarma**

Müəllimin köməyi ilə düzgün cavablar ümumiləşdirilir. Nəticə kimi Venn diaqramının son variantı meydana çıxır:




Müəllim 2-ci cümlənin qarşılaşdırma budaq cümləsi olduğunu söyləyir və onun mahiyyəti barədə məlumat verir.

Müəllim daha sonra qarşılaşdırma budaq cümləsinin quruluşu və qrammatik xüsusiyyətlərinin aydınlaşdırılması üçün uşaqların diqqətini vatman kağızına

çəkilmiş sxemlərə cəlb edir. Sxemlərə əsasən qarşılaşdırma budaq cümlələrini baş cümləyə bağlayan vasitələri müəyyən etməyi və nümunələr söyləməyi tapşırır. (bunu üçün bütün siniflə iş forması seçilir).

- Budaq cümlə əvvəl gəlir və baş cümləyə "nə qədər" bağlayıcı sözü, -sa (-sə) şəkilçisi və da (də), belə ədatları ilə bağlanır. Məs.:

   1. Bunların suyu nə qədər sərin ola da, bizim bulaqlara çatmaz.
   2. O (nə qədər) çalışsa belə, bu işi bacarmaz. ("nə qədər" işlənməyə də bilər)

| | |
|---|---|
| 2. Hərçənd (hərçənd ki – düzdür, doğrudur) ------- ---------- ----------- ---------- -----------------, | amma (ancaq, lakin) ----------- ----------- ----------. |

- Budaq cümlə baş cümləyə hərçənd, hərçənd ki (düzdür, doğrudur) sözləri ilə bağlanır, baş cümlənin əvvəlində amma, ancaq, lakin qarşılaşdırma bağlayıcılarından biri işlənir. Məs.:

   1. Hərçənd (düzdür) sifəti arıq görünürdü, amma bədəncə dolu adam idi.
   2. Doğrudur, (hərçənd) Aslan uşaq idi, lakin o hər işin öhdəsindən gələ bilirdi.

Sonra müəllim diqqəti şərt budaq cümləsi ilə qarşılaşdırma budaq cümləsinin fərqinə cəlb edir.

| | |
|---|---|
| 1. ---- ---- (nə qədər) ---- sa (sə) da (də) (belə), | -------- ------- ------ . |

*1. Kəndə gəlmək istəsən, mənə mütləq xəbər elə.*

*2. Məktub onu sarsıtsa da, cavab yazmağı lazım bilmədi.*

O bildirir ki:

- Şərt budaq cümləsində şərt məzmunu olur, qarşılaşdırma budaq cümləsində isə şərt məzmunu olmur.
- Şərt budaq cümləsi sadələşmir, qarşılaşdırma budaq cümləsi isə xüsusiləşmiş zərfliklərin köməyi ilə sadələşə bilir.

İzah nümunələrin müqayisəsi əsasında aparılır. Mövcud nümunələr əsasında qarşılaşdırma budaq cümləsində durğu işarələrinin işlənməsi barədə də məlumat verilir.

**Yaradıcı tətbiqetmə**

Bütün sinfə müxtəlif variantda test çalışmaları verilir. Düşünmə mərhələsinin başlandığı bu mərhələdə şagirdlər əldə etdikləri bilikləri tətbiq edirlər.

**Qiymətləndirmə və refleksiya**

Test çalışmaları şablon üsulunun tətbiqi ilə qısa zaman ərzində yoxlanılır. Beləliklə, mövzunun şagirdlər tərəfindən dərs prosesində mənimsənilmə səviyyəsinin müəyyən edilməsi, şagirdlərin bütünlüklə qiymətləndirilməsi üçün imkan yaranır. Biliklər şəraitə uyğun olaraq ya qrup, ya da fərdi şəkildə qiymətləndiriiir.

Başa çatmış prosesin şüurda inikası – refleksiya üçün aşağıdakı kimi suallardan istifadə edilir:

*1. Biz nəyi öyrənirik?*

*2. Qarşılaşdırma budaq cümləsi baş cümləyə hansı vasitələrlə bağlanır?*

*3. Belə cümlələr sadələşə bilərmi? və s.*

Sonda müəllim şagirdlərə dərs haqqında öz təəssüratlarını (esse) yazmağı tapşırır. (Dərs necə keçdi, sizin xoşunuza gəldimi? Siz bu dərsdə öz fəaliyyətinizdən razı qaldınızmı? Nə təklifiniz var?)

Vərəqlərin yığılması və ev tapşırıqlarının verilməsi ilə dərs yekunlaşır.

## X sinif

**Standart:** 4.1.1., 4.1.2.

**Mövzu:** Müasir Azərbaycan ədəbi dilinin normaları.

**Məqsədlər:**

Müasir Azərbaycan ədəbi dilinnin normalarını fərqləndirir.

**İnteqrasiya:** Az-t. 1.2.2., 1.2.4.

**İş forması:** kollektiv və fərdi

**İş üsulu:** beyin həmləsi, mühazirə, müzakirə

**Resurs:** dərslik, iş vərəqləri.

## Dərsin gedişi

**Motivasiya.**

Proyektorda mətn təqdim olunur. Şagirdlərə səhv yazılmış və düzgün yerində işlənməyən sözləri tapmaq tapşırılır. Mətndəki səhv yazılmış, yersiş işlənmiş sözlər, yerində işlənməyən cümlə üzvləri tapılır və yeni dərsin adı müəyyənləşdirirlir.

**Tədqiqat sualı:**

*1.Ədəbi dilin normaları hansılardır?*

*2.Fonetik, leksik və qrammatik normanın xüsusiyyətləri nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Müəllim tədqiqat aparmaq məqsədilə şagirdlərə fərdi şəkildə paylayıcı materiallar verir və mətndəki orfoqrafiq səhvləri, yerində və məqamında işlədilməmiş sözləri, qrammatik səhvləri - söz birləşmələri və cümlə üzvləri arasındakı sintaktik əlaqələrin pozulması hallarını, eyni zamanda inversiyanı tapmağı tapşırır. Tədqiqat işi fərdi şəkildə keçirilir.

**Məlumatın mübadiləsi**

Şagirdlər əldə etdikləri nəticələri oxuyur.

**Məlumatın müzakirəsi**

Müzakirələr aparılır. Bu işdə bütün sinif kollektiv iştirak edir, yanlış fikirlərə düzəlişlər edirlər.

**Nəticə və ümumiləşdirmə**

Müəllimin köməyi ilə düzgün cavablar ümumiləşdirilir və qruplaşdırılır. Nəticə aşağıdakı şəkildə qeyd olunur.

1. Dilimiz özünün sabit ədəbi dil normalarına malik olması ilə dünyanın digər inkişaf etmiş dillərindən geri qalmır. Azərbaycan ədəbi dilinin üç norması var:

1) fonetik normalar;

2) leksik normalar;

3) qrammatik normalar.

2. Fonetik normalar orfoqrafik və orfoepin normalara əsaslanır.

Orfoefik normalar sözlərin ədəbi dildəki tələffüz qaydaları əsasında yaranır. Orfoqrafik normalar orfoqrafik qaydalar əsasında formalaşır.

3.Leksik normalar hər kəsdən:

- sözün mənası və ya mənaları ilə ehtiyatlı olmağı;
- ədəbi dildə loru, kobud söz və ifadələr işlətməməyi;
- bədii məqsəd güdmürsə, dialekt sözlərdən, varvarizm və vulqar sözlərdən istifadə etməməyi;
- sözü düzgün yerində və məqamında işlətməyi tələb edir.

4. Qrammatik normalaranı aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İsimlərə əvvəl cəm, sonra mənsubiyyət, hal şəkilçiləri və s. artırılır: kənd-lər-imiz-in.

2) Təyini müəyyən miqdar sayı olan isim təkdə işlənməlidir: on uşaq, üç dəftər.

3) Fel köklərinə əvvəl təsirlik, sonra növ, şəkil, daha sonra isə şəxs (xəbərlik) şəkilçiləri artırılır: qal-dı-ril-ma-lı-dır; döy-üş-çü-lər-imiz-in-dir.

4) Mübtəda və xəbər şəxsə, qismən də kəmiyyətə görə uzlaşır: Sən azərbaycanlısan. Onlar tələbədirlər.

**Qiymətləndirmə.**

Qiymətləndirmə meyarlar əsasında fərdi qaydada aparılır.

## Azərbaycan dili fənninin məzmun standartlarının şərhi[1]

| Standart | Şərh | Açar sözlər |
|---|---|---|
| | **I sinif** | |
| 1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh edir. | Dinlənilmiş sadə fikrin mahiyyətinin anlaşılması,verilən sualları cavablandırmaqla dinlədiyi sadə fikrin mahiyyətinin izah edilməsi. | Sual, cavab, fikir, izah |
| 1.1.2. Dinlədiyi fikrə münasibətini bildirir. | Dinlənilmiş fikrin mahiyyətinin anlaşılması, ona müsbət və ya mənfi münasibətin bildirilməsi. | Fikir, mənfi, müsbət, münasibət |
| 1.2.1. Müşahidə etdiyi əşya və hadisələr haqqında və şəkillər üzrə danışır. | Əşyalar, həyat və təbiət hadisələrinin, eyni zamanda, təsvirlərin müşahidə olunması, onların məzmunu haqqında danışılması. | Əşya, həyat, təbiət, təsvir, müşahidə, məzmun |
| 1.2.2. Dialoqlarda sadə nitq etiketlərindən istifadə edir. | Sadə nitq etiketlərinin tanınması, işlənmə yerinin və məqamının anlaşılması, dialoqlarda görüşmə, təşəkkür və üzrxahlıq etiketlərindən istifadə olunması. | Dialoq, nitq etiketləri, görüşmə, təşəkkür və üzrxahlıq etiketləri |
| 1.2.3. Nitqini müvafiq mimika və jestlərlə müşayiət edir. | Dilə köməkçi vasitələrin – sadə jest və mimik hərəkətlərin işlənmə məqamının müəyyənləşdirilməsi, kiçikhəcmli bədii mətnlərdəki fikri ifadə edərkən edərkən onlardan məqsədəuyğun şəkildə istifadə olunması. | Şeir, bədii mətn, obraz, jest, mimika |
| 2.1.1.Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır. | Şəkillərdə təsvir olunan və həyatda rast gəlinən canlı və cansız əşyaların, təbiət hadisələrinin tanınması və onların adlandırılması. | Şəkil, canlı və cansız varlıqlar, təbiət hadisələri, tanıma |
| 2.1.2. Mətndəki müəyyən olunmuş sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir. | Sözlərin leksik mənasının anlaşılması, mətndə müəyyən olunmuş sözlərin yaxınmənalı sözlərin | Yaxınmənalı sözlər, leksik məna, izah etmə |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| | köməyi ilə izah olunması. | |
| 2.1.3. Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir. | Mətndə öyrənilmiş yaxınmənalı sözlərin leksik cəhətdən fərqləndirilməsi, onların cümlədə işlədilməsi. | Yaxınmənalı sözlər, sözləri leksik cəhətdən fərqləndirmə |
| 2.1.4. Mətndən sadə bədii ifadələri seçir. | Mətndən sadə bədii ifadələrin seçilməsi | Sadə bədii ifadələr, seçmə |
| 2.2.1. Kiçikhəcmli mətnləri düzgün tələffüz etməklə oxuyur. | Kiçikhəcmli mətnlərin sadə tələffüz qaydalarına əməl etməklə oxunması:hərflərin tanınması və onların müvafiq səslərlə ifadə edilməsi, sözlərin hecalarla və bütöv oxunması. | Hərf, səs, heca, söz, cümlə, bütöv oxuma |
| 2.2.2.Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir. | Nəzm əsərlərinin formaca nəsr əsərlərindən fərqləndirilməsi | Nəzm, nəsr, şeir, hekayə, nağıl |
| 2.2.3. Mətnin şəkilli planını tutur. | Verilmiş mətnə əsasən şəkillərin çəkilməsi və ya şəkillərə əsasən mətnin hissələrinin ardıcıllığını müəyyənləşdirilməsi. | Mətn, hissə, ardıcıllıq |
| 2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir. | Kiçikhəcmli mətnlərin oxunması, hadisələrin mahiyyətinin anlaşılması, əsas fikrin müəyyənləşdirilməsi, sadə formada ifadə olunması. | Mətn, fikir, ideya, ifadə etmə, müəyyənləşdirmə |
| 2.2.5. Mətnin məzmununu nəql edir. | Mətnin məzmununun öyrənilməsi, fakt və hadisələrin məntiqi əlaqə və ardıcıllığının müəyyənləşdirilməsi, məzmununun qısa şəkildə nəql edilməsi. | Mətn, məzmun, nəql etmə, məntiqi əlaqə, ardıcıllıq |
| 3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir. | Hərflərin ölçüsünün, ara məsafəsinin, birləşməsinin müəyyənləşdirilməsi, onların müəyyən olunmuş xətt boyunca düzgün yazılması və bitişdirilməsi. | Hərf, element, ölçü, məsafə, müəyyənləşdirmə, müəyyən olunmuş xətt |
| 3.1.2. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür. | Əl yazısı şəklində olan sözlərin və kiçikhəcmli mətnlərin hüsnxət normalarına uyğun üzündən köçürülməsi. | Kiçikhəcmli mətn, hüsnxət, əl yazısı, |
| 3.1.3. Şəklə uyğun cümlələr qurub yazır. | Şəkildə təsvir olunan əşya və hadisələrin tanınması, onlarla bağlı fikirlərin sadə cümlələrlə yazılması. | Şəkil, məzmun, sadə cümlə, təsvir olunan, hadisə |
| 3.1.4. Bir neçə cümlədən ibarət müşahidə | Müşahidə olunmuş təbiət və həyat hadisələri | Mətn, təbiət hadisələri, həyat hadisələri, cümlə |

| | | |
|---|---|---|
| xarakterli rabitəli mətn yazır. | haqqında cümlələrin qurulması və onların rabitəli şəkildə əlaqələndirilməsi. | |
| 3.1.5.Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (açıqca) yazır. | Sadə əməli yazılar haqqında təsəvvürün yaradılması və açıqcanın yazılması. | Sadə əməli yazı, açıqca, təsəvvür |
| 4.1.1.Səs və hərfi fərqləndirir. | Səs və hərfin fərqləndirilməsi: səsin nitq vahidi olaraq yalnız deyilə, eşidilə bildiyinin, hərfin isə dil vahidi olduğunun, yalnız yazıla, görülə bildiyinin və onun səsin yazıdakı işarəsi olduğunun anlaşılması. | Səs, hərf, sait, samit, heca, söz, dil vahidi |
| 4.1.2.Sözləri hecalara ayırır. | Saitlərə görə hecaların müəyyənləşdirilməsi və sözlərin hecalara ayrılması. | Sait, heca , sözlər |
| 4.1.3. Böyük və kiçik hərfləri fərqləndirir. | Böyük və kiçik hərflərin tanınması və fərqləndirilməsi. | Böyük hərf, kiçik hərf, konfiqurasiya, tanıma, fərqləndirmə |
| 4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır. | Hərflərin tanınması və əlifba sırasına görə sadalanması. | Hərf, əlifba sırası |
| 4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir. | Ad, əlamət və hərəkət bildirən sözlərin tanınması və onların sual verməklə fərqləndirilməsi. | Söz, ad, əlamət, hərəkət, fərqləndirmə |
| 4.1.6. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır. | Cümlənin böyük hərflə başlanması, sonunda nöqtə, sual və ya nida işarəsinin qoyulması qaydalarının sadalanması. | Cümlə, böyük hərf, nöqtə, sual işarəsi, nida işarəsi |
| 4.1.7. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir. | Cümlələrin məqsəd və intonasiyaya görə növlərinin fərqləndirilməsi. | Cümlə, nəqli, sual, məqsəd və intonasiya |
| | **II sinif** | |
| 1.1.1. Sual verməklə dinlədiyi fikrin mahiyyətini aydınlaşdırır. | Dinlənilmiş fikirlərin aydın olmayan məqamlarının müəyyən olunması, sual verməklə onların aydınlaşdırılması. | Sual , mətn, aydınlaşdırma, sual vermə |
| 1.1.2. Dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır. | Dinlənilmiş mətndən sadə dəlillərin seçilməsi və münasibətinin əsaslandırılmasında onlardan | Dəlil, münasibət, əsas, seçmə, əsaslandırma |

| | | |
|---|---|---|
| | istifadə olunması. | |
| 1.2.1. Müşahidə etdikləri, eşitdikləri və oxuduqları haqqında danışır. | Müşahidə olunmuş hadisələr, dinlənilmiş məlumatlar və oxunmuş mətnlər, onların məzmunu, oradakı fikirlər haqqında mülahizələrin söylənilməsi. | Hadisə, məlumat, mətn |
| 1.2.2. Dialoqlarda vəziyyətə uyğun nitq etiketlərindən istifadə edir. | Nitq etiketlerinin tanınması, dialoqlarda nitq situasiyasına uyğun təbrik, görüşmə, arzu nitq etiketlərindən istifadə olunması. | Dialoq, nitq etiketləri, nitq situasiyası, təbrik, görüşmə, arzu |
| 1.2.3. Nitq situasiyalarından asılı olaraq müvafiq jest və mimikalardan istifadə edir. | Nitq situasiyalarından asılı olaraq hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan məqsədyönlü istifadə edilməsi | Təəccüb, heyrət, sevinc, istək, arzu, situasiya, jest, mimika, nitq situasiyası, istifadə etmə |
| 2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin adlarını müvafiq məna qrupuna aid edir. | Sözlərin hansı məna qrupuna (heyvan, bitki, peşə, geyim və s.) aid olduğunun müəyyən edilməsi və onların adlandırılması. | Məna qrupu, heyvan, bitki, peşə, geyim, adlandırma |
| 2.1.2. Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir. | Mətndəki yaxınmənalı və əksmənalı sözlərin fərqləndirilməsi, kontekstə uyğun olanının seçilməsi və leksik mənasının izah edilməsi. | Yaxınmənalı sözlər, əksmənalı sözlər, kontekst, kontekst, seçmə, izah etmə |
| 2.1.3. Mətndəki frazeoloji ifadələrin mənasını izah edir. | Mətndəki frazeoloji birləşmələrin müəyyən olunması, seçilməsi, mənasının izah edilməsi. | Frazeoloji birləşmə, seçmə, müəyyənləşdirmə,izah etmə |
| 2.2.1. Müvafiq mətnləri tələffüz normalarına uyğun düzgün və sürətli oxuyur. | Mətndəki sözlərin, cümlələrin tələffüz normalarına uyğun və müvafiq sürətlə oxunması. | Tələffüz normaları, mətn, sürətli oxuma |
| 2.2.2. Kiçikhəcmli bədii mətnləri janrlara görə fərqləndirir. | Janrların: nağıl, hekayə, tapmaca, atalar sözünün tanınması və əsas xüsusiyyətlərinə görə fərqləndirilməsi. | Nağıl, hekayə, tapmaca, atalar sözü, janr, fərqləndirmə |
| 2.2.3. Mətnin hissələrinə başlıqlar verməklə məzmununa aid sadə plan tutur. | Mətnin məzmunundakı bütöv hissələrin müəyyənləşdirilməsi, onlara başlıqlar verməklə sadə plan tutulması. | Mətn, hissə, başlıq, məzmun, müəyyənləşdirmə, plan tutma |
| 2.2.4. Mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir. | Mətndəki əsas fikrin müəyyənləşdirilməsi, ona uyğun planın tutulması və nəql edilməsi. | Müəyyənləşdirmə, plan tutma, nəql etmə |
| 2.2.5. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin əsas fikri ifadə edən fakt və ya hadisələrinin müəyyənləşdirilməsi, real həyatda | Müəyyənləşdirmə, fakt, hadisə, əlaqələndirmə |

| | | |
|---|---|---|
| | rastlaşdığı ona bənzər fakt və ya hadisə ilə əlaqələndirilməsi. | |
| 3.1.1. Yazısında sadə hüsnxət və orfoqrafiya normalarına riayət edir. | Sadə hüsnxət və orfoqrafiya normalarının müəyyənləşdirilməsi, yazıda onlara riayət olunması. | Hüsnxət normaları, orfoqrafiya normaları, müəyyənləşdirmə, riayət etmə |
| 3.1.2. Çap hərfləri ilə yazılmış mətni üzündən köçürür. | Çap hərfləri ilə əl yazısının fərqləndirilməsi, çap hərfləri ilə yazılmış mətnin hüsnxət normalarına uyğun üzündən köçürülməsi. | Mətn, hüsnxət, əl yazısı, fərqləndirmə, üzündən köçürmə |
| 3.1.3. Marağına uyğun seçdiyi nəzm nümunəsini əzbərdən yazır. | Marağa uyğun seçilmiş kiçik nəzm parçasının əzbərdən yazılması. | Nəzm parçası, marağa uyğun seçilmiş |
| 3.14. Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli esse yazır. | Müşahidə və təəssüratlara əsasən qeydlərin aparılması və kiçikhəcmli essenin yazılması. | Müşahidə, təəssürat, esse |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (məktub, açıqca, elan) yazır. | Məktub, açıqca, elan kimi sadə əməli yazıların fərqləndirilməsi, onlara aid nümunələrin yazılması. | Əməli yazı, məktub, açıqca, elan |
| 4.1.1. Sait və samit səsləri fərqləndirir. | Sait və samit səslərin tanınması və onların tələffüzünə görə fərqləndirilməsi | Söz, heca, sətir, sait, samit, fərqləndirmə |
| 4.1.2. Sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir. | Sözlərin sətirdən-sətrə hecalarla keçirilməsi,yazı nümunələrində bu qaydanın tətbiq olunması. | Sait, heca , sözlər |
| 4.1.3. Sözlərin böyük hərflə yazılışına dair qaydaları ( şəxs və coğrafi adlar) məqamına uyğun tətbiq edir. | Şəxs və coğrafi adların ilk hərfinin böyük yazılması, yazı nümunələrində bu qaydaların tətbiq olunması. | Böyük hərf, şəxs adları, coğrafi adlar, yazı nümunəsi |
| 4.1.4. Mətndə rast gəldiyi yeni sözlərin yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğətdən istifadə edir. | Mətndəki yeni sözlərin seçilməsi, onların yazılış və tələffüzünü müəyyənləşdirmək üçun lüğətdən istifadə olunması. | Hərf, əlifba sırası, tələffüz, söz, lüğət, müəyyənləşdirmə |
| 4.1.5. Ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdırır. | Mətndəki ad, əlamət, hərəkət bildirən sözlərin müəyyənləşdirilməsi, leksik mənasına görə qruplaşdırılması. | Söz, ad, əlamət, hərəkət, müəyyənləşdirmə, qruplaşdırma |
| 4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir. | Cümlənin tanınması, onun söz və söz birləşməsindən fərqləndirilməsi. | Cümlə, söz, söz birləşməsi, fərqləndirmə |
| 4.1.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq durğu işarələri ilə tamamlayır. | Məqsəd və intonasiyaya görə nəqli, sual, nida, əmr cümlələrinin qurulması və müvafiq durğu işarələrindən (nöqtə, sual, nida) istifadə | nəqli, nida, sual, əmr cümləsi, nöqtə, sual, nida işarəsi |

| | | |
|---|---|---|
| | olunması. | |
| | **III sinif** | |
| 1.1.1. Dinlədiyi fikirləri müqayisəli təhlil edir. | Müəyyən məsələ ilə bağlı deyilən müxtəlif fikirlərin tutuşdurulması, onların özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsi və müqayisəli təhlil edilməsi. | Problem, müqayisə, təhlil, müəyyənləşdirmə, təhlil etmə |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi müxtəlif fikirlərin qarşılaşdırılması, müqayisəli təhlil edilməsi və mövqeyin şərh olunması. | Fikir, təhlil, müqayisə, mövqe, şərh etmə |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müşahidə etdiyi hadisələrin, eşitdiyi məlumatların və oxuduğu mətnlərin müqayisə etməklə nəql olunması. | Hadisə, məlumat, mətn, müqayisə, nəql etmə |
| 1.2.2. Eşitdiyi, oxuduğu bədii nümunələri dialoq şəklində təqdim edir. | Eşitdiyi bədii nümunələrin dialoq şəklində təqdim edilməsi. | Dialoq, bədii nümunə, təqdim etmə |
| 1.2.3. Ədəbi - bədii nümunələri ifa edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Ədəbi - bədii nümunələri ifa edərkən obrazların xarakterinə və psixoloji vəziyyətinə uyğun jest və mimikalardan məqsədli istifadə edilməsi. | Bədii əsər, obraz, xarakter, jest, mimika |
| 2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin xarakterik əlamətlərini adlandırır. | Mətndə rast gəldiyi yeni əşya və hadisələrin xarakterik əlamətlərinə (forma, ölçü, rəng, dad və s.) müəyyənləşdirilməsi və adlandırılması. | Əşya, hadisə, əlamət, ölçü, dad, rəng, adlandırma |
| 2.1.2. Mətndəki çoxmənalı sözləri fərqləndirir. | Kontekstdən çıxış edərək çoxmənalı sözlərin işlənmə yerinə görə mənasının müəyyənləşdirilməsi və fərqləndirilməsi. | Çoxmənalı söz, fərqləndirilmə, müəyyənləşdirmə |
| 2.1.3. Sözlərin həqiqi və məcazi mənasını fərqləndirir. | Sözlərin leksik mənasının müəyyənləşdirilməsi, çoxmənalı sözlərin məcazilik xüsusiyyətinin izah edilməsi, onun həqiqi mənasından fərqləndirilməsi. | Həqiqi məna, məcazi məna, müəyyənləşdirmə, fərqləndirmə |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (cümlə növlərinə görə) oxuyur. | Mətnin düzgün, surətli və cümlə növlərinə (sual, nida, nəqli, əmr) görə intonasiya ilə oxunması. | Nida, əmr, nəqli, sual cümləsi, düzgün, surətli |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir. | Bədii, elmi - kütləvi mətnlərin | Bədii, elmi, məlumat, fərqləndirmə |

| | | |
|---|---|---|
| | müəyyənləşdirilməsi və əlamətdar cəhətlərinə görə fərqləndirilməsi | |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin giriş, əsas hissə və nəticəsinin müəyyənləşdirilməsi, geniş planının tutulması. | Mətn, giriş, əsas hissə, sonluq, plan tutma |
| 2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir. | Mətni oxumaqla əsas fikrin müəyyənləşdirilməsi, müsbət və ya mənfi cəhətdən qiymətləndirilməsi. | Müəyyənləşdirmə, münasibət, müsbət, mənfi, qiymətləndirmə |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin oxunması, oradakı əsas hissələrin müəyyənləşdirilməsi, məzmunun müvafiq ardıcıllıqla nəql edilməsi. | Əsas hissə, mətn, nəql etmə, məzmun, ardıcıllıq, müəyyənləşdirmə |
| 3.1.1. Hüsnxət və orfoqrafiya qaydalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Müəyyən həcmli mətnin hüsnxət və orfoqrafiya normalarına riayət edilməklə səliqəli, normativlərə uyğun, sürətlə yazılması. | Mətn, hüsnxət normaları, orfoqrafiya normaları, sürətli yazma |
| 3.1.2. Sadə redaktə işləri aparmaqla mətni köçürür. | Orfoqrafik səhvlərlə verilmiş mətn üzərində sadə redaktə işlərinin aparılması və onun köçürülməsi. | Mətn, hüsnxət, orfoqrafik səhv, redaktə |
| 3.1.3. Verilmiş mətnin planını tutur və məzmununu yazır. | Verilmiş mətnin müvafiq planının tutulması və məzmununun yazılması. | Mətn, məzmun, plan tutma |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Müşahidə etdiyi, eşitdiyi, oxuduğu hadisələr haqqında təsvir və nəqli xarakterli inşaların yazılması. | Mətn, təsvir, nəqli, inşa |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, anket, dəvətnamə) yazır. | Sinif səviyyəsinə uyğun olaraq məktub, açıqca, elan, anket və dəvətnamənin yazılması. | Əməli yazı, məktub, açıqca, elan, anket, dəvətnamə |
| 4.1.1. Sait və samit səsləri xüsusiyyətlərinə görə fərqləndirir. | Sözlərdə sait və samitlərin deyilişi ilə yazılışı arasındakı fərqin izah olunması, qoşasaitli və qoşasamitli sözlərin yazılışı və deyilişi ilə bağlı məqamların fərqləndirilməsi. “K” hərfinin ifadə etdiyi səslərin müəyyənləşdirilməsi, nümunələrlə ifadə edilməsi | Sait, tələffüz, qoşasaitli və qoşasamitli sözlər, fərqləndirmə |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bayramlar və tarixi günlər) məqamına | Sözlərin böyük hərflə yazılışına dair qaydaların (bayramlar və tarixi günlər) mənimsənilməsi və | Bayramlar, tarixi günlər sözlər |

| | | |
|---|---|---|
| uyğun tətbiq edir. | məqamına uyğun tətbiq edilməsi. | |
| 4.1.3.Rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edilməsi. | Sözlərin mənası, müəyyənləşdirmə, lüğət və sorğu kitabı, istifadə etmə |
| 4.1.4. Qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözləri qruplaşdırır. | Qrammatik mənalarına görə (isim, sifət, fel, say) sözlərin müəyyənləşdirilməsi, ad, əlamət, hərəkət və say bildirən sözlərin fərqləndirilməsi və qruplaşdırılması. | Ad, əlamət, hərəkət və say bildirən sözlər, fərqləndirilmə, qruplaşdırma |
| 4.1.5. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin mübtəda və xəbər əsasında formalaşmasının, ikinci dərəcəli üzvlərin köməyi ilə genişlənməsinin izah edilməsi | Mübtəda, xəbər və ikinci dərəcəli üzvlər, izah etmə |
| 4.1.6. Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir. | Cümlədə söz sırasının müəyyənləşdirilməsi. | Cümlə, söz sırası, müəyyənləşdirmə |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | İntonasiyanı dəyişməklə nəqli cümlənin sual, nida, əmr cümləsi, sual, nida, əmr cümləsinin nəqli cümlə kimi işlədilməsi. | Cümlə, nəqli, sual, əmr, nida cümləsi, intonasiya, işlətmə |
| | **IV sinif** | |
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Müzakirə və debat zamanı dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirlərin analiz, sintez edilməsi, ümumiləşdirmələr aparmaqla yekun rəyin bildirilməsi. | Müzakirə, debat, fikir, analiz, sintez edilmə, ümumiləşdirmə, rəy bildirmə |
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Bilik və şəxsi təcrübəyə istinad etməklə dinlənilmiş fikirlərin əlavələrlə inkişaf etdirilməsi. | Bilik, təcrübə, əlavə, inkişaf etdirmə |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Müşahidə etdiyi, oxuduğu, eşitdiyi hadisələr haqqında əldə etdiyi mənbələrdən istifadə etməklə məlumatın toplanılması və təqdimatın edilməsi. | Hadisə, şifahi mətn, təqdimat, istifadə etmə |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Nəsr və ya nəzm əsərinin dialoq formasına çevrilməsi və səhnələşdirilmiş şəkildə təqdim edilməsi. | Nəsr, nəzm, təqdim etmə |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müvafiq jest və mimikalardan istifadə | Debat və müzakirələr zamanı nitqini canlı və obrazlı etmək məqsədi ilə müvafiq jest və | İfadəli nitq, təqdimat, jest, mimika, istifadə etmə |

| | | |
|---|---|---|
| edir. | mimikalardan məqsədyönlü istifadə edilməsi. | |
| 2.1.1. Mətndəki hadisələri həyat hadisələri ilə müqayisə edir. | Rast gəldiyi, habelə onlara bənzər əşya və hadisələrin adlandırılması, təyinatına görə mətndəki əşya və hadisələrlə müqayisə edilməsi. | Əşya, hadisə, müqayisə etmə |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndəki terminlərin tanınması, müvafiq elm sahəsinə aid olduğunun müəyyənləşdirilməsi. | Termin, müəyyənləşdirmə |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rastlaşdığı sözlərin, obrazlı ifadələrin müəyyənləşdirilməsi, onlardan istifadə etməklə fərqləndirilməsi. | Obrazlı ifadə, fərqləndirmə |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Bədii mətnləri oxuyarkən obrazların nitqinin onların xarakterinə və psixoloji vəziyyətinə uyğun intonasiya ilə oxunması. | Obraz, xarakter, intonasiya |
| 2.2.2. Bədii və elmi - kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Bədii mətnin hekayə xəritəsinin qurulması, elmi-kütləvi mətnlərlə bağlı kiçik, sadə araşdırmanın aparılması və təqdim edilməsi. | Araşdırma, təqdim etmə |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Verilmiş mətnin məzmununun müəyyənləşdirilməsi, onu genişləndirmək, dəyişdirmək, və ya davam etdirmək məqsədi ilə planın tutulması | Müəyyənləşdirmə, genişləndirmə, dəyişdirmə, davam etdirmə, plan tutma |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətnin məzmununun ideyasına uyğun genişləndirilməsi, dəyişdirilməsi, təxəyyülə əsaslanmaqla yaradıcı şəkildə davam etdirilməsi. | Genişləndirmə, dəyişdirmə, yaradıcı, davam etdirmə, təxəyyül |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətnin məzmun və ideya xüsusiyyətlərinin müəyyənləşdirilməsi, obrazların müsbət və ya mənfi xüsusiyyətlərinin səciyyələndirilməsi. | Səciyyələndirmə, ideya, obraz, müəyyənləşdirmə, səciyyələndirmə |
| 3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir. | Orfoqrafiya normalarına əməl edilməsi, cümlələrin növündən asılı olaraq müvafiq durğu işarələrindən düzgün istifadə edilməsi. | Orfoqrafiya normaları, durğu işarələri, istifadə etmə |
| 3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. | Təxəyyülə əsaslanmaqla mətnin ixtisar və əlavələr etməklə üzündən köçürülməsi. | Təxəyyül, ixtisar, əlavə, üzündən köçürmə |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Müəyyən epizodlar genişləndirilərək və ya yeni süjet xətləri əlavə edilərək mətnlərin məzmununun yazılması. | Epizod, süjet xətti, mətn, məzmun |

| | | |
|---|---|---|
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu, müşahidə etdiyi tamaşa, incəsənət əsərindəki müsbət və mənfi məqamların müəyyənləşdirilməsi və onlar haqqında rəy, esse və inşanın yazılması | Esse, inşa, rəy, müsbət, mənfi |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Sinif səviyyəsinə uyğun olaraq məktub, elan, dəvətnamənin yazılması. | Əməli yazı, məktub, elan, dəvətnamə |
| 4.1.1.Sadə fonetik təhlil aparır. | Sait və samit səslərin xüsusiyyətlərinin izah edilməsi, sözlərin sonunda tələffüz zamanı d-t, g-k, q-k, b-p əvəzlənməsinin müəyyənləşdirilməsi. | Samit, sait, tələffüz, müəyyənləşdirmə |
| 4.1.2.Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir. | Sözlərin böyük hərflə yazılışına dair qaydaların (bəzi mürəkkəb adlar, göy cisimləri) məqamına uyğun tətbiq edilməsi. | Sait, heca , sözlər mürəkkəb adlar, göy cisimləri, tətbiq etmə |
| 4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyalardan istifadə edir. | Lüğətlərdən, ensiklopediyalardan yeni söz və adların yazılışının müəyyənləşdirilməsi məqsədi ilə istifadə edilməsi. | Lüğət, ensiklopediya, müəyyənləşdirmə, istifadə etmə |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözlərin qrammatik xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bağlayıcı və qoşmanın fərqləndirilməsi. | Sözün qrammatik xüsusiyyəti, bağlayıcı, qoşma, müəyyənləşdirmə, fərqləndirmə |
| 4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlədə baş (mübtəda və xəbər) və ikinci dərəcəli üzvlərin movqeyinin izah edilməsi və onların yerinin müəyyən edilməsi. | Baş və ikinci dərəcəli üzvlər, mübtəda, xəbər, müəyyənləşdirmə |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Cümlə və onun quruluşca növləri, xüsusiyyətləri haqqında kiçik təqdimatların edilməsi. | Nəqli, sual, nida cümlələri, təqdim etmə |
| 4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir. | Cümlənin məqsəd və intonasiyasına görə növlərinin müəyyənləşdirilməsi (sual, nida, əmr, nəqli) | Cümlə, nəqli, sual, əmr, sual cümlələri, müəyyənləşdirmə |

| **V sinif** | | |
|---|---|---|
| 1.1.1. Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır. | Danışanın fikrindəki aydın olmayan məqamların aydınlaşdırılması məqsədi ilə sualların verilməsi. | Danışanın fikri, aydınlaşdırma, sual vermə |

| | | |
|---|---|---|
| 1.1.2. Dinlədiyi məlumatlar-dakı əsas faktları seçir. | Dinlənilən məlumatlardakı əsas faktların seçilməsi, təhlil edilməsi. | Dinlənilən məlumat, əsas fakt, seçmə,təhlil etmə |
| 1.2.1. Deyəcəyi fikrə müvafiq ifadə forması seçir. | Deyəcəyi fikrin müəyyənləşdirilməsi və ona müvafiq olan ifadə formasının (təklif, mülahizə) əvvəlcədən seçilməsi. | Deyiləcək fikir, ifadə forması, müəyyənləşdirmə, seçmə |
| 1.2.2. Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır. | Mövzuya aid konkret fakt və nümunələrin seçilməsi, müəyyənləşdirilməsi və onlardan məqsədəuyğun şəkildə arqument gətirilməsi. | Fikri əsaslandırma, müəyyənləşdirmə, fakt, nümunə, əsaslandırma |
| 1.2.3. Danışarkən mimika və jestlərdən yerli-yerində istifadə edir. | Şifahi nitqi müşayiət edən və təsir gücünü artıran əsas vasitələrin( jest və mimika). əhəmiyyətinin anlaşılması və onlardan yerli-yerində istifadə edilməsi | Vasitələr, mimika, jest, şifahi nitq, istifadə etmə |
| 1.2.4. Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir. | Dinlənilən mətnin məzmununun müəyyənləşdirilməsi, mövzuya dair fakt və hadisələrin tapılması, onlarla bağlı subyektiv fikir bildirilməsi. | Fakt, hadisə, bildirmə, subyektiv fikir |
| 2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı söz-lərin mənasını müəyyənləş-dirir. | Lüğətlərdən istifadə etməklə tanış olmayan sözlərin mənasının müəyyənləşdirilməsi. | Oxunan mətn, tanış olmayan söz, lüğət, məna |
| 2.1.2. Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir. | Mətndəki sözlərin mənalarının həqiqi və ya məcazi mənada işləndiyinin müəyyənləşdirilməsi. | Sözün mənası, həqiqi məna, məcazi məna |
| 2.2.1. Tələffüz qaydalarını gözləməklə mətni düzgün oxuyur. | Ədəbi dilin orfoepik normasına əməl edilməsi, tələffüz qaydalarını gözləməklə mətnin düzgün oxunması. | Ədəbi dil, orfoepik qayda qaydalar, mətnin oxusu |
| 2.2.2. Mətnin tərkib hissələrini fərqləndirir. | Mətn üç tərkib hissəsinin ( giriş, əsas hissə, nəticə) və bir-birindən özünəməxsus xüsusiyyətlərinə görə fərqləndirilməsi. | Mətnin tərkibi, giriş, əsas hissə, nəticə, fərqləndirmə |
| 2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir. | Mətnin məzmunundakı əsas fikrin müəyyənləşdirilməsi, mətnin məzmun və ideyasını əks etdirən əsas fikrin ikincidərəcəli fikirlərdən fərqləndirilməsi. | Mövzu, məzmun, ideya, əsas fikir, ikinci dərəcəlki |

| | | |
|---|---|---|
| | | fikir, fərqləndirmə |
| 3.1.1. Müxtəlif yazı(ifadə, inşa, hekayə) formalarını fərqləndirir. | Müxtəlif yazı formaları (ifadə, inşa, hekayə) üzərində müşahidələrin təşkili. Beşinci sinif üzrə müəyyənləşdirilmiş yazı formalarının bir-birindən fərqləndirilməsi. | Yazı forması, ifadə, inşa, hekayə, xüsusiyyət, dəqiqləşdirmə |
| 3.1.2. Mövzu ilə bağlı toplādığı materiallar əsasında mətn hazırlayır. | Mövzu ilə bağlı araşdırma aparılması, internetdən, məktəbli üçün olan ensiklopediyalardan və digər ədəbiyyatlardan istifadə etməklə məlumat toplanılması, əldə etdiyi materiallardan faydalanaraq yaradıcı təfəkkürə əsaslanmaqla rabitəli mətn hazırlanması. | Mövzu, material toplama, rabitəli mətn, internetdən, məktəbli üçün olan ensiklopediyalar , rabitəli mətn |
| 3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir. | Mətnin tərkib hissələrinin (giriş, əsas hissə, nəticə) fakt və nümunələrə əsasən fərqləndirilməsi, arqumentlər gətirərək məntiqi şəkildə əlaqələndirilməsi. | Rabitəli mətn, mətn qurma, mətnin tərkibi, giriş, əsas hissə, nəticə, mətnin strukturu, məntiqi əlaqə |
| 3.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır. | Əsas dil xüsusiyyətlərinə qoyulmuş tələblərlə tanış olma, işgüzar üsluba aid əməli yazı nümunələrinin fərqləndirilməsi və onlara əməl etməklə müxtəlif yazıların - elan, məktub yazılması. | Rəsmi-işgüzar üslub, əməli yazı, elan, məktub, dil xüsusiyyətləri |
| 4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərinə ayırır. | Cümlənin məqsəd və intonasiyaya görə növlərinin- sual, nida, nəqli, əmr cümlələrinin fərqləndirilməsi, onların hər birinin işlənmə məqamının və formasının müəyyən edilməsi. | Sadə cümlə, məqsəd və intonasiyaya görə cümlənin növü, sual, nida, nəqli və əmr cümlələri |
| 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir. | Sözün səs tərkibinin müəyyən edilməsi, sait və samitlərin fərqləndirilməsi, semantik xüsusiyyətlərinin – leksik mənası, təkmənalılıq və ya çoxmənalılıq, omonimlik, sinonimlik, yeni və ya köhnəlmiş söz olmasının, eyni zamanda sözün tərkibinin – kökünün, qrammatik və leksik şəkilçilərinin, başlanğıc formasının, sözün yaranma üsullarının – morfoloji və ya sintaktik yolla yaranmasının izah edilməsi. | Sait, samit, heca, vurğu, ahəng qanunu, leksik məna, omonim, sinonim, antonim, yeni söz, köhnəlmiş söz, ümumişlək sözlər, ümumişlək olmayan sözlər, sözün kökü, şəkilçi, başlanğıc |

| | | |
|---|---|---|
| | | forma, alınma söz, sözün yaranma üsulları – morfoloji və ya sintaktik yol, iza etmə |
| 4.1.3. Cümlənin sonunda və dialoqlarda durğu işarələrindən məqsədyönlü istifadə edir. | Durğu işarələrinin öyrənilməsi, işlənmə məqamının müəyyənləşdirilməsi, məqsəd və intonasiyaya görə növlərindən asılı olaraq cümlənin sonunda nöqtə, sual və nidadan düzgün istifadə edilməsi. | Məqsəd və intonasiyaya görə cümlənin növü, nöqtə, sual işarəsi, nida işarəsi, istifadə etmə |
| 4.1.4. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir. | Əsl Azərbaycan sözlərində, alınma sözlərdə, qoşasaitli və ya qoşasamitli, bitişik, ayrı və defislə yazılan sözlərdə sait və samitlərin yazılış qaydalarına əməl edilməsi. | Sait, samit, mürəkkəb söz, qoşasaitli söz, qoşasamitli söz, bitişik yazılan mürəkkəb söz, defislə yazılan mürəkkəb söz |
| | **VI sinif** | |
| 1.1.1. Danışanın məlumatlarına əsasən onun məqsədini (məqsədlərini) şərh edir. | Mətnin məzmununun müəyyənləşdirilməsi, əldə olunan məlumatlardakı fakt və nümunələrin təhlil edilməsi. Nəticəyə əsaslanaraq məlumatların şərh edilməsi, danışanın məqsədinin izah edilməsi. | Məlumat, məqsəd, şərh etmə, mətnin məzmun, şərh etmə |
| 1.1.2. Dinlədiyi məlumatı yığcam şəkildə ümumiləşdirir. | Dinlədiyi məlumatlardan fakt və nümunələrə aid qeydlərin götürülməsi, mətnin məzmununun yığcam şəkildə ümumləşdirilməsi. | Dinlənilən məlumat, yığcamlıq, ümumiləşdirmə |
| 1.2.1. Şifahi məlumat üçün əsas fikrin təqdimetmə formasını və yanaşma tərzini müəyyənləşdirir. | Nəqletmə, inandırma, təsviretmə və s. üsullardan istifadə etməklə nitqin təqdim edilməsi, məqsədəuyğun yanaşma tərzi ilə şifahi nitqin nümayiş etdirilməsi. | Şifahi məlumat, əsas fikir, təqdimetmə forması, yanaşma tərzi, müəyyənləşdrimə |
| 1.2.2. Dinləyən şəxsin əsas fikri və anlayışları başa düşməsinə kömək etmək üçün mühüm məqamları vurğulayır. | Danışarkən nitqin məzmunu ilə bağlı mühüm məqamların müəyyən edilməsi, dinləyənin əsas fikri və anlayışları başa düşməsinə kömək etmək üçün həmin məqamların vurğulaması. | Dinləyən şəxsin başa düşməsi, əsas fikir, əsas anlayış, mühüm məqamları vurğulama |

| | | |
|---|---|---|
| 1.2.3. Nitqində intonasiya və ritmdən düzgün istifadə edir. | Şifahi nitq zamanı əsas tələblərə əməl edilməsi: məzmuna uyğun intonasiya və ritmin müəyyənləşdirilməsi, onlardan düzgün və yerində istifadə edilməsi. | Nitq, intonasiya, ritm, düzgün istifadə |
| 1.2.4. Problemlə bağlı mülahizələrini söyləyir. | Müzakirə zamanı hər hansı bir problemlə bağlı yaranmış müəyyən münasibət haqqında müstəqil fikir və mülahizələrin söylənilməsi. | Müzakirə olunan problem, müstəqil fikir və mülahizə |
| 2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını şərh edir. | Lüğətlərdən istifadə edilməsi, yeni mövzudakı tanış olmayan sözlərin mənasının tapılması, onların işlənmə məqamının müəyyənləşdirilməsi və şərh edilməsi. | Oxunan mətn, tanış olmayan söz, lüğət, məna, müəyyənləşdirmə, şərh |
| 2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir. | Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işlənməsinin müəyyənləşdirilməsi və onların fərqləndirilməsi. | Sözün leksik mənası, həqiqi məna, məcazi məna |
| 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır. | Mətnin məzmununun öyrənilməsi, əsas məqamların müəyyən edilməsi və onları nəzərə çatdırmaq üçün mühüm məqamları vurğulanması | Əsas fikir, mühüm məqam, vurğulanma |
| 2.2.2. Mətni tərkib hissələrinə ayırır. | Mətnin sujet xəttinin öyrənilməsi, tərkib hissələrinin – giriş, əsas hissə və nəticənin müxtəlif fakt və nümunələrə əsaslanaraq müəyyən edilməsi və ayrılması. | Mətn, mətnin tərkibi, giriş, əsas hissə, nəticə, ayırma |
| 2.2.3. Mətndəki fikir və mülahizələrə münasibət bildirir. | Mətnin oxunması və ya müzakirəsi zamanı rast gəlinən fikirlərə və müxtəlif mövqeli mülahizələrə qarşı arqumentlər gətirərək münasibət bildirmə. | Məzmun, mövqe, fikir, münasibət, arqument gətirmə, münasibət bildirmə |
| 3.1.1. Müxtəlif yazı tiplərini fərqləndirir. | Müxtəlif yazı tipləri haqqında öyrənmə, mütəmadi olaraq onlara müraciət edilə bilmə, nəqli, təsviri, mühakimə xarakterli yazı tiplərinin müəyyənləşdirilmə və fərqləndirilmə. | Yazının tipi, nəqli yazı, təsviri yazı, mühakimə xarakterli yazı |
| 3.1.2. Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir. | Yazılan mətnlə tanış olduqdan sonra mövzuya uyğun formalaşmış fikirlərə əsaslanaraq mətnin müəyyən fakt və nümunələrlə zənginləşdidilməsi. | Mətn, mövzu, mövzuya uyğun fakt və hadisə, mətni zənginləşdirmə |
| 3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir. | Yazılan mətndə müəyyən olunmuş giriş, əsas hissə, nəticə hissələrinin fərqləndirilməsi və bu hissələri təşkil edən abzasların struktur və məntiqi cəhətdən əlaqələndirilməsi. | Mətnin tərkibi, mətnin hissələri, giriş, əsas hissə, nəticə, abzas, məntiqi |

| | | |
|---|---|---|
| | | əlaqə, əlaqələndirmə |
| 3.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır. | Rəsmi-işguzar üslubun işlənmə dairəsinin müəyyənləşdirilməsi, dil xüsusiyyətlərinə qoyulmuş əsas tələblərlə tanış olma, işgüzar üsluba aid əməli yazı nümunələrinin fərqləndirilməsi və onlara əməl etməklə müxtəlif yazıların –ərizə, tərcümeyi-halın yazılması. | Əməli yazı, ərizə, tərcümeyi-hal |
| 4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir. | Sadə cümlələrin qrammatik əsasının müəyyən olunması, suallar verərək mübtədanın və xəbərin tapılması. | Cümlə, qrammatik əsas, mübtəda, xəbər |
| 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir. | Sözlərə sual verilməsi, qrammatik mənasının müəyyən edilməsi, onların hansı nitq hissəsinə aid olmasının, həmin nitq hissəsinə məxsus hansı qrammatik xüsusiyyətləri daşımasının, işlənmə yerinə görə digər nitq hissələri ilə omonimliyinin izah edilməsi. | Sözün qrammatik mənası, nitq hissəsi, kontekst, omonim sözlər |
| 4.1.3. O, bu əvəzliklərindən sonra vergüldən düzgün istifadə edir. | O, bu əvəzliklərinin cümlədə mövqeyindən (mübtəda olub-olmaması) və digər nitq hissələri ilə əlaqəsindən (özündən sonra hansı nitq hissəsinin gəlməsi) asılı olaraq vergüldən düzgün istifadə edilməsi. | O, bu əvəzlikləri, cümlədə mövqe, vergül |
| 4.1.4. Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edilməsi | Əsas nitq hissəsi, yazılış qaydası |
| **VII sinif** | | |
| 1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyən edir. | Danışanın nitqindəki alçaq, orta və ya yüksək tonun, onun əhval-ruhiyyəsinin müsbət və ya mənfi olmasının, həmçinin emosiyalarının müəyyənləşdirilməsi. | Ton, əhvali-ruhiyyə, emosiya, şifahi məlumat |
| 1.1.2. Dinlədiyi fikrin inan-dırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlənilən fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə danışanın nitqindəki yardımçı vasitələrə, fakt və hadisələrə istinad edilməsi. | Dinlənilən fikir, inandırıcı nitq, əsaslandırılmış nitq, fakt və hadisə |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Müəyyən dil materiallarından istifadə edərək fikrin müxtəlif formalarda - təklif, mülahizə, hökm, əmr və s. şəkildə təqdim edilməsi. | Fikir, ifadə forması, ifadə etmə |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Fikrin məntiqi ardıcıllıqla ifadə edilməsi. | Fikri ifadə etmə, məntiqi ardıcıllıq. |

| | | |
|---|---|---|
| 1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir. | Şifahi nitqdə müxtəlif səs çalarlarından məqsədyönlü istifadə edirlməsi. | NİtQ, səs çaları |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Müzakirə olunan məsələ ilə bağlı deyilmiş müxtəlif fikirlərin analiz, sintez edilməsi və onlarla bağlı obyektiv münasibət bildirilməsi. | Müzakirə olunan məsələ, müxtəlif fikirlər, münasibət bildirmə |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Mətndən tanış olmayan sözlərin mənasının lüğətlərdən istifadə olunaraq tapılması və mətnin kontekstinə uyğun mənanın müəyyən edilməsi. | Oxunan mətn, tanış olmayan söz, kontekstə uyğun məna dəqiqləşdirmə. |
| 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir. | Sözlərin leksik mənasının müəyyən edilməsi, həqiqi və ya məcazi mənada işlənən sözlərin semantik xüsusiyyətlərinin və mətndəkin sözlərin mənasının həqiqi və ya məcazi olmasının izah edilməsi. | Mətn, söz, həqiqi məna, məcazi məna |
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Mətnin tələffüz qaydalarına əməl etməklə oxunması, məqsəddən asılı olaraq səs tonunun, tempin düzgün nümayiş etdirilməsi, sözlər, söz birləşmələri və cümlələr arasındakı fasilənin düzgün ifadə edilməsi. | İfadəli oxu, səs tonu, temp, fasilə |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəy-yənləşdirir. | Mətni oxuyub məzmununu mənimsədikdən sonra mətnin tərkib hissələrinin – giriş, əsas hissə və nəticənin, onlar arasındakı əlaqənin düzgün müəyyən edilməsi. | Mətn, mətnin tərkibi, giriş, əsas hissə, nəticə |
| 2.2.3. Mətndəki fikrə müna-sibətini əlavə faktlarla əsaslan-dırır. | Mətndən müvafiq sitat və faktların seçilməsi, mətndəki fikirlərlə bağlı münasibətini əsaslandırmaq üçün onlardan məqsədyönlü istifadə edilməsi. | Sitat, fakt, fikir, əsaslandırma |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, hekayə) ifadə edir. | Verilmiş hər hansı mövzuya uyğun yazı formasının seçilməsi, ifadə, inşa, hekayə yazı formalarından istifadə edərək yazı vərdişlərini nümayiş etdirilməsi. | Mövzu, yazı forması, ifadə, inşa, hekayə |
| 3.1.2. Topladığı fakt və ha-disələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Mətnin məzmununu öyrəndikdən sonra internet materiallarından, ensiklopediyalardan istifadə etməklə araşdırmanın aparılması, topladığı məlumatlarla mətnin zənginləşdirilməsi. | Mətn, fakt, hadisə, münasibət, internet, ensiklopediya |
| 3.1.3. Qurduğu plan əsasında | Yazılacaq mətn üçün əvvəlcədən hazırlanmış plana müvafiq olaraq mətnin tərkib | Mətnin planı, mətnin |

| | | |
|---|---|---|
| mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | hissələrinin - giriş, əsas hissə və nəticənin müəyyən edilməsi, onların, eyni zamanda abzasların struktur və məntiqi cəhətdən əlaqələndirilməsi. | hissələri, giris, əsas hissə, nəticə, abzas |
| 3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | Rəsmi-işgüzar üslubun tələblərinin öyrənilməsi, müvafiq dil materiallarından istifadə etməklə müxtəlif əməli yazıların – teleqram və izahatın yazılması. | Əməli yazı, teleqram, izahat, rəsmi-işgüzar üslub |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Cümlələrin quruluşca növlərinin öyrənilməsi, cümlənin neçə qrammatik əsasının olduğununun müəyyənləşdirilməsi, sadə və mürəkkəb cümlələrin xüsusiyyətlərini nəzərə almaqla onların fərqləndirilməsi. | Cümlələrin quruluşca növlərini, sadə cümlə, mürəkkəb cümlə, cümlənin qrammatik əsasının |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Sözlərin ümumi qrammatik mənalarına görə fərqləndirilməsi, ad, əlamət, hərəkət, say bildirən sözlərin müəyyən edilməsi. | Söz, qrammatik məna, ad, əlamət, hərəkət, say bildirən sözlər |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edilməsi. Məsələn, modal sözlərin cümlədə işlənmə məqamına görə vergül işarəsini düzgün işlədilməsi. | Köməkçi nitq hissələri, durğu işarələri |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Bütün nitq hissələrinin bitişik, ayrı, defislə yazılması ilə bağlı qaydalara əməl edilməsi. | Nitq hissəsi, yazılış qaydaları |
| **VIII sinif** | | |
| 1.1.1. Suallar verməklə dinlədiyi fakt və hadisələr barədə özünün fikir və mülahizələrini dəqiqləşdirir. | Dinlənilən fakt və ya hadisələr barədə sualların verilməsi, cavabları təhlil edilməsi, yeri gəldikcə fikir və mülahizələrin dəqiqləşdirilməsi üçün həmin cavablara istinad edilməsi. | Dinlənilən fakt, dinlənilən hadisə, fikir, mülahizə, sual vermə, dəqiqləşdirmə |
| 1.1.2. Dinlədiyi fikrin məntiqiliyini əsaslandırır. | Dinlənilən fikrin məntiqiliyinin əsaslandırılması məqsədi ilə danışanın nitqindən konkret nümunələrin gətirilməsi. | Dinlənilən fikir, məntiqilik, əsaslandırma |
| 1.2.1. Auditoriyanın səviyyəsinə uyğun ifadə forması seçir. | Fikir söylənəcək auditoriyanın təfəkkür səviyyəsinə müvafiq, onun anlayacağı ifadə formasının - təklif, mülahizə, rəy və s. düzgün seçilməsi. | Auditoriya səviyyəsi, ifadə forması, seçmə, təklif, mülahizə, rəy |

| | | |
|---|---|---|
| 1.2.2. Əlavə materiallardan istifadə etməklə nitqini zənginləşdirir. | İnternetə, ensiklopediyalara, müxtəlif lüğətlərə,ədəbiyyatlara müraciət olunması, əlavə məlumatların əldə olunması və nitqin zənginləşdirilməsi məqsədi ilə həmin materi-allardan - fakt, hadisə və sitatlardan istifadə edilməsi. | Nitqi zənginləşdirmə, əlavə materiallardan istifadə |
| 1.2.3. Nitq etiketlərindən məqamında istifadə edir. | Salamlaşma, vidalaşma və s. nitq etiketlərinin öyrənilməsi, onların harda və necə işləndiyinin müəyyənləşdirilməsi, ünsiyyət prosesində nitq etiketlərindən məqamında və düzgün istifadə edilməsi. | Nitq etiketləri, məqamında istifadə |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif mövqeli fikirləri ümumiləşdirir. | Müzakirə zamanı söylənmiş müxtəlif mövqeli fikirlərin müqayisə və xarakterizə edilməsi, sistemləşdirilməsi, müzakirə olunan məsələ baxımından ümumiləşdirilməsi. | Müzakirə, müxtəlif mövqeli fikirlər, ümumiləşdirmə |
| 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir. | Oxunan mətndə tanış olmayan söz və ifadələrin seçilməsi, müxtəlif lüğətlərdən istifadə etməklə onların mənasının müvafiq qarşılığının - sinonim və ya antonimini tapmaqla, tərkib hissələrinin şərh edilməsi. | Tanış olmayan söz, tanış olmayan ifadə, sinonim, antonim, şərh etmə |
| 2.1.2. Həqiqi və məcazi m-ənalı söz və ifadələrin mə-nasını nümunələrlə şərh edir. | Mətndəki söz və ifadələrin həqiqi və ya məcazi mənasını onların sinonim və antonimlərindən istifadə etməklə şərh edir. | Söz, ifadə, leksik məna, həqiqi məna, məcazi məna, sinonim |
| 2.2.1. Söz sırasını, cümlələr və abzaslar arasında əlaqəni gözlə-məklə mətni oxuyur. | Cümlədə sözlərin sırasını, sintaqmları, cümlələr və abzaslar arasındakı ardıcıllığı və əlaqəni gözləməklə mətnin düzgün oxunması. | Cümlədə söz sırası, sintaqm, ardıcıllıq |
| 2.2.2. Mətnin hissələri arasında əlaqəni şərh edir. | Mətnin tərkib hissələrinin - giriş, əsas hissə və nəticənin müəyyən edilməsi, onların bir-biri ilə məntiqi və sujet cəhətdən necə əlaqəndiyinin şərh edilməsi. | Mətn, mətnin hissələri, giriş, əsas hissə, nəticə |
| 2.2.3. Mətndəki fakt və ha-disələri real həyatla müqayisə edir və əlaqələndirir. | Mətndəki fakt və nümunələrin seçilməsi, faktların müqayisə edilməsi , onların oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi. | Həyatla əlaqə, fakt və hadisə, müqayisə |
| 3.1.1. Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır. | Verilmiş mövzuya uyğun müxtəlif: nəqli, təsviri, mühakimə tipli mətnlərin yazılması | Mətn, nəqli, təsviri, mühakimə tipli mətn |
| 3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir. | Yazılan mətnlə bağlı fikir və mülahizələri qüvvətləndirmək məqsədi ilə müxtəlif mənbələrdən – internetdən, ensiklopediyalardan, müxtəlif lüğətlərdən, ədəbiyyatlardan topladığı məlumatlara əsaslanaraq sitatların seçilməsi. | Mətn, sitat, fikir və mülahizə |

| | | |
|---|---|---|
| 3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir. | Hazır verilmiş mətnin hissələri, abzaslar və cümlələr arasındakı struktur-məntiqi əlaqəni pozmadan ona müvafiq düzəlişlərin edilməsi, onun əlavə məlumatlarla zənginləşdirilməsi, emosianallığını artırmaq məqsədilə söz və ifadələrin əlavə edilməsi. | Mətn, mətnin hissələri, giriş, əsas hissə, nəticə, abzas, cümlə, düzəliş etmə |
| 3.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır. | İşgüzar üslubun tələblərinə müvafiq dil materiallarından istifadə etməklə müxtəlif əməli yazıların – arayış, protokolun yazılması. | Əməli yazı, arayış, protokol |
| 4.1.1. Sadə cümlənin növlərini fərqləndirir. | Sadə cümlənin quruluşca, şəxsə görə, baş və ikinci dərəcəli üzvlərin iştirakına görə növlərinin fərqləndirilməsi, təktərkibli, cüttərkibli, şəxssiz, ümumşəxsli cümlələrin seçilməsi, onlara aid nümunələrin gətirilməsi. | Sadə cümlə, baş və ikinci dərəcəli üzvlər, təktərkibli, cüttərkibli, şəxssiz, ümumşəxsli cümlələri |
| 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir. | Sözlərin söz birləşməsi və cümlə daxilində, söz birləşmələrinin cümlə daxilində sintaktik vəzifəsinin müəyyənləşdirilməsi, verilmiş cümlədə baş üzvlərin –mübtəda və xəbərin, ikinci dərəcəli üzvlərin – tamamlıq, , təyin, zərfliyin tapılması və ifadə vasitələrinin müəyyən edilməsi. | Söz, söz birləşməsi, cümlə, sintaktik vəzifə, baş üzvləri –mübtəda və xəbəri, ikinci dərəcəli üzvləri – tamamlığı, , təyini, zərfliyi |
| 4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir. | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrinin (vergül, tire) düzgün işlədilməsi, | Həmcins üzv, cümlə üzvlərinin əlavəsi, xitab, ara sözlər və ara cümlələr, durğu işarələri |
| 4.1.4. Həmcins üzvlərdə şəkilçilərin yazılış qaydalarına əməl edir. | Həmcins üzvlərdə bəzi şəkilçilərin (hal, mənsubiyyət, cəm) və köməkçi sözlərin (idi, imiş, isə) ixtisarı, həmcins mübtədaların xəbərlə uzlaşması baxımından şəxs sonluqlarının düzgün yazılış qaydalarına əməl edilməsi . | Həmcins üzv, ixtisar, şəkilçi, köməkçi söz, şəxs sonluqları |
| **IX sinif** | | |
| 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. | Mətnin məzmununa uyğun təhlil, sintez, tədqiqat xarakterli sualların verilməsi, alınan cavabların təhlil edilməsi və nəticədə həmin cavablar əsasında danışanın mövzuya münasibətinin müəyyən edilməsi. | Mövzu, münasibət, tədqiqat xarakterli sual |

| | | |
|---|---|---|
| 1.1.2. Dinlədiyi fikirlərə münasibət bildirir. | Danışanın diqqətlə dinlənilməsi, əsas fikrin müəyyənləşdirilməsi, təhlil edilməsi və ona münasibət bildirilməsi | Dinlənilən fikir, münasibət bildirmə |
| 1.2.1. Dil vahidlərindən məq-sədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur | Müxtəlif formalı (təklif, mülahizə, məruzə, rəy) mətnlərin qurulmasında dil vahidlərindən (söz, söz birləşməsi, cümlə) məqsədyönlü istifadə edilməsi, sözlər və söz birləşmələri arasında məntiqi-struktur əlaqənin müəyyənləşdirilməsi. | Dil vahidləri, məqsədyönlü istifadə, müxtəlif formalı mətnlər, mətn qurma. |
| 1.2.2. Müxtəlif tipli rabitəli nitq nümunələri qurur. | Müxtəlif tipli (nəqli, təsviri, mühakimə xarakterli) rabitəli nitq nümunələrinin (şifahi mətn, dialoq) qurulması. Hadisələrin və əşyaların düzgün təsvir edilməsi, hər hansı bir məsələyə dair mühakimə yürüdülməsi. | Rabitəli nitq, müxtəlif tipli nitq, nitq nümunəsi qurma |
| 1.2.3.Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (poza, jest, mimika) uzlaşdırır. | Şifahi nitq qurarkən səs çalarının, ucalığının, tonunun, emosiyaların poza, jest və mimikalarla uyğunluğunun gözlənilməsi, onlar arasındakı əlaqənin müəyyən edilməsi. Müsbət və ya mənfi emosiyasını göstərmək üçün müvafiq mimik vəziyyətin nümayiş etdirilməsi. | Nitq prosesi, səs çaları, səsin ucalığı, hiss, ton, ifadə tərzi, poza, jest, mimika, uyğunluq, tamamlama |
| 1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. | Mövzu ilə bağlı müzakirədə iştirak etmə, müzakirə nəticəsində ümumiləşmiş fikirlərin təhlil edilməsi, sitemləşdirilməsi və yığcam şəkildə ifadə edərək təqdim edilməsi. | Müzakirə, ümumiləşmiş fikirlər, yığcam ifadə, təqdim etmə |
| 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir. | Oxunan mətndən tanış olmayan söz və ifadələrin leksik mənasının lüğətlərin köməyi ilə tapılması, mətndə işlənmə mövqeyinin müəyyənləşdirilməsi və kontekstə uyğun mənasının dəqiqləşdirməklə şərh edilməsi. | Tanış olmayan söz, tanış olmayan ifadə, kontekstə uyğun məna. |
| 2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin məna-sını kontekstə uyğun dəqiqləş-dirməklə şərh edir. | Mətndə işlənən söz və ifadələrin kontekstə uyğun mənasının müəyyənləşdirilməsi, onların həqiqi və ya məcazi mənada işlənməsinin dəqiqləşdirilməsi və konkret misallarla şərh edilməsi. | Mətn, söz, ifadə, kontekstə uyğun məna, həqiqi məna, məcazi məna |
| 2.2.1. Mətni düzgün intonasiya ilə oxuyur. | Mətnin düzgün intonasiya qaydalarına uyğun oxunması. Səs tonunun qalxması və enməsi, ritm, temp, tembrdən düzgün ifadə edilməsi, sözlər, söz birləşmələri, eyni zamanda cümlələr arasında fasilənin müəyyən edilməsi. | İntonasiya, ton, tembr, temp, ritm, fasilə |
| 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni | Mətnin məzmununun mənimsənilməsi, tərkib hissələrinin: giriş, əsas hissə və nəticənin müəyyən edilməsi, onlar arasındakı əlaqəni pozmadan verilmiş mətnin müxtəlif | Mətnin tərkib hissələri, giriş, əsas hissə, nəticə, |

| | | |
|---|---|---|
| genişləndirir. | mənbələrdən istifadə etməklə genişləndirilməsi. | mətni genişləndirmə |
| 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. | Mətndəki fikirlərin öyrənilməsi, analiz, sintez edilməsi, konkret fakt və nümunələrə əsaslanaraq onların müxtəlif şərait və situasiyalarda təhlil edilməsi, dəyərləndirilməsi. | Dəyərləndirmə, şərait, situasiya, təhlil |
| 3.1.1. Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. | Verilmiş mövzu ilə bağlı müxtəlif mənbələrdən istifadə etməklə müxtəlif tipli (nəqli, təsviri, mühakimə xarakterli) və formalı (inşa, esse, hekayə) mətnlərin yazılması. | Nəqli xarakterli yazı, təsviri xarakterli yazı, mühakimə xarakterli yazı |
| 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslan-dırır. | Formalaşmış fikir və mülahizələrin təhlil edilməsi, əsaslandırmaq məqsədi ilə real həyat hadisələri ilə əlaqələndirilməsi, müqayisə edilməsi, oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi. | Fikir, mülahizə, əsaslandırma, həyatla əlaqə |
| 3.1.3. Mətnin hissələri, abzas-lar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasındakı əlaqəni pozmadan özünün və başqasının yazdığı mətnin topladığı əlavə materiallardan istifadə etməklə əlaqələndirilməsi, təkmilləşdirilməsi. | Mətn, mətnin hissələri, giriş, əsas hissə, nəticə, abzas, cümlə, təkmilləşdirmə |
| 3.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır. | İşgüzar üslubun tələblərinin öyrənilməsi, müvafiq dil materiallarından istifadə etməklə müxtəlif əməli yazıların (hesabat, akt) yazılması. | Əməli yazı, hesabat, akt |
| 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir. | Mürəkkəb cümlənin növlərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, onların bir-birindən fərqləndirilməsi, tabeli və tabesiz mürəkkəb cümlələrin, mübtəda, xəbər, tamamlıq, təyin, zərflik əlaqəli tabeli budaq mürəkkəb cümlələrin tanınması, baş və budaq cümlələrin fərqləndirilməsi | Mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə, baş cümlə, budaq cümlə |
| 4.1.2. Sözləri və söz birləş-mələrini müxtəlif sintaktik vəzifələrdə işlədir. | Sözlərin söz birləşməsi və cümlədə, söz birləşmələrini cümlədə müxtəlif sintaktik vəzifələrdə işlədilməsi, sözlərin semantik xüsusiyyətlərinə görə, eyni zamanda söz birləşməsinin tərəflərinin cümlənin müxtəlif üzvləri vəzifəsində işlədilməsi. | Söz, söz birləşməsi, söz birləşməsinin tərəfi, cümlə üzvləri |
| 4.1.3. Mürəkkəb cümlədə, va-sitəsiz nitqdə durğu işa-rələrindən istifadə edir. | Mürəkkəb cümlələrdə - tabeli və tabesiz mürəkkəb cümlələrdə, həmçinin vasitəsiz nitqdə vergül, qoşa nöqtə, dırnaq, tire və s. durğu işarələrindən düzgün istifadə edilməsi. | Mürəkkəb cümlə, vasitəsiz nitq, durğu işarələri |

| | | |
|---|---|---|
| 4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir. | Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edilməsi, cümlənin ortasında tire işarəsindən sonra sözlərin (xüsusi isimlər istisna olmaqla) kiçik hərflə yazılması, dialoqlarda yeni cümlə başlayanda tire işarəsindən sonra gələn sözün böyük hərflə yazılması. | Dialoq, vasitəsiz nitq, sözlərin böyük və kiçik hərflə yazılış qaydası |
| **X sinif** | | |
| 1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatlarda yol verilmiş məntiqi nöqsanları müəyyən edir. | Dinlənilən və KİV-dən alınan məlumatların məntiqi ardıcıllıq baxımdan təhlil edilməsi, oradakı məntiqi nöqsanların müəyyənləşdirilməsi. | Dinlənilən məlumat, KİV-dən alınan məlumat, məntiqi nöqsan |
| 1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatları təqdim edilmə formalarına görə fərqləndirir. | Dinlənilən və KİV-dən alınan məlumatların onların müsahibə, şərh və s. təqdimedilmə formasına görə təhlil edilməsi, fərqləndirilməsi, müqayisə edilməsi. | Dinlənilən məlumat, KİV-dən alınan məlumat, təqdim edilmə forması, fərqləndimə |
| 1.2.1. İfadə edəcəyi fikrə uyğun üslub seçir. | Azərbaycan ədəbi dilinin üslublarının fərqləndirilməsi, mövzuyla bağlı ifadə ediləcək fikrə uyğun üslubun seçilməsi, bədii, elmi, məişət və s. üslubların dil xüsusiyyətlərinin müəyyənləşdirilməsi | İdafə ediləcək fikir, fikrə müvafiq üslub, üslub seçmə |
| 1.2.2. Müfəssəl faktlardan, əyani vəsaitlərdən, müvafiq KİV-dən istifadə etməklə fikrini əsaslandırır. | Ensiklopediyalardan, müxtəlif ədəbiyyatlardan və KİV-dən istifadə etməklə əldə etdiyi məlumatları arqumentləşdirərək fikrin əsaslandırılması | Müfəssəl fakt, əyani vəsait, KİV, istifadə, fikri əsaslandırma |
| 1.2.3. Fakt və sitatlardan istifadə etməklə nitqini zənginləşdirir. | Əlavə mənbələrə müraciət etməklə mövzu ilə bağlı fakt və nümunələrin tapılması və onlardan möqsədyönlü sitatlər gətirərək fikrin əsaslandırılması, nitqin zənginləşdirilməsi. | Fakt, sitat, nitqi zənginləşdirmə |
| 1.2.4. Müzakirələrdə söylənilmiş mülahizələri dəyərləndirməklə təqdimatlar hazırlayır. | Müzakirələrdə söylənmiş fikirləri, mülahizələri nəzərə alaraq daha məqsədəuyğun olanlarınının seçilməsi və onlardan istifadə edərək təqdimatın hazırlanması. | Müzakirə, mülahizə, dəyərləndirmə, təqdimat |
| 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqlən-dirir. | Mətnin üslubi cəhətdən təhlil edilməsi, söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirilməsi, verilmiş söz və ifadələrin poetik və terminoloji baxımdan ayrılması. | Oxunan mətn, üslubi xüsusiyyət, poetik, terminoloji, fərqləndirmə |
| 2.1.2. Söz və ifadələrə əsasən | Ədəbi dilin üslublarının – bədii, elmi, məişət, rəsmi-işgüzar, publisistik üslubun dil | Mətn, söz, ifadə, üslub, |

| | | |
|---|---|---|
| oxuduğu mətnin üslubunu müəyyənləşdirir. | xüsusiyyətlərinin müəyyənləşdirilməsi, mətndəki söz və ifadələrin üslubi cəhətdən təhlil edilərək mətnin dilin hansı üslubuna aid olduğunun müəyyənləşdirilməsi. | müəyyənləşdirmə |
| 2.2.1. Mətni ədəbi dilin normalarına uyğun oxuyur. | Ədəbi dilin fonetik, leksik və qrammatik normalarına aid xüsusiyyətlərin müəyyənləşdirilməsi, ədəbi dil normalarının tələblərini gözləməklə mətnin düzgün oxunması. | Ədəbi dilin normaları, fonetik norma, leksik norma, qrammatik norma |
| 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir. | Mətni oxuyub əsas tərkib hissələrinin –giriş, əsas hissə. nəticənin ayrılması, lazım gələrsə, böyük abzasların tezislər şəklində ifadə edilməsi | Mətn, mətnin hissələri, abzas, tezis |
| 2.2.3. Mətnin məzmununu xülasə şəklində ifadə edir. | Mətnin məzmununu qısa şəkildə ifadə etmək üçün mətndən əsas fikri ifadə edən bir neçə cümlənin seçilməsi və ya əsas fikri saxlamaqla öz cümləleri ilə mətnin məzmununun qısa və lakonik şəkildə ifadə edilməsi. | Mətn, əsas fikir, məzmun, lakonik |
| 3.1.1. Mövzuya uyğun üslub seçir. | Verilmiş mövzuya dair materialların tapılması, ifadə edəcəyi fikrə uyğun üslubun (bədii, elmi, rəsmi-işgüzar, publisistik və ya məişət üslubu) seçilməsi. | Mövzu, mətn, üslub |
| 3.1.2. Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır. | Mövzu ilə bağlı toplanmış materiallara əsasən müxtəlif mülahizələrin müqayisə edilməsi, təhlil edilməsi, mətn fomalaşdırılması. | Mövzu, mülahizə, müqayisə, mətnin formalaşdırma |
| 3.1.3. Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir. | Mətnin oxunması, dil xüsusiyyətlərinin müəyyənləşdirilməsi, üslubunda çatışama-yan cəhətlərin tapılması, vahid üsluba uyğunsuzluğun aradan qaldırılması ilə yazıya düzəlişlər edilməsi. | Mətn, üslub, düzəliş |
| 3.1.4. Müxtəlif əməli yazılar (rəy, məruzə) yazır. | İşgüzar üslubun tələblərinin öyrənilməsi, müvafiq dil materiallarından istifadə etməklə müxtəlif rəy, məruzə əməli yazılar yazaraq bu üslubda yazı vərdişlərini nümayiş etdirilməsi. | Əməli yazı, rəy, məruzə |
| 4.1.1. Ədəbi dilin normalarına uyğun müxtəlif cümlə konstruk-siyaları qurur. | Ədəbi dilin normalarının müəyyənləşdirilməsi, həmin normalara (fonetik, leksik, qrammatik) müvafiq olaraq müxtəlif cümlə konstruksiyalarının qurulması. Verilmiş mətndə ədəbi dil normalarına tabe olmayan xüsusiyyətlərin tapılması. | Ədəbi dilin normaları, leksik norma, qrammatik norma, cümlə konstruksiyaları |
| 4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir. | Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına (leksik, qrammatik) riayət edilməsi, mətnin fonetik, leksik və qrammatik dil normalarına uyğun olaraq düzgün yazılması. | Sözün qrammatik xüsusiyyətləri, sözün məna xüsusiyyətləri, ədəbi dilin normaları, leksik |

| | | |
|---|---|---|
| | | norma, qrammatik norma |
| 4.1.3. Müxtəlif cümlə konstruksiyalarında durğu işa-rələrindən istifadə edir. | Ayrı-ayrı cümlə konstruksiyalarında durğu işarələrindən düzgün istifadə edilməsi, müxtəlif tipli mürəkkəb cümlələrdə vergül, qoşa nöqtə, tire, nöqtəli vergüldən düzgün istifadə edilməsi. | Cümlə konstruksiyası, durğu işarəsi |
| 4.1.4. Mətnin tərtibatı zamanı müxtəlif yazılış formalarından istifadə edir. | Verilmiş hər hansı mövzuya uyğun yazı formasının seçilməsi, ifadə, inşa, hekayə və s. yazı formalarından istifadə edərək mətn tərtib edilməsi. | Mətnin tərtibatı, yazılış forması |
| **XI sinif** | | |
| 1.1.1. Dinlədiyi və KİV-dən aldığı məlumatları təhlil edir. | Verilmiş mövzu ilə bağlı məlumatların dinlənilməsi, KİV-dən - televiziya, radio, internet, qəzet və jurnallardan istifadə edərək həmin mövzuya dair materialların toplanılması və təhlil edilməsi. | Dinlənilən məlumat, KİV-dən alınan məlumat, təhlil etmə |
| 1.1.2. Dinlədiyi və KİV-dən aldığı məlumatlara münasibət bildirir. | Dinlənilən və KİV-dən alınan məlumatların müqayisə edilməsi, təhlil edilməsi, qiymətləndirilməsi, onlara münasibət bildirilməsi. | Dinlənilən məlumat, KİV-dən alınan məlumat, münasibət bildirmə |
| 1.2.1. Fikrini müxtəlif üslublarda ifadə edir. | Azərbaycan ədəbi dilinin funksional üslublarının dil xüsusiyyətlərinin müəyyənləşdirilməsi. Fikrin müxtəlif üslublarda: bədii, elmi, məişət, publisistik, rəsmi-işguzar üslubda düzgün ifadə olunması. | Fikri ifadə etmə, müxtəlif üslublar, ədəbi dil |
| 1.2.2. Əsaslandırılmış fikir və mülahizələr söyləyir. | Verilmiş mövzu ilə bağlı müxtəlif ədəbiyyatlardan, lüğətlərdən, internetdən istifadə etməklə məlumat toplanılması. Fikir və mülahizlərin müxtəlif vasitələrdən, fakt və nümunələrdən istifadə etməklə əsaslandırılması. | Əsaslandırılmış fikir, əsaslandırılmış mülahizə |
| 1.2.3. Yardımçı vasitələrdən istifadə etməklə müxtəlif nitq nümunələri qurur. | Yardımçı vasitələrdən (sual, dialoq, sxem, cədvəl və s.) istifadə etməklə daha inandırıcı və ifadəli nitqin qurulması. | Yardımçı vasitə, nitq nümunələri |
| 1.2.4. Problemlə bağlı fakt və dəlillərlə əsaslandırılmış təqdi-matlar edir. | Fikirləri əsaslandırmaq məqsədi ilə problemlə bağlı topladığı konkret məlumat, şəkil xarakterli fakt və dəlillərdən istifadə edilərək təqdimatların hazırlanması. | Fakt və dəlil, fikri əsaslandırma |
| 2.1.1. Öyrəndiyi söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Verilmiş mətnin dil-üslub cəhətdən təhlil edilməsi, sözlərin üslubi xüsusiyyətlərinin (poetik, terminoloji) izah edilməsi. | Üslubi xüsusiyyət, poetik və terminoloji xüsusiyyətlər, izah etmə |

| | | |
|---|---|---|
| 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edir, qiymətləndirir. | Mətndəki söz və ifadələrin üslubi xüsusiyyətlərinin (poetik, terminoloji) müəyyənləşdirilməsi, verilmiş mətnin dil və üslub xüsusiyyətlərinə görə müqayisə edilməsi, qiymətləndirilməsi. | Söz, ifadə, üslubi xüsusiyyət, sözün poetik funksiyası, sözün terminoloji xüsusiyyətlər. |
| 2.2.1. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni oxuyur. | Verilmiş mətnin aid olduğu üsluba məxsus tələbləri gözləməklə düzgün, ifadəli oxunması. | Üslub, ifadəli oxu, struktur |
| 2.2.2. Mətnin məzmununu saxlamaqla strukturunu dəyişir. | Məzmun və forma, struktur anlayışlarının müəyyənləşdirməsi, mətnin məzmununun saxlanması şərti ilə strukturunda dəyişikliklərin edilməsi. | Məzmun, struktur dəyişiklik |
| 2.2.3. Mətni məzmununa əlavələr etməklə genişləndirir. | Mətnin məzmununu ifadə edərkən mətnin mövzu, məzmun və ideyasına müvafiq seçilmiş fakt və hadisələrə dair nümunələr gətirərək mətnin məzmununun genişləndirilməsi. | Mövzu, məzmun, ideya, fakt, hadisə, mətn, genişləndirmə |
| 3.1.1. Üslubi xüsusiyyətləri gözləməklə müxtəlif mətnlər yazır. | Ədəbi dilin üslublarının fərqləndirilməsi, verilmiş mövzu ilə bağlı seçilmiş üslubun dil xüsusiyyətlərindən düzgün istifadə edərək müxtəlif mətnlərin yazılması. | Mətn, üslub, üslubi xüsusiyyət |
| 3.1.2. Müxtəlif yanaşmalara və şəxsi düşüncələrə istinadən əsaslandırılmış mətnlər qurur. | Mövzuya dair məlumatların toplanması və təhlil edilməsi, məsələyə müxtəlif aspektdən yanaşılaraq şəxsi düşüncələrə əsaslanan fikrin ifadə edilməsi ilə mətn qurulması. | Müxtəlif yanaşma, şəxsi düşüncə, əsaslandırma |
| 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir. | Yazılan mətnin təhlil edilməsi, dil materialları ilə zənginləşdirilməsi, üslubi və struktur cəhətdən təkmilləşdirilməsi. | Mətnin strukturu, mətnin üslubu, mətnin təkmilləşdirilməsi |
| 3.1.4. Müxtəlif əməli yazılar (referat, təqdimat) yazır. | İşgüzar üslubun tələblərinin öyrənilməsi, müvafiq dil materiallarından məqsədyönlü istifadə edilməsi, həmin üslubun tələblərini gözləməklə müxtəlif əməli yazıların( referat, təqdimat) yazılması. | Əməli yazı, referat, təqdimat |
| 4.1.1. Müxtəlif cümlə konstruksiyalarından məqsədyönlü istifadə edir. | Mətnin məzmununun öyrənilməsi, onun strukturuna və üslubuna müvafiq olaraq müxtəlif cümlə konstruksiyalarından məqsədyönlü istifadə edilməsi. | Mətnin strukturu, mətnin üslubu, cümlə konstruksiyaları |
| 4.1.2. Qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə edir. | Sözləri quruluşuna və leksik mənasına görə təhlil edilməsi, sadə, düzəltmə və ya mürəkkəb olduğunun, sinonimlik, omonimlik, antonimlik və digər qrammatik-semantik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və bunları gözləməklə verilmiş sözlərin üslubi imkanlarına görə fərqləndirilməsi. | Qrammatik xüsusiyyət, semantik xüsusiyyət, üslubi imkan, fərqləndirmə |

| | | |
|---|---|---|
| 4.1.3. Nitqin düzgünlüyü və ifadəliliyini təmin edən durğu işa-rələrindən məqsədyönlü istifadə edir. | Yazıda nitqin düzgünlüyünə və ifadəliliyinə xidmət edən durğu işarələrinin düzgün yerində işlədilməsi | Nitqin düzgünlüyü, nitqin ifadəliliyi, durğu işarələri |
| 4.1.4. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır. | Mətndəki sözlərin üslubi çalarlarından asılı olaraq böyük və ya kiçik hərflərlə yazılması. | Üslubi çalar, böyük hərflə yazılan sözlər, kiçik hərflə yazılan sözlər |

## Tezaurus

***Alt standart*** -əsas standartda ifadə olunmuş fikrin müəyyən hissəsidir.

***Azərbaycan dili fənninin tədris vahidi*** - dərslikdəki mövzuların tematik qrupudur.

***Dərslik*** - dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

***Dərslik*** - dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

***Dəyərlər*** -şəxsiyyəti şətləndirən keyfiyyətdir.

***Fəal (interaktiv) təlim*** - şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

***Fəal (interaktiv) təlim*** - şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

***Fəaliyyət*** - 1. Hər hansı bir sahədə iş, çalışma; fəallıq göstərmə; aktivlik. 2. Iş, işləmə.

***Fənn kurikulumu*** - fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual sənəddir.

***İdrak fəaliyyəti*** - idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil

edir. Ona görə də “hafizə məktəbi”ndən fərqli olaraq “təfəkkür məktəbi”ndə təlim stanadartları hazırlanarkən onlar əsas götürülür.

***İnteqrasiya*** - müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

***İdrak fəaliyyəti*** - idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, təhlil etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil edir. Ona görə də “hafizə məktəbi”ndən fərqli olaraq “təfəkkür məktəbi”ndə təlim standartları hazırlanarkən onlar əsas götürülür.

***İnteqrasiya*** - müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

***Kurikulum*** - təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

***Kurrikulum*** - təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir.

***Qaynaq*** - 1. Tədqiqat və araşdırmalar məqsədi ilə istinad edilən elmi, tarixi, bədii, fəlsəfi və b. mənbə.

***Qiymətləndirmə standartı*** - təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

***Qiymətləndirmə standartı*** - təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

***Milli kurikulum*** - ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

***Məzmun xətti*** - fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmununun zəruri hissəsidir.

***Məzmun standartı*** - dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbdir.

***Milli kurikulum*** - ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

***Nəticəyönümlülük*** - yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərindən biridir. Bu pirinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

***Nəticəyönümlülük*** - yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərdən biridir. Bu pirinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

***Paralinqvisitk vasitələr –*** jest (əl hərəkətləri) və mimika (üz hərəkətləri).

***Pedaqoji innovasiya*** - təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə çevrilir.

***Pedaqoji innovasiya*** - təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə çevrilir.

***Şagird naliyyətləri*** - bilik və bacarıqlar əsasında qazanılan dəyərlərdir.

***Şəxsiyyət*** - 1. Bir şəxsə xas olub onun fərdiyyətini müəyyən edən xüsusiyyətlərin məcmusu. 2. Öz xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi və s. baxımından insan, şəxs, sima.

***Şəxsiyyətyönümlülük*** – Milli Kurikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiyyətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir.

***Şəxsiyyətyönümlülük*** – Milli Kurrikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiyyətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir. Şəxsiyyətyönümlü təhsilin keyfiyyət göstəricisi sadəcə bilik və ya bacarıqlar deyil, milli səviyyədə müəyyən olunmuş ümumi nəticələrə uyğun səviyyənin (kompetensiya, keyfiyyət və ya mədəniyyət göstəricilərinə uyğun səviyyənin) əldə edilməsidir.

***Taksonomiya*** - yanan sözdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitgi orqanizmilərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdə psixologiyada istifadə olunmağa başlanmışdır.

***Təhsildə qiymətləndirmə sistemi*** - beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsini və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

***Təlim nəticəsi*** - müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutlan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

***Təlim strategiyası*** - təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

***Təlimin məzmunu*** - şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

***Təlimin məzmunu*** - şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

***Təlim nəticəsi*** - müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

***Taksonomiya*** - yunan sözdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitgi orqanizmilərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdən psixologiyada istifadə olunmağa başlanmışdır.

***Təhsildə qiymətləndirmə sistemi*** - beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsini və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

***Təlim strategiyası*** - təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

***Azərbaycan dili fənn kurikulumu*** - fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual sənəddir.

***Azərbaycan dili fənninin məzmun xətti*** - fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

***Azərbaycan dili fənninin məzmun standartı*** - dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduğu dövlət tələbdir.

## Resurslar

1. Məktəbli lüğətləri (Məktəblinin orfoepiya lüğəti, Məktəblinin orfoqrafiya lüğəti, Məktəblinin izahlı lüğəti, Məktəblinin frazeologiya lüğəti, və s.)

2. Əyani vasitələr

3. Əməli yazı nümunələri

4. Dilçiliyə dair sxemlər

5. Audio-vizual vasitələr

6. İfadəli oxu vasitələri (oxu üçün müxtəlif mətnlər)

7. Qiymətləndirmə vasitələri

8. Test

9. Dilçiliyə dair krossvordlar (leksikaya dair krossvord, fonetikaya dair krossvord və s.)

10. Dilçiliyə dair cədvəllər (kolleqrafik cədvəl, heca cədvəllər, hüsnxətt cədvəlləri və s.)

11. Şəkilli heca kartoçkaları

## İstifadə olunmuş ədəbiyyat

### Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. "Kurikulum" jurnalı, 2009, №4.
3. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006
4. Əhmədova M, Əliyev M, Qasımlı M və b.Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) Baki "Adiloglu", 2005
5. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Bakı, ADPU, 2008.
6. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqoqika", 2004.
7. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, "Adiloğlu", 2001.
8. Hüquqlara aparan yol. Metodik vəsait. Norveç qaçqınlar şurası, 2004
9. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait. Norveç qaçqınlar şurası,2003
10. Kazunov A. Milli pedaqoqika yollarında Bakı, "Ağrıdaq", 2001.
11. Kərimova F, Əhmədova M.C və b. İntqrativ kurikulum: mahiyyəti və nümunələr. Baki "Adiloglu", 2005
12. Qasımova L.N. Pedaqoqika Mühazirə kursu. Bakı, 2003.
13. Qədimova X. İnteraktiv təlim metodları, Bakı,2005
14. Mərdanov M. Azərbaycanın təhsili dünən, bu gün, sabah. Bakı, "Təhsil", 2006.
15. Mərdanov M.,Şahbazlı Azərbaycanın təhsil siyasəti (1998-2004), II kitab, Bakı, "Çaşıoğlu", 2005.
16. Mərdanov M.,Şahbazlı F. Azərbaycanın təhsil siyasəti (1998-2005), II kitab, Bakı, "Təhsil", 2005.
17. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqoqika Yeni kurs. Bakı, "Nurlan", 2007.

18. Ümumi təhsilin dövlət standartları və proqramları. “Kurikulum” jurnalı, 2010, №3
19. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait, 2007
20. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, “Təhsil”, 2008, 480 səh.
21. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, “Kövsər”, 2008, 224 səh.
22. İbtidai siniflər üçün yeni fənn kurikulumlarına dair gündəlik planlaşdırma nümunələri. Bakı, “Kövsər”, 2010, 196 səh.
23. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, “Kurikulum” jurnalı, 2010, №3, səh. 115-130.
24. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, “Mütərcim”, 2011, 344 səh.
25. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, “Mütərcim”, 2012, 402 səh.
26. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası. Bakı, “Kurikulum” jurnalı, 2009, №2, səh. 138-150.

**Rus dilində**

1. Materialı razrabotke naüionalğnoqo standarta sredneqo obheqo obrazovaniə Respubliki Kazaxstan, Almatı, 2004.

**İngilis dilində**

1. Reading/Language arts framework for California Public schools. Kindergarten Through Grade Twelve .Published by the California Department of Education, 1999
2. Borich,G.D. Effective teaching methods. Upper Saddle River,1996
3. Devine, Thomas G, Teaching studies skills, Boston, 1987

4. English  As a Second Language and English Literacy Development. The Ontario Curriculum.  Grades 1-8. Ministry of Education  of Ontario,1999
5. English language Arts Learning  standards and Core curriculum. Pre K-Grade 5, 1999
6. English. The Ontario Curriculum.  Grades 1-8. Ministry of Education  of Ontario, 2000
7. Health and Physical Education. The Ontario Curriculum.  Grades 11-12. Ministry of Education  of Ontario,2000
8. History –social science  framework for California  Public schools .Edition with  Criteria for Instructional Materials, Sacramento,  2005
9. John S.Kendall and .Marzano J. Robert,  Content  knowledge. A compendium of standards and benchmarks for K-12  Education, 1996
10. John U.Michaelis, Jesus Garcia, Social studies for children. A guied to basic instruction, 1996
11. Language. The Ontario Curriculum.  Grades 1-8. Ministry of Education  of Ontario, 2006
12. Mary E. Haas and Margaret A. Laughlin, Meeting the standards  Readings for K-6 Educators, 1999
13. Marzano, Robert.J,  Reading  Diagnosis  and İnstruction, 1987
14. Mathematics curriculum Pre K-12 Missoula  County  Public  Schools, Missoula,  2003
15. Mathematics. The Ontario Curriculum.  Grades 1-8. Ministry of Education of Ontario, 2005
16. Montana office of public  Instruction. Montana standards for social studies. Missoula, 2000
17. Native Languages. The Ontario Curriculum.  Grades 1-8. Ministry of Education  of Ontario, 2001
18. NCSS  Expectations of excellence: Curriculum  standards for social studies(Bulletin 89) Washington, DC, 1999
19. Peter Morterella,Candy M.Beal,Chearyl Mason Bolick,  Teaching social studies in middle and secondry schools,  Ohio, 2005

20. Science and Technology. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 1998
21. Stephanie Wasta, Teaching social studies, 2006
22. The arts. The Ontario Curriculum –Exemplars Grades 2,5 and 7. Ministry of Education of Ontario, 2004
23. The National Curriculum. Handbook for secondary teachers in England , London, 1999
24. Virginia/USA Government Program of studies. Fairfax County Public Schools, 1998
25. Wiseman Donna. L, Reading Instruction: A literature Based Approach /Englewood Cliffs,1991

**Türk dilində**

1. T.C Milli Egitim Bakanlığı.Talim və Terbiye Kurulu Başkanlığı. Türkçə Dersi (6-12. Sınıflar) Ögretim Programı və Kılavuzu , Ankara, 2005